RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 107 (9562) 23 may 2024-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# İqtisadi inkişaf, sosial rifah

## İlin əvvəlindən ölkə üzrə ÜDM istehsalı 4,3, orta aylıq nominal əməkhaqqı 9,3 faiz artmışdır

**Dünya qaynayır. Çox vaxt silahlı toqquşma səviyyəsinə çatan qarşıdurmanın biri səngiməmiş, digəri başlayır.**

Heç kim də geri çəkilmək, kompromisə gəlmək, güzəştə getmək istəmir. Nə dünəndən dərs götürürlər, nə də sabahı fikirləşirlər. Adamların ah-naləsi bir yana, Tanrının qəzəbindən də qorxmurlar.

Belə bir vaxtda duruş gətirib cari və qlobal problemləri yoluna qoymaq, dünyanın və regionun siyasi labirintlərindən salamat çıxmaq, hələ üstəlik də inkişaf etmək, qarşıya qoyulan hədəflərə çatmaq heç kimə asan gəlməsin. Xüsusən də Azərbaycan kimi özü kiçik, daşı ağır ölkə üçün. Bəli, bu gün ölkəmiz 2020-ci və 2023-cü illərin zəfərlərindən sonra özünün müstəqillik və dövlətçilik tarixinə yeni səhifələr yazır. Bundan məmnun qalan, sevinən qardaş və dostlarımızla bərabər, təəssüf ki, 2020-ci il sentyabrın 27-dən bəri qazandığımız qələbələri, yumşaq desək, gözü götürməyənlər də var. Onlar hər yolla haqq işimizə kölgə salmağa, inkişafımıza mane olmağa çalışırlar. Ancaq bu zaman unudurlar ki, Azərbaycan həmin qələbələri onların "xeyir-duası" ilə qazanmayıb ki, şər-şəbədələri ilə də itirsin. Bir də yaddan çıxarırlar ki, bu gün ölkəmizin və xalqımızın onların hər addımda korluq çəkdikləri, ehtiyac duyduqları lider problemi yoxdur. Azərbaycan artıq 21 ildir İlham Əliyevin rəhbərliyi ilə inkişaf edərək irəli gedir. Özü də bu inkişaf bütün - siyasi-hərbi və sosial-iqtsadi sahələri əhatə edir.

→ 10

**◆ Tacikistan Prezidenti Emoməli Rəhmonun Azərbaycana dövlət səfəri**

# Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılanma



**Mayın 22-də Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon Azərbaycan Respublikasına dövlət səfərinə gəlib.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonu Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər qarşıladılar.

# Qarabağ və Şərqi Zəngəzur dünyanın ən gözəl məkanlarına çevriləcək

Regiona ayrılan vəsait və görülən işlər hər bir Azərbaycan vətəndaşını sevindirir. Eləcə də azadlığına qovuşan rayonlara gələn və burada işlərin gedişi ilə tanış olan mötəbər qonaqlar Azərbaycanda həyata keçirilən tədbirlərə və bu ərazilərin yenidən qurulmasına çox böyük önəm verir və yüksək qiymətləndirirlər. Belarus Prezidenti Lukaşenko da Qarabağ və Şərqi Zəngəzurun bərpa işlərinə dəstək verəcəklərini bildirdi və buna görə məmnunluğunu ifadə etdi. Qeyd etdi ki, Belarus sahibkarları bu işdə öz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəklər. Əlbəttə ki, bu, dost köməyi, dost təşəbbüsüdür. Eyni zamanda Azərbaycan Prezidenti İlham Əliyevin dünya ölkələri ilə əməkdaşlığın möhkəmlənməsi sahəsində göstərdiyi səylərinin nəticəsidir.

Bu gün Qarabağda və Şərqi Zəngəzurda Özbəkistan, Qazaxıstan, Sloveniya, eləcə də Belarusun təşəbbüsü ilə məktəblərin, mədəniyyət ocaqlarının, bağçaların və digər obyektlərin tikilməsinə göstərilən təşəbbüslər dövlətimizin yürütdüyü uğurlu siyasətin parlaq ifadəsidir: "Bunu Azərbaycan xalqı qiymətləndirir. Ölkələrarası əlaqələrin bu istiqamətdə möhkəmləndirilməsi xalqların milli maraqlarına və mənafelərinə uyğundur. Hazırda sürətlə inkişaf edən əzəli torpaqlarımızda bundan sonra da quruculuq tədbirlərinin görülməsi ölkə rəhbərinin diqqətində saxlanılacaq.

→ 8

# Kanaklar müstəqillik tələbində israrlıdırlar

## Paris isə dünyanın gözü qarşısında Yeni Kaledoniya xalqının azadlıq hüququnu ayaqlar altına atır

Fransa əlində olan son koloniyaları, eləcə də Yeni Kaledoniyanı itirməmək üçün bütün qanunsuz vasitələrə baş vurur. Paris adada seçki kütləsinin sayının qanunsuz genişləndirilməsinə çalışır və kanakların dəfələrlə etdikləri xəbərdarlıqlara, dialoq çağırışlarına baxmayaraq, hökumət layihəni artıq Fransa Parlamentinin hər iki palatasında qəbul etdirib və hazırda Yeni Kaledoniya xalqının boynuna son boyunduruq ilgəyini atmaq istəyir.

Lakin kanaklar əsarətdən, Fransa zülmündən qurtulmaq üçün ayağa qalxaraq etirazlar edirlər. Onlar Yeni Kaledoniyaya aid qərarların kaledoniyalıların iştirakı olmadan qəbul edilməsinə əsla imkan verməyəcəklərini bildirilər. Bir sözlə, haqq səsini ucaldan kanak xalqı müstəqillik tələblərində israrlı olduğunu, sonadək mübarizə apararaq, dirənc göstərərək, azadlıqlarına nail olacağını nümayiş etdirir.

Yeni Kaledoniyanın müstəqilliyə qovuşması beynəlxalq sənədlərə, xüsusən BMT-nin xalqların öz müqəddəratını təyinetmə hüququ ilə bağlı 1514 saylı qətnaməsinə tamamilə uyğun öhdəlikdir.

Qeyd edək ki, XXI əsrdə hələ də müstəmləkəçilikdən əziyyət çəkən dünyanın müxtəlif bölgələrində yerləşən xalqların azadlıq uğrunda apardıqları mübarizəyə xüsusi dəstək verən Bakı Təşəbbüs Qrupu Yeni Kaledoniyada da Makron hakimiyyətinin zülmünün dünyaya çatdırılmasına öndərlik edir.

Bakı Təşəbbüs Qrupu Yeni Kaledoniyada kanakların həbs olunması və mülki şəxslərə qarşı zorakılığa dair bu il mayın 14-də bəyanat verib. Mayın 16-da BTQ və Fransanın son koloniyaları olan Kanaki (Yeni Kaledoniya), Maohi Nui (Fransız Polineziyası), Fransız Qvianası, Martinik, Qvadelupa və Korsikadakı müstəqillik uğrunda mübarizə aparan 14 siyasi hərəkat birgə bəyanat yayıblar.

→ 9

# COP29 ölkəmizin növbəti böyük uğuru olacaq

Azərbaycan artıq neçə ildir ki, "yaşıl enerji"yə keçid istiqamətində nəhəng işlər həyata keçirir. Baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi müəyyənləşdirib.

Bütün dünya bilir ki, Ermənistan otuz ilə yaxın işğal altında saxladığı Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur bölgələrində yalnız tarixi və müasir tikililəri, infrastrukturları dağıdaraq yerlə yeksan etməyib, həm də həmin ərazilərin təbiətini məhv edib. Hazırda həmin ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir. Qeyd edək ki, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan bölgələri Azərbaycanda "yaşıl enerji" zonaları elan olunub .




"Yaşıl enerji"yə keçid, qeyd etdiyimiz kimi iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə mühüm addımdır. Prezident İlham Əliyev iqlim dəyişikliklərinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə 2024-cü ili ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edib. Dövlət başçısı "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" 2021-ci il 3 may tarixli Sərəncam imzalayıb. Sənədə əsasən, Nazirlər Kabineti tərəfindən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022-2026-cı illərdə "yaşıl enerji" zonasının yaradılması ilə bağlı Tədbirlər Planı" təsdiq edilib.

Azərbaycan kimi tarixən zəngin neft resursları ilə tanınan bir ölkənin hazırda "yaşıl enerji"yə keçid sahəsində də ön sırada dayanması, nümunə göstərməsi təqdirəlayiqdir. Prezident İlham Əliyev bəyan edib ki, Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir: "Dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz "yaşıl enerji" ilə bağlıdır. "Yaşıl enerji" növlərinin yaradılması və "yaşıl enerji"nin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək".

→ 11

# Paşinyan kilsəni vergi ilə cəzalandırmaq istəyir

## Keçmiş hərbi xuntaya isə inam qalmayıb

Hayastanda din amili böyük əhəmiyyət kəsb etdiyindən hakimiyyətə gələnlər mütləq kilsənin də dəstəyinə nail olmağa çalışırlar. Lakin əhalinin etirazları fonunda Paşinyan əvvəlki hökumətin adamı olan II Qaregini vəzifədən uzaqlaşdırmağa çox cəhd etsə də, səriştəsizliyindən bütün səyləri nəticəsiz qalıb.

Paşinyan hökumətinin kilsə başçısına qarşı mübarizəsi Qareginin mühafizəçilərinin dövlətdən maliyyələşdirilməsini dayandırmaqla başlayıb. Bundan sonra proses kilsənin fırıldaqla məşğul olması, dələduzluğu, 12 milyon dollar məbləğində ianənin mənimsənilməsi, Qareginin hökumətə qarşı çıxışları ilə davam edib.

Hayastanda kilsə ilə hökumət münasibətləri 44 günlük müharibədən sonra daha da kəskinləşib. Onda Qaregin Nikol Paşinyanın istefasını tələb etmişdi. O, kilsə ilə hökumət arasında əməkdaşlığın yetərli olmadığını da vurğulamışdı.

Son günlərdə İrəvanda xalqı Paşinyana qarşı qaldırmağa çalışan, səsləndirdiyi fikirlərlə, açıqlamaları ilə yerli medianın diqqət mərkəzində yer alanlardan biri də sabiq baş nazir Qrant Baqratyandır. O da Hayastanı növbəti vətəndaş qarşıdurmasına sürükləməyə çalışır. Məqsəd isə hakimiyyətlə xalq arasında uçurumu daha da dərinləşdirməkdir. Baqratyan erməni diasporunun siyasətdəki ən ciddi fiqurlarından biridir. Baqratyan sülh prosesinin və Ermənistan - Türkiyə əlaqələrinin bərpasına qarşı sərt müxalif mövqe ortaya qoyur.

Hər halda proseslərin gedişi Hayastanı qarşıdakı dövr ərzində daha çətin günlərin və qarşıdurmaların gözlədiyini göstərir.

→ 12

# Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin adının dəyişdirilməsi və "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 9 iyul tarixli 680 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbi Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Hərbi İnstitutu adlandırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi bu Fərmandan irəli gələn məsələləri həll etsinlər.

3. "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 9 iyul tarixli 680 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 7, maddə 689 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

3.1. adında və 1-ci hissədə "Ali Hərbi Məktəbinin" sözləri "Hərbi İnstitutunun" sözləri ilə əvəz edilsin;

3.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin Nizamnaməsi" aşağıdakı redaksiyada verilsin:

**"Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Hərbi İnstitutunun**

**NİZAMNAMƏSİ**

### 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Hərbi İnstitutu (bundan sonra - İnstitut) ali və əlavə təhsil proqramlarını həyata keçirən, tətbiqi elmi tədqiqatlar aparan xüsusi təyinatlı dövlət ali hərbi təhsil müəssisəsidir.

1.2. İnstitut öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin normativ hüquqi aktlarını, Azərbaycan Respublikası daxili işlər nazirinin əmr və sərəncamlarını rəhbər tutur.

1.3. İnstitutun fəaliyyətinin əsas məqsədi ali təhsilin bakalavriat səviyyəsi üzrə ali hərbi təhsilli zabit kadrları hazırlamaq, hərbi elmlər sahəsində tətbiqi elmi tədqiqat işlərinin aparılmasını həyata keçirmək və hərbi qulluqçuların əlavə təhsilini təşkil etməkdir.

1.4. İnstitut hüquqi şəxsdir, onun müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, döyüş bayrağı və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin adı və öz adı həkk olunmuş möhürü, ştampları və blankları vardır.

1.5. İnstitutun əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. İnstitut məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edə bilər.

1.6. İnstitut öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət orqanları (qurumları) ilə, yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.7. İnstitut "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq akkreditasiya edilir.

1.8. İnstitutda siyasi partiyaların və dini qurumların strukturlarının yaradılmasına və fəaliyyətinə yol verilmir.

1.9. İnstitut Bakı şəhərində yerləşir.

### 2. İnstitutun fəaliyyət istiqamətləri

2.1. İnstitutun fəaliyyətinin əsas istiqamətləri tədris, təlim-tərbiyə, metodiki və elmi tədqiqat işlərindən ibarətdir.

2.2. Tədris işi hərbi-nəzəri və hərbi-praktiki biliklərə yiyələnmiş ali hərbi təhsilli zabit kadrları hazırlamaqdan, bütün növ tədris məşğələlərinin planlaşdırılmasından və həyata keçirilməsindən, təcrübi məşğələlərə rəhbərlik etməkdən, dəyişən heyətin tədris materialını mənimsəməsinin qiymətləndirilməsindən ibarətdir.

2.3. Təlim-tərbiyə işi şəxsiyyətin formalaşması üçün mütəşəkkil məqsədyönlü proses olmaqla, hərbi vətənpərvərlik, mənəvi-əxlaqi, hüquqi və fiziki tərbiyə məsələlərinin həllinə kompleks yanaşma əsasında tədris prosesi ilə birgə aparılır.

2.4. Təlim-tərbiyə işinin mahiyyəti aşağıdakılardan ibarətdir:

2.4.1. dəyişən heyətə vətənpərvərlik hissləri aşılamaq, onları Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına və digər normativ hüquqi aktlara əməl etmək, habelə insan və vətəndaş hüquq və azadlıqlarına hörmət ruhunda tərbiyə etmək;

2.4.2. dəyişən heyətə dövlətə, xalqa sədaqət, xidməti borcun yerinə yetirilməsinə məsuliyyətlə yanaşma, yüksək intizam və mənəviyyat, mətinlik, fiziki dözümlülük və hərbi peşəkarlıq keyfiyyətləri aşılamaq;

2.4.3. dəyişən heyətin hərbi nizam-intizamını və döyüş hazırlığını təmin etmək;

2.4.4. dəyişən heyətin milli və ümumbəşəri dəyərlərə yiyələnməsini təmin etmək.

2.5. Metodiki işin məqsədi bütün növ tədris məşğələlərinin keçirilməsi metodikasını təkmilləşdirmək, onun keyfiyyətini və effektivliyini artırmaq, rəhbər heyətin, professor-müəllim heyətinin və dəyişən heyətin komandirlərinin peşəkarlıq səviyyəsini artırmaqdır.

2.6. Metodiki işin əsas formaları aşağıdakılardır:

2.6.1. tədris məşğələlərinin, təlim-tərbiyə işinin aparılması və təminatı üçün tədris-metodiki sənədlərin işlənilməsi;

2.6.2. rəhbər heyətin, professor-müəllim heyətinin və dəyişən heyətin komandirlərinin pedaqoji ustalığının artırılması, bu məqsədlə tədris-metodiki toplantıların, müşavirələrin və elmi-metodiki konfransların keçirilməsi;

2.6.3. tədris məşğələlərinə nəzarətin həyata keçirilməsi;

2.6.4. pedoqoji (metodiki) təcrübənin keçirilməsi və onun nəticələrinin tədris prosesində tətbiqi;

2.6.5. tədris və təlim-tərbiyə prosesi metodikasına İnstitutun Elmi Şurasında və kafedra iclaslarında baxılma.

2.7. İnstitutun elmi tədqiqat fəaliyyəti hərbi elmin müvafiq sahələrinin inkişafına və tətbiqi elmi tədqiqatların nəticələrinin tədris prosesində tətbiqinə yönəldilir.

2.8. Elmi tədqiqat işinin mahiyyəti aşağıdakılardan ibarətdir:

2.8.1. dərsliklər, dərs vəsaitləri, monoqrafiyalar, məcmuələr, mühazirə, elmi-metodiki və konfrans materialları, həmçinin məlumat bülletenləri hazırlamaq;

2.8.2. tətbiqi elmi tədqiqat işlərinin aparılmasını təşkil etmək və həmin sahədə metodiki kömək göstərmək.

### 3. İnstitutun vəzifələri və hüquqları

3.1. İnstitutun vəzifələri aşağıdakılardır:

3.1.1. təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək;

3.1.2. təlim-tərbiyə prosesində innovativ texnologiyalardan və yeni təlim üsullarından istifadə etmək;

3.1.3. ali təhsilin bakalavriat səviyyəsi və əlavə təhsil üzrə təhsil proqramlarını həyata keçirmək;

3.1.4. İnstitutun profilinə uyğun olaraq tətbiqi elmi tədqiqatlar aparmaq və elmi-metodiki sənədləri hazırlamaq;

3.1.5. təhsil proqramlarına (kurikulumlara) uyğun tədris-metodiki sənədlər hazırlamaq;

3.1.6. İnstitutun Elmi Şurasının işini təşkil etmək;

3.1.7. qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, İnstitutun fəaliyyət istiqamətləri üzrə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.8. İnstitutun daimi heyətinin əlavə təhsili və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək;

3.1.9. İnstitutun fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.10. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, rəsmi internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.11. İnstitutda dövlət sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.12. İnstitutun informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.13. İnstitutun strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Baş İdarəsinə təkliflər vermək;

3.1.14. İnstitutun maddi-tədris bazasının möhkəmləndirilməsi və genişləndirilməsi istiqamətində işlər görmək;

3.1.15. İnstitutda kargüzarlığı və vətəndaşların qəbulunu normativ hüquqi aktların tələblərinə uyğun təşkil və təmin etmək;

3.1.16. dəyişən heyətin "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq attestasiyasını keçirmək;

3.1.17. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təhsil haqqında dövlət sənədini və təhsilə dair digər sənədləri vermək;

3.1.18. təlim-tərbiyə prosesini yüksək səviyyədə təşkil etmək, onun monitorinqini keçirmək, dəyişən heyətin intellektual, mədəni və mənəvi inkişafını təmin etmək, peşəkarlıq xüsusiyyətlərinin formalaşdırılmasına nəzarət etmək;

3.1.19. İnstituta hər il təsdiq edilən dövlət büdcəsində Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları (bundan sonra - Daxili Qoşunlar) üçün nəzərdə tutulmuş vəsait çərçivəsində ayrılan büdcə vəsaitindən, habelə kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.20. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn, habelə bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün İnstitutun aşağıdakı hüquqları vardır:

3.2.1. şəxsi heyət üçün idman, sağlamlıq, iaşə və məişət xidmətlərini təşkil etmək;

3.2.2. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

3.2.3. dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.4. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.2.5. müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

3.2.6. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

3.2.7. İnstitutun hərbi qulluqçularına və mülki işçilərinə fəxri adlar, dövlət təltifləri və mükafatlar verilməsi üçün Azərbaycan Respublikası daxili işlər nazirinin müavini - Daxili Qoşunların komandanı (bundan sonra - Daxili Qoşunların komandanı) qarşısında vəsatət qaldırmaq;

3.2.8. Daxili Qoşunların təlim mərkəzlərindən istifadə etmək;

3.2.9. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn, habelə bu Nizamnamə ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

### 4. İnstitutun strukturu və idarə olunması

4.1. İnstitutun strukturuna rəhbərlik, kafedralar, şöbələr və xidməti bölmələr daxildir.

4.2. İnstitutun strukturunu, ştat cədvəlini və xərclər smetasını Azərbaycan Respublikasının daxili işlər naziri təsdiq edir.

4.3. İnstitutun rəhbərliyi rektordan və prorektorlardan ibarətdir.

4.4. İnstitutun rektoru Azərbaycan Respublikası daxili işlər nazirinin təqdimatına əsasən Azərbaycan Respublikasının Prezidenti tərəfindən, prorektorlar isə Daxili Qoşunların komandanının təqdimatına əsasən Azərbaycan Respublikasının daxili işlər naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

4.5. İnstitutun rektoru bilavasitə Daxili Qoşunların komandanına tabedir. İnstitutun rektoru İnstitutun bütün şəxsi heyətinin birbaşa rəisi olmaqla, onların fəaliyyətini təşkil edir, ona həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

4.6. İnstitutun rektoru:

4.6.1. İnstitutun fəaliyyətinə rəhbərlik edir və onu təmsil edir;

4.6.2. İnstitutun struktur bölmə rəhbərlərinin səlahiyyətlərini və digər şəxsi heyətin vəzifə öhdəliklərini müəyyən edir;

4.6.3. İnstitutda daxili intizam və günün nizam qaydalarını təsdiq edir;

4.6.4. İnstitutun ştat vahidlərinin sayına və strukturunun təkmilləşdirilməsinə dair Daxili Qoşunların komandanına təkliflər verir;

4.6.5. İnstitutun maddi vəsaitlərinin uçotunu təşkil edir, onlardan istifadəyə nəzarət edir;

4.6.6. Azərbaycan Respublikası daxili işlər nazirinin əmr və sərəncamlarında, habelə Daxili Qoşunların komandanının əmrlərində nəzərdə tutulmuş aidiyyəti tədbirlərin yerinə yetirilməsini təmin edir;

4.6.7. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin hüquqi aktlarının icrasını fəaliyyət istiqamətlərinə uyğun olaraq təşkil edir və bu işə nəzarəti həyata keçirir, habelə İnstitutun fəaliyyəti ilə bağlı icrası məcburi olan daxili əmr və göstərişlər verir;

4.6.8. şəxsi heyətə hərbi rütbələr verilməsi, şəxsi heyət üzvlərinin təltif edilməsi, vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə Daxili Qoşunların komandanı qarşısında vəsatət qaldırır;

4.6.9. dəyişən heyətdən olan hərbi qulluqçunun İnstitutdan xaric edilməsi məqsədilə Daxili Qoşunların komandanına təqdimat verir;

4.6.10. İnstitutun daimi və dəyişən heyətinin pul təminatını, əməyinin ödənilməsini və mükafatlandırılmasını təşkil edir;

4.6.11. İnstitutda kargüzarlıq və arxiv işinin aparılmasını, dövlət sirrinin qorunmasını, təhlükəsizlik tədbirlərinin həyata keçirilməsini və məxfilik rejiminə riayət olunmasını təmin edir;

4.6.12. İnstitutda vətəndaşların qəbulunu və müraciətlərinə baxılmasını təmin edir.

4.7. İnstitutun 2 (iki) prorektoru vardır. Prorektorlar İnstitutun rektoruna tabe olmaqla, şəxsi heyətin birbaşa rəisləridirlər.

4.8. Tədris, metodiki və təlim-tərbiyə işlərinə bilavasitə rəhbərliyi İnstitutun tədris işləri üzrə prorektoru, elmi tədqiqat işlərinə bilavasitə rəhbərliyi isə Hərbi elmi şöbənin rəisi həyata keçirir.

4.9. İnstitutun ali idarəetmə orqanı İnstitutun ictimai əsaslarla fəaliyyət göstərən Elmi Şurasıdır (bundan sonra - Elmi Şura).

4.10. Elmi Şuranın tərkibi İnstitut rektorunun təqdimatı ilə Daxili Qoşunların komandanı tərəfindən təsdiq edilir. Elmi Şuranın tərkibinə İnstitutun rektoru (Elmi Şuranın sədri), prorektorları, şöbə və kafedra rəisləri (müdirləri) daxildirlər. İnstitut rektorunun Daxili Qoşunların komandanı qarşısında qaldırdığı vəsatətə əsasən, Elmi Şuranın tərkibinə digər şəxslər də daxil edilə bilərlər. Elmi Şuranın professor-müəllim heyətindən, elmi işçilərdən, habelə başqa mütəxəssislərdən ibarət olan digər üzvləri həmin kollektivlərin iclaslarında gizli səsvermə yolu ilə, iclasda iştirak edən şəxslərin sadə səs çoxluğu ilə seçilirlər. Elmi Şuranın iclasları onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Elmi Şuranın iclaslarında qərarlar açıq səsvermə yolu ilə sadə səs çoxluğu ilə qəbul olunur.

4.11. İnstitutun tədris işləri üzrə prorektoru Elmi Şura sədrinin müavinidir. Elmi Şura üzvlərindən biri açıq səsvermə yolu ilə, Elmi Şuranın iclasında iştirak edən üzvlərin sadə səs çoxluğu ilə Elmi Şuranın katibi seçilir. Elmi Şuranın səlahiyyət müddəti 3 (üç) ildir. Elmi Şuranın yenidən yaradılmasını və ya üzvlərinin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsini İnstitut rektorunun vəsatəti əsasında Daxili Qoşunların komandanı həyata keçirir.

4.12. Elmi Şuranın qərarları İnstitut rektorunun əmrləri ilə elan olunur.

4.13. Elmi Şura:

4.13.1. bu Nizamnamədə dəyişiklik edilməsinə dair təkliflər hazırlayır;

4.13.2. İnstitutun perspektiv inkişaf və cari planlarına dair qərarlar qəbul edir;

4.13.3. təhsil, metodiki iş, təlim-tərbiyə işi, maddi-tədris bazası, redaksiya-nəşriyyat, döyüş hazırlığı məsələləri ilə bağlı qərarlar qəbul edir;

4.13.4. İnstitutun struktur bölmələrinin hesabatlarını dinləyir;

4.13.5. professor-müəllim heyətinə və əməkdaşlara elmi-pedaqoji fəaliyyətə görə elmi adların verilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elmi adlar verilməsi qaydası haqqında Əsasnamə"yə uyğun olaraq vəsatət qaldırır;

4.13.6. İnstitutda tədris prosesinin, tədris-metodiki işin və elmi tədqiqat işlərinin planlaşdırılmasını, təşkilini və həmin sahəyə nəzarəti həyata keçirir;

4.13.7. İnstitutun struktur bölmələrinin vəzifələrini təsdiq edir;

4.13.8. İnstitutda elmi tədqiqat işlərinin istiqamətlərini müəyyən edir;

4.13.9. İnstitutun fəaliyyət istiqamətləri, idarə olunması və tədrisin təşkili ilə bağlı digər məsələlərə baxır.

4.14. Dəyişən heyətdə Azərbaycan Respublikasının normativ hüquqi aktlarının tələblərinə əməletmə vərdişi yaratmaq və İnstitutda nizam-intizamı təmin etmək məqsədilə intizam orqanları - Ali İntizam Şurası və Tabor İntizam Şurası yaradılır. İntizam orqanlarının strukturu, vəzifələri və hüquqları Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən müəyyən olunur.

### 5. Tədris işinin təşkili və elmi tədqiqat fəaliyyəti

5.1. İnstitutda tədris işi "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu, bu Nizamnamə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin müvafiq normativ hüquqi aktları əsasında təşkil olunur və aparılır.

5.2. İnstitutda ali təhsilin aşağıdakı səviyyələri üzrə təhsil proqramları (kurikulumlar) həyata keçirilir:

5.2.1. bakalavriat;

5.2.2. əlavə təhsil.

5.3. İnstitutda təhsil əyani formada təşkil olunur. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, İnstitutda əlavə təhsil üzrə digər təhsilalma formaları tətbiq edilə bilər. Tədris dili Azərbaycan dilidir.

5.4. İnstitutda tədris məşğələlərinin əsas növlərini - mühazirə, seminar, tematik mükalimə (kollokvium), praktiki məşğələlər, məsləhət saatı, elmi tədqiqat işləri təşkil edir. Ayrı-ayrı fənlər üzrə Elmi Şuranın qərarı ilə müəyyən edilmiş digər növ məşğələlər də keçirilə bilər.

5.5. İnstitutda mütəxəssis hazırlığı elmlə təhsilin vəhdəti əsasında həyata keçirilir.

5.6. İnstitutda aparılan elmi tədqiqat işləri tətbiqi xarakter daşıyır.

5.7. İnstitut apardığı elmi tədqiqat işlərinin nəticələrinin tədris prosesində tətbiq olunmasını və onların elmi məqalələr, metodiki vəsaitlər şəklində dərc olunmaqla, elmi forumlarda məruzə edilərək yayılmasını təşkil edir.

5.8. İnstitutda həyata keçirilən elmi tədqiqat fəaliyyətinin məqsədləri aşağıdakılardır:

5.8.1. tətbiqi elmi tədqiqatlar aparılmasını və elmi-texniki işlərin həyata keçirilməsini təmin etmək;

5.8.2 kadrların elmi potensialından səmərəli istifadə etməklə təlimin keyfiyyətini yüksəltmək;

5.8.3. professor-müəllim heyətinin ixtisas səviyyəsini artırmaq;

5.8.4. tədris prosesi ilə elmi fəaliyyətin vəhdətini təmin etmək;

5.8.5. elmi tədqiqatların nəticələrinin tədris prosesində və Daxili Qoşunların praktiki fəaliyyətində tətbiqi barədə vəsatət qaldırmaq;

5.8.6. elmi tədqiqat işlərinin əsas istiqamətləri üzrə yerli və beynəlxalq təcrübəni öyrənmək və ümumiləşdirmək;

5.8.7. Daxili Qoşunlar üçün analitik, məsləhət və proqnozlaşdırma fəaliyyətini həyata keçirmək;

5.8.8. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin normativ hüquqi aktlarının layihələrinin hazırlanmasında iştirak etmək;

5.8.9. yerli və xarici ekspertlərin iştirakı ilə elmi seminarlar, konfranslar, simpoziumlar və digər tədbirlər keçirmək.

5.9. İnstitutda elmi tədqiqat fəaliyyəti Elmi Şuranın təsdiq etdiyi perspektiv inkişaf və cari planlara uyğun olaraq həyata keçirilir.

### 6. İnstituta qəbul

6.1. Azərbaycan Respublikası vətəndaşlarının İnstituta qəbulu "Hərbi vəzifə və hərbi xidmət haqqında" və "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun həyata keçirilir.

6.2. İnstituta qəbul yerlərinin sayı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

6.3. İnstitutda ali təhsilin bakalavriat səviyyəsinə qəbul olunmaq üçün namizədlər Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin müəyyən etdiyi tələblər əsasında həmin Nazirlik tərəfindən seçilirlər.

6.4. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq İnstitutda ali təhsilin bakalavriat səviyyəsinə qəbul biliyin qiymətləndirilməsi üzrə keçirilən imtahanlarda abituriyentlərin əldə etdikləri nəticələrə əsasən Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən həyata keçirilir.

6.5. Abituriyentlərin İnstituta kursant qismində qəbulu İnstitut rektorunun əmri ilə təsdiq olunur.

6.6. Hərbi qulluqçuların İnstitutda əlavə təhsili Daxili Qoşunların komandanının müvafiq əmri ilə həyata keçirilir.

6.7. İnstituta qəbul edilən və əvvəllər hərbi and içməmiş dəyişən heyət Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi" ilə müəyyən olunmuş qaydada hərbi and içir.

### 7. Daimi və dəyişən heyət

7.1. İnstitutun şəxsi heyəti daimi və dəyişən heyətdən ibarətdir.

7.2. Daimi heyətə rəhbərlik, dəyişən heyətin komandirləri, professor-müəllim heyəti və elmi heyət, digər hərbi qulluqçular və mülki işçilər daxildir.

7.3. Daimi heyətdən olan hərbi qulluqçuları Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnaməyə uyğun olaraq, Azərbaycan Respublikasının daxili işlər naziri və Daxili Qoşunların komandanı vəzifəyə təyin və vəzifədən azad edir. Hərbi qulluqçular istisna olmaqla, daimi heyətdən olan digər şəxsləri İnstitutun rektoru Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq işə qəbul və işdən azad edir.

7.4. Daimi heyətdən olan hərbi qulluqçuların hüquq və vəzifələri Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 885 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam nizamnaməsi", Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi", Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu və hərbi xidmət sahəsində Azərbaycan Respublikasının digər qanunları, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, habelə bu Nizamnamə və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin normativ hüquqi aktları ilə müəyyən olunur.

7.5. Hərbi qulluqçular istisna olmaqla, daimi heyətin tərkibinə daxil olan digər şəxslərin, o cümlədən İnstitutun inzibati, inzibati-idarəetmə, inzibati-təsərrüfat, mühəndis-texniki, tədris-köməkçi heyətinə aid şəxslərin hüquq və vəzifələri Azərbaycan Respublikasının Əmək Məcəlləsi, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu, bu Nizamnamə və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin normativ hüquqi aktları ilə müəyyən olunur.

7.6. Daimi və dəyişən heyət vəzifə öhdəlikləri və təlim-tərbiyə prosesi ilə bağlı olmayan işlərə və tədbirlərə yalnız Daxili Qoşunların komandanının razılığı ilə cəlb oluna bilərlər.

7.7. Professor-müəllim heyətinə şöbə və xidməti bölmələrin rəisləri (müdirləri), onların müavinləri, kafedra rəisləri (müdirləri), professor, dosent, baş müəllim və müəllim vəzifələrini tutan hərbi qulluqçular və mülki işçilər aiddirlər.

7.8. Professor-müəllim heyətinin say tərkibi, tədris yükündən asılı olaraq, Daxili Qoşunların komandanının əmri ilə müəyyən edilir.

7.9. Professor-müəllim heyəti vəzifələrinə təyinat zamanı elmi ada və elmi dərəcəyə, vəzifənin profilinə uyğun ali təhsilə və pedaqoji təcrübəyə malik şəxslərə üstünlük verilir.

7.10. Professor-müəllim heyətinin üzvləri məşğələlərin keçirilməsi zamanı dəyişən heyətin rəisləri hesab olunurlar. Professor-müəllim heyətinin tədris məşğələlərinin keçirilməsi zamanı verdiyi göstərişləri dəyişən heyət mütləq yerinə yetirməlidir.

7.11. Tədris, təlim-tərbiyə, metodiki və elmi tədqiqat işləri kafedraların planları, həmçinin tədris ili üçün fərdi planlar əsasında professor-müəllim heyəti tərəfindən həyata keçirilir.

7.12. Professor-müəllim heyəti və elmi işçilər təlim-tərbiyə sahəsində uğurlarına və nailiyyətlərinə görə hərbi qulluqçulara münasibətdə Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 885 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam nizamnaməsi"ndə, digər işçilərə münasibətdə Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş həvəsləndirmə tədbirləri ilə yanaşı, dövlət mükafatları, fəxri adlar, orden və medallar, döş nişanları və fəxri fərmanlarla təltif edilə bilərlər.

*Ardı 3-cü səh.*

# Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin adının dəyişdirilməsi və "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 9 iyul tarixli 680 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

*Əvvəli 2-ci səh.*

7.13. Pedaqoji işçilərə fəxri adların verilməsi Azərbaycan Respublikası Prezidentinin aktları ilə tənzimlənir.

7.14. Professor-müəllim heyətinə və elmi işçilərə hərbi və əmək intizamını pozduqlarına görə intizam tənbehi tədbirləri hərbi qulluqçulara münasibətdə Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 885 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam nizamnaməsi"ndə, digər işçilərə münasibətdə Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada tətbiq edilir.

7.15. Professor-müəllim heyətinin və elmi işçilərin beynəlxalq tədbirlərdə iştirakına, onların mediada İnstitut adından çıxışlarına Daxili Qoşunların komandanı razılıq verir.

7.16. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq, xarici ölkələrin ali hərbi təhsil müəssisələrində Daxili Qoşunlara ayrılmış yerlərdə təhsil almaq məqsədilə İnstitutun kursantları həmin ölkəyə Daxili Qoşunların komandanı ilə razılaşdırmaqla ezam edilə bilərlər.

7.17. Dəyişən heyət İnstitutda təhsil alan kursantlar və dinləyicilərdir.

7.18. Kursantlar - İnstitutda ali təhsilin bakalavriat səviyyəsində təhsil alan, zabit hərbi rütbəsi olmayan hərbi qulluqçulardır.

7.19. Dinləyicilər - İnstitutda əlavə təhsil alan hərbi qulluqçulardır.

7.20. Dəyişən heyətin tərkibinə daxil olan hərbi qulluqçuların pul, əşya, ərzaq, tibbi xidmət və yaşayış sahəsi (yataqxana) ilə təminatı dövlət tərəfindən həyata keçirilir.

7.21. Dəyişən heyətin təhsil müddətində hüquq və vəzifələri bu Nizamnamənin 7.4-cü bəndində nəzərdə tutulan normativ hüquqi aktlarla müəyyən olunur.

7.22. Hərbi liseylərin məzunları və hərbi rütbəsi olmayan mülki şəxslər sırasından İnstituta qəbul edilmiş kursantlara "əsgər" hərbi rütbəsi verilir. İnstituta qəbul olunana qədər həqiqi hərbi xidmət keçmiş və hərbi rütbə almış kursantlar üçün həmin hərbi rütbələr saxlanılır.

7.23. Taqım komandirinin müavini, tədris qruplarının, manqalarının komandirləri İnstitut rektorunun əmri ilə müvafiq kursun kursantları arasından təyin olunurlar. Bu vəzifələrə təyin edilmiş kursantlara qanuna müvafiq qaydada "kiçik çavuş", "çavuş" və "baş çavuş" hərbi rütbəsi verilir.

7.24. Dəyişən heyətdən olan hərbi qulluqçular təhsildə əldə etdikləri yüksək göstəricilərə, elmi tədqiqat işlərində fəal iştiraka və hərbi xidməti borcun nümunəvi yerinə yetirilməsinə görə Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 885 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam nizamnaməsi"ndə və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin normativ hüquqi aktlarında nəzərdə tutulmuş qaydada həvəsləndirilirlər.

7.25. Hərbi və tədris intizamını pozduqlarına görə dəyişən heyətdən olan hərbi qulluqçulara Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 885 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam nizamnaməsi"ndə nəzərdə tutulmuş qaydada intizam tənbehi tədbirləri tətbiq edilir.

7.26. Kursantlar və dinləyicilər aşağıdakı əsaslardan biri olduqda İnstitutdan xaric edilirlər:

7.26.1. öz arzusu ilə;

7.26.2. digər ali təhsil müəssisəsinə keçirilməsi ilə əlaqədar (kursantlara münasibətdə);

7.26.3. səhhətinə görə (hərbi-həkim komissiyasının qərarına əsasən);

7.26.4. təhsildə müvəffəqiyyətsizliyə görə;

7.26.5. semestr ərzində tədris planında nəzərdə tutulmuş məşğələlərin ümumi saat hesabının 30 faizdən çoxunda üzrsüz səbəbdən iştirak etmədiyinə görə;

7.26.6. hərbi intizamı və ya İnstitutun daxili intizam qaydalarını kobud şəkildə, yaxud dəfələrlə pozduğuna görə (Ali İntizam Şurasının qərarı əsasında);

7.26.7. hərbi qulluqçu şərəfini ləkələyən hərəkətlər törətdiyinə görə (Ali İntizam Şurasının qərarı əsasında);

7.26.8. törətdiyi cinayət əməlinə görə məhkum olunduqda.

7.27. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, müvəffəqiyyətsizliyə, təhsili davam etdirmək istəmədiyinə və intizamsızlığa görə İnstitutdan xaric edilən (18 yaşınadək və ya xəstəliyi ilə əlaqədar hərbi xidmətə yararsız hesab olunduğuna görə xaric edilən şəxslər istisna olmaqla) kursantlar müddətli həqiqi hərbi xidmət keçmək üçün hərbi hissələrə göndərilirlər.

7.28. Dəyişən heyət tərəfindən təhsil müəssisəsinin, ixtisasın, təhsilalma formasının dəyişdirilməsi, onların təhsil müəssisəsindən xaric və ya təhsil müəssisəsinə bərpa olunması, habelə dəyişən heyətin təhsilini müvəqqəti dayandırması (onlara akademik məzuniyyətin verilməsi) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

7.29. Dəyişən heyətdən olan hərbi qulluqçunun İnstitutdan xaric edilməsi İnstitutun rektorunun təqdimatına əsasən Daxili Qoşunların komandanının əmri ilə həyata keçirilir.

7.30. İnstitutda təhsilini başa vurmayan şəxslərə, onların müraciəti əsasında, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"ndə elektron sənəd formasında yaradılan arayış verilir.

7.31. İnstitutda ali təhsilin bakalavriat səviyyəsini bitirmiş kursantlara "bakalavr" ali peşə-ixtisas dərəcəsi, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"ndə elektron sənəd formasında yaradılan təhsil haqqında dövlət sənədi - diplom, həmçinin İnstitut tərəfindən döş nişanı və Azərbaycan Respublikası daxili işlər nazirinin əmri ilə "leytenant" hərbi rütbəsi verilir.

7.32. Əlavə təhsil üzrə "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təhsil proqramını mənimsəmiş və imtahanlarda müvəffəqiyyət qazanmış dəyişən heyətə əlavə təhsilin istiqaməti üzrə "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müvafiq sənəd verilir.

### 8. Daimi və dəyişən heyətin vəzifələri və hüquqları

8.1. Daimi heyətdən olan professor-müəllim heyətinin və elmi işçilərin vəzifələri aşağıdakılardır:

8.1.1. təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək;

8.1.2. təhsil proqramlarının (kurikulumların) mənimsənilməsini təmin etmək, keyfiyyətli təhsil vermək;

8.1.3. dəyişən heyətin tədris materiallarını mənimsəməsini təmin edən üsul və vasitələri seçmək, qabaqcıl pedaqoji təcrübəni, müasir interaktiv təlim metodlarını, innovasiyaları öyrənmək və tətbiq etmək, əlavə məşğələlər keçirmək;

8.1.4. ixtisas və elmi-pedaqoji səviyyələrini yüksəltmək;

8.1.5. elmi tədqiqatla məşğul olmaq, elmi tədqiqat işlərinin nəticələrindən Elmi Şuranın tövsiyəsi ilə tədris prosesində istifadə etmək və bu nəticələrin Daxili Qoşunların praktiki fəaliyyətində tətbiq olunmasına kömək göstərmək;

8.1.6. dərslik və dərs vəsaitlərinin, tədrisin qabaqcıl forma və metodlarını təmin edən elmi-metodiki materialların işlənilib hazırlanmasında, müasir texniki vasitələrin tətbiqində iştirak etmək;

8.1.7. vətəndaşlıq və xidməti borcunu ləyaqətlə yerinə yetirmək;

8.1.8. dəyişən heyətə Azərbaycan Respublikasının müstəqilliyinə, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, dövlət rəmzlərinə, Azərbaycan xalqının tarixinə, mədəniyyətinə, dilinə, adət və ənənələrinə, milli və ümumbəşəri dəyərlərə, cəmiyyətə, ətraf mühitə hörmət və qayğı hissləri aşılamaq;

8.1.9. etik davranış qaydalarına, pedaqoji etika və əxlaq normalarına riayət etmək, müəllim nüfuzunu yüksək tutmaq və ziyalılıq nümunəsi göstərmək;

8.1.10. attestasiyadan keçmək;

8.1.11. dəyişən heyətdə fəal vətəndaş mövqeyi formalaşdırmaq, onları vətənpərvərlik və azərbaycançılıq ruhunda tərbiyə etmək, müstəqil həyata və əmək fəaliyyətinə hazırlamaq;

8.1.12. dəyişən heyəti elmi fəaliyyətə cəlb etmək;

8.1.13. dəyişən heyətin fərdi keyfiyyətlərini öyrənmək, şərəf və ləyaqətinə hörmətlə yanaşmaq, onlardan dərs tapşırıqlarının yerinə yetirilməsini və hərbi nizam-intizama riayət olunmasını tələb etmək;

8.1.14. dəyişən heyəti zorakılığın bütün formalarından qorumaq, onları zərərli vərdişlərdən çəkindirmək, onların təhlükəsizliyinin və sağlamlığının mühafizəsində iştirak etmək;

8.1.15. dəyişən heyətin müstəqil hazırlığına, tədris materiallarını mənimsəməsinə köməklik göstərmək;

8.1.16. daxili intizam qaydalarına əməl etmək və əmək müqaviləsi ilə müəyyənləşdirilmiş əmək funksiyalarını yerinə yetirmək;

8.1.17. İnstitutun rəhbərliyi, psixoloqu və həmkarları ilə əməkdaşlıq etmək, dəyişən heyətin təlimi və inkişafı ilə bağlı məsləhətləşmələr aparmaq;

8.1.18. bu Nizamnamədə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

8.2. Daimi heyətdən olan professor-müəllim heyətinin və elmi işçilərin hüquqları aşağıdakılardır:

8.2.1. normal əmək, elmi-pedaqoji iş və təhsil şəraiti ilə, o cümlədən müasir standartlara cavab verən texnologiyalarla təmin olunmaq;

8.2.2. bu Nizamnaməyə uyğun olaraq təhsil prosesinin təşkilində və idarə olunmasında iştirak etmək, təkliflər irəli sürmək;

8.2.3. İnstitutda vəzifə tutmaq, seçkili vəzifələrə seçmək və seçilmək;

8.2.4. əlavə təhsil almaq, elmi dərəcəsini yüksəltmək;

8.2.5. qanunlara və Azərbaycan Respublikası Prezidentinin aktlarına uyğun olaraq mükafatlandırılmaq və təltif olunmaq;

8.2.6. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən müəyyən olunmuş qaydada Daxili Qoşunların əməli fəaliyyətini əks etdirən aidiyyəti materiallarla tanış olmaq;

8.2.7. əvəzçilik yolu ilə elmi və pedaqoji fəaliyyətlə məşğul olmaq;

8.2.8. şərəf və ləyaqətinə hörmətlə yanaşılmasını tələb etmək;

8.2.9. tədrisin formasını, metodlarını və vasitələrini sərbəst seçmək, tədris-metodiki vəsaitlərlə təmin olunmaq;

8.2.10. bu Nizamnamədə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

8.3. Dəyişən heyətin vəzifələri aşağıdakılardır:

8.3.1. dövlət təhsil standartlarına uyğun bilik, bacarıq və vərdişlərə yiyələnmək;

8.3.2. təhsil proqramlarında (kurikulumlarda) nəzərdə tutulmuş imtahanları vermək;

8.3.3. pedaqoji işçilərin şərəf və ləyaqətinə hörmətlə yanaşmaq;

8.3.4. təhsil sahəsində qanunvericiliyin tələblərinə, etik normalara və təlim-tərbiyə prosesi ilə bağlı qaydalara əməl etmək, hərbi andın, hərbi nizamnamələrin, Azərbaycan Respublikası daxili işlər nazirinin və Daxili Qoşunların komandanının əmr, təlimat, göstəriş və sərəncamlarının, bu Nizamnamənin, habelə İnstitutun daxili intizam qaydalarının tələblərini bilmək və yerinə yetirmək;

8.3.5. dövlət, cəmiyyət, ailə və özü qarşısında məsuliyyətini dərk etmək;

8.3.6. məxfilik qaydalarına əməl etmək;

8.3.7. İnstitutun əmlakına qayğı ilə yanaşmaq;

8.3.8. üzrsüz səbəblərdən dərsdənyayınma hallarına yol verməmək, verilən tapşırıqları vaxtında və keyfiyyətlə yerinə yetirmək;

8.3.9. sağlam həyat tərzi keçirmək;

8.3.10. bu Nizamnamədə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

8.4. Dəyişən heyətin aşağıdakı hüquqları vardır:

8.4.1. mənəvi-psixoloji cəhətdən sağlam pedaqoji mühitdə dövlət təhsil standartlarına uyğun keyfiyyətli təhsil almaq;

8.4.2. İnstitutun mövcud infrastrukturundan (tədris, elmi tədqiqat, informasiya, mədəni-məişət xidmətlərindən, idman kompleksindən, tibb məntəqəsindən, yataqxanadan, laboratoriyadan, kitabxanadan) istifadə etmək;

8.4.3. şərəf və ləyaqəti aşağılayan, fiziki, mənəvi və psixoloji zorakılıq hallarından, insan hüquqlarına zidd hərəkətlərdən müdafiə olunmaq;

8.4.4. təhsil prosesinin təşkilində və idarə olunmasında fəal iştirak etmək, öz fikir və mülahizələrini sərbəst ifadə etmək;

8.4.5. İnstitutun elmi, ictimai, sosial və mədəni həyatında, elmi cəmiyyətlərin, dərnəklərin, assosiasiyaların, birliklərin və digər təşkilatların yaradılmasında iştirak etmək;

8.4.6. təhsilin, intizamın və məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı məsələlərin müzakirəsində, Elmi Şuranın işində, İnstitutda fəaliyyət göstərən özünüidarəetmə orqanlarında, hərbi-elmi cəmiyyətin işində və idman bölmələrində iştirak etmək;

8.4.7. həyat və sağlamlığı üçün təhlükəsiz və zərərsiz təhsil şəraiti ilə təmin olunmaq;

8.4.8. təhsillə bağlı inkişafyönlü tədbirlərdə (olimpiadalarda, bilik yarışlarında, fənn müsabiqələrində, konfrans, seminar, proqram və layihələrdə) iştirak etmək;

8.4.9. biliyinin yenidən qiymətləndirilməsini tələb etmək;

8.4.10. "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq;

8.4.11. bu Nizamnamədə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

### 9. Maliyyə-təsərrüfat fəaliyyəti

9.1. İnstitut dövlət büdcəsinin vəsaiti və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

9.2. İnstitut maddi dəyərlilərin, pul vəsaitinin vəziyyəti və onlardan istifadə barədə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Baş İdarəsi qarşısında hesabat verir.

9.3. İnstitutun maddi-tədris bazası müəyyən olunmuş ixtisaslar üzrə tədris planlarına, proqramlarına və müasir tədris metodikasına uyğun olaraq, dəyişən şəxsi heyətin hazırlığını təmin etmək üçün nəzərdə tutulmuş maddi və texniki vasitələr kompleksidir.

9.4. İnstitutun maddi-tədris bazasını torpaq sahələri, binalar, tikililər, müxtəlif qurğular, silah və hərbi texnika, hərbi tədris əmlakı, laboratoriya avadanlığı, tədrisin texniki vasitələri, tədris-metodiki materiallar, elmi və bədii ədəbiyyat, xüsusi texnika, nəqliyyat vasitələri, avadanlıq, tədris-idman bazaları, təlim mərkəzi və digər hərbi obyektlər, habelə başqa qiymətli maddi-texniki təchizat vasitələri təşkil edir.

9.5. İnstitutun maddi-tədris bazası dövlət əmlakı hesab olunur və ondan səmərəli istifadə edilməlidir.

9.6. İnstitutun istifadə etdiyi bina və qurğuların, torpaq sahələrinin xidməti təyinatının dəyişdirilməsinə Daxili Qoşunların komandanının razılığı olmadan yol verilmir.

9.7. İnstitutun maddi-tədris bazasının inkişafı və təkmilləşdirilməsi Daxili Qoşunların komandanı tərəfindən təsdiq edilmiş perspektiv inkişaf planları və cari planlar əsasında həyata keçirilir.

### 10. Beynəlxalq əməkdaşlıq

10.1. İnstitutun xarici əlaqələri və beynəlxalq əməkdaşlığı, həmçinin kadr hazırlığı sahəsində beynəlxalq əməkdaşlığı Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, o cümlədən Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə xarici ölkələrin dövlət orqanları arasında bağlanılmış sazişlər əsasında həyata keçirilir.

10.2. İnstitutun ali təhsil sahəsində beynəlxalq əlaqələri "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

### 11. İnstitutda uçot və hesabat

11.1. İnstitut "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

11.2. İnstitut "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

11.3. İnstitut statistik və maliyyə hesabatlarını Daxili Qoşunların komandanına təqdim edir.

### 12. İnstitutun yenidən təşkili və ləğvi

12.1. İnstitutun yenidən təşkili və ləğvi Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir.

12.2. İnstitut ləğv edildikdə onun əmlakına Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq sərəncam verilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 may 2024-cü il*

# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Əsasnaməsinin və strukturunun təsdiq edilməsi haqqında" 2001-ci il 30 iyun tarixli 518 nömrəli, "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularının hərbi geyim forması və fərqləndirmə nişanları haqqında" Əsasnamənin və "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularının hərbi geyim forması və fərqləndirmə nişanlarının təsvirləri"nin təsdiq edilməsi barədə" 2005-ci il 22 iyul tarixli 268 nömrəli, "Xüsusi təyinatlı təhsil müəssisələrinin təsis edilməsi Qaydaları"nın və "Xüsusi təyinatlı təhsil müəssisələrinin siyahısı"nın təsdiq edilməsi haqqında" 2010-cu il 24 may tarixli 274 nömrəli fərmanlarında və "Hərbi kadrlar hazırlayan təhsil müəssisələri kursantlarının müavinətlərinin artırılması haqqında" 2006-cı il 29 noyabr tarixli 1789 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 30 iyun tarixli 518 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 416 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin strukturu"nun 3-cü hissəsinin dördüncü abzasında "Ali Hərbi Məktəbi" sözləri "Hərbi İnstitutu" sözləri ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularının hərbi geyim forması və fərqləndirmə nişanları haqqında" Əsasnamənin və "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularının hərbi geyim forması və fərqləndirmə nişanlarının təsvirləri"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 22 iyul tarixli 268 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 7, maddə 604 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularının hərbi geyim forması və fərqləndirmə nişanları haqqında" Əsasnamənin 2-1-ci fəslinin adında, 30-1-ci və 30-2-ci hissələrinin birinci abzaslarında, 30-2.1-30-2.3-cü bəndlərində, 30-2.4-cü bəndinin birinci, ikinci və üçüncü cümlələrində, 30-3-cü hissəsinin birinci abzasında, 30-3.1.9-cu yarımbəndində, 30-4-cü hissəsinin birinci abzasında, 30-4.1-30-4.3-cü bəndlərində, 30-4.4-cü bəndinin birinci və üçüncü cümlələrində, 30-5-ci hissəsinin birinci abzasında, 30-5.1-30-5.3-cü bəndlərində, 36-cı hissəsinin üçüncü abzasının birinci və ikinci cümlələrində, 37-1-ci hissəsinin birinci abzasında, 37-1.1-37-1.3-cü bəndlərində və 39-cu hissəsinin ikinci abzasında ismin müvafiq hallarında "Ali Hərbi Məktəb" sözləri ismin müvafiq hallarında "Hərbi İnstitut" sözləri ilə əvəz edilsin;

2.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularının hərbi geyim forması və fərqləndirmə nişanlarının təsvirləri"ndə 6-1-6-4, 16-1-16-10, 20-1-20-4 və 26-1 nömrəli şəkillərdə "Ali Hərbi Məktəbinin" sözləri "Hərbi İnstitutunun" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 24 may tarixli 274 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 5, maddə 403 (Cild I) ilə təsdiq edilmiş "Xüsusi təyinatlı təhsil müəssisələrinin siyahısı"nın 4.2-ci bəndində "Ali Hərbi Məktəbi" sözləri "Hərbi İnstitutu" sözləri ilə əvəz edilsin.

4. "Hərbi kadrlar hazırlayan təhsil müəssisələri kursantlarının müavinətlərinin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 noyabr tarixli 1789 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 11, maddə 978 (Cild I) 1-ci hissəsində "Ali Hərbi Məktəbinin" sözləri "Hərbi İnstitutunun" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 may 2024-cü il*

## F.M.Seyidovun Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Fərid Mirmufid oğlu Seyidov Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 may 2024-cü il*

## Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 11 oktyabr tarixli 1148 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında ali hərbi rütbəli vəzifələrin siyahısı"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 11 oktyabr tarixli 1148 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 10, maddə 881 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında ali hərbi rütbəli vəzifələrin siyahısı"nda dəyişiklik təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 may 2024-cü il*

## Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 323 (Cild I); 2024, № 1, maddə 31; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 7 mart tarixli 17 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"nin 16.4-1-ci bəndi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 may 2024-cü il*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 269** **QƏRAR** **Bakı şəhəri, 21 may 2024-cü il**

### "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1052-VIQ nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi və "Qiymətləndirmə standartları və normaları, peşəkar qiymətləndiricilərin hazırlanması Qaydaları haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 27 iyun tarixli 107 nömrəli Qərarının ləğv edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1052-VIQ nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 693 (Cild I); 2024, № 1, maddələr 110, 111; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 27 mart tarixli 182 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"ın 86-cı hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. ikinci abzasın ikinci cümləsində "səriştəli şəxslərin rəyinə əsasən" sözləri "qiymətləndirici tərəfindən" sözləri ilə əvəz edilsin;

1.2. beşinci abzasın ikinci cümləsində "Qiymətləndiricinin əməyinin haqqını" sözləri "Qiymətləndirməyə görə xidmət haqqını" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 18 aprel tarixli 69 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 4 (II kitab), maddə 211 (Cild I) ilə təsdiq edilmiş "Müsadirə edilmiş, sahibsiz qalmış, vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçən əmlakın və dəfinələrin uçotu, qiymətləndirilməsi, saxlanılması, istifadəsi və satışı barədə Əsasnamə"nin 2.2-ci bəndinin ikinci cümləsinə "hesabatda" sözündən sonra "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 10.2-ci maddəsində göstərilən məlumatlarla yanaşı" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 16 aprel tarixli 66 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 4, maddə 392 (Cild I); 2024, № 1, maddə 105) ilə təsdiq edilmiş "Karantin rejiminin tətbiqi və ya zərərli orqanizmlərin ləğvi, xüsusi təhlükəli heyvan xəstəliklərinin profilaktikası, diaqnostikası, müalicəsi və ləğvi zamanı hüquqi və fiziki şəxslərə dəymiş maddi ziyanın əvəzinin ödənilməsi Qaydaları"nın 3.1-ci və 4.1-ci bəndlərində "qiymətləndirmə fəaliyyəti ilə bağlı xərclər də" sözləri "qiymətləndirməyə görə xidmət haqqı da" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 avqust tarixli 343 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 8, maddə 1450 (Cild I); 2024, № 2, maddə 209) ilə təsdiq edilmiş "Özünüməşğulluğa cəlb olunmuş şəxsdən geri alınmış əmlakın açıq hərracda satılması Qaydası"nın 3.16-cı bəndində "qiymətləndirilməsi və ekspertizadan keçirilməsi ilə bağlı xərclər" sözləri "ekspertizadan keçirilməsi ilə bağlı xərclər və qiymətləndirməyə görə xidmət haqqı" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 dekabr tarixli 516 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (V kitab), maddə 1617 (Cild I) ilə təsdiq edilmiş "Xüsusi müsadirə edilmiş əmlakın dövlət nəfinə verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.4-cü bəndin ikinci cümləsinə "əmlakın" sözündən sonra "məcburi" sözü əlavə edilsin;

5.2. 2.5-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.5. Qiymətləndirməyə görə xidmət haqqı "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 17.2-ci maddəsinə uyğun olaraq ödənilir.";

5.3. 2.7-ci bəndə "hesabatda" sözündən sonra "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 10.2-ci maddəsində göstərilən məlumatlarla yanaşı" sözləri əlavə edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 28 dekabr tarixli 484 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 12 (II kitab), maddə 1819 (Cild I) ilə təsdiq edilmiş "Radiotezliklərin müddətli ayrılmasına keçid ilə əlaqədar olaraq, radiotezlik istifadəçilərinə vurulan zərərə görə kompensasiyanın verilməsi şərtləri və mexanizmi"nin 3.4.4-cü yarımbəndində "edilməsində əlavə mütəxəssis rəyinə ehtiyac" sözləri "edilməsi zərurəti" sözləri ilə əvəz edilsin.

7. "Qiymətləndirmə standartları və normaları, peşəkar qiymətləndiricilərin hazırlanması Qaydaları haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 27 iyun tarixli 107 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 6, maddə 472 (Cild I) ləğv edilsin.

8. Bu Qərar 2024-cü il iyulun 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 270** **QƏRAR** **Bakı şəhəri, 22 may 2024-cü il**

### "Azərbaycan Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda nəqliyyat vasitələrindən istifadə qaydalarının təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 747 (Cild I); 2024, № 1, maddə 101; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 12 mart tarixli 133 nömrəli, 3 aprel tarixli 196 nömrəli və 1 may tarixli 234 nömrəli qərarları) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti və məhkəmə orqanlarının aparatları (hərbi qurumlar, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidmətləri, hüquq-mühafizə və prokurorluq orqanları, rayon (şəhər) məhkəmələri istisna olmaqla), mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, onların yanında, tabeliyində olan orqanlar, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin, dövlət xidmətlərinin aparatları və onların yerli bölmələri üçün xidməti minik avtomobillərinin say həddi (limiti)"nin cədvəlinin 24-1-ci hissəsinin "cəmi" sütununda "22" rəqəmləri "24" rəqəmləri ilə, "ərazi və yerli bölmələr üzrə" sütununda "11" rəqəmləri "13" rəqəmləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Baş nazir Əli Əsədov İran İslam Respublikasında rəsmi anım mərasimində iştirak edib

Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq Baş nazir Əli Əsədovun rəhbərlik etdiyi nümayəndə heyəti İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin, xarici işlər naziri Hüseyn Əmir Abdullahiyanın və digər müşayiət edən şəxslərin helikopter qəzasında faciəli surətdə həlak olmaları ilə əlaqədar mayın 22-də Tehran şəhərində keçirilən rəsmi anım mərasimində iştirak edib.



Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, Baş nazir Əli Əsədov İran İslam Respublikasının Birinci vitse-prezidenti, Prezident vəzifəsini icra edən Məhəmməd Moxberlə görüşərək, ona Azərbaycan Respublikasının Prezidenti, hökuməti və xalqı adından dərin hüznlə başsağlığı verib.

Bildirilib ki, böyük dövlət xadimi, görkəmli siyasətçi Seyid İbrahim Rəisi bütün həyatını ölkəsinə fədakarlıqla və sədaqətlə xidmətə həsr edib.



Qeyd edək ki, Azərbaycan Respublikasının nümayəndə heyətinə xarici işlər naziri Ceyhun Bayramov, həmçinin Milli Məclisin Azərbaycan-İran parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Əziz Ələkbərov, Cavanşir Paşazadə, Cəbi Quliyev və digər rəsmi şəxslər daxildir.



## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 271** **QƏRAR** **Bakı şəhəri, 22 may 2024-cü il**

### "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi tərəfindən tətbiq edilən cərimələrdən toplanan və həmin qurumun hesabına köçürülən vəsaitdən istifadə Qaydası"nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 31 may tarixli 896-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1997-ci il 25 iyul tarixli 622 nömrəli, "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" 2003-cü il 5 iyun tarixli 878 nömrəli, "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 29 oktyabr tarixli 790-IVQD nömrəli Qanununun tətbiqi haqqında" 2013-cü il 25 noyabr tarixli 38 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 iyul tarixli 2224 nömrəli Fərmanının 5.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

"Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi tərəfindən tətbiq edilən cərimələrdən toplanan və həmin qurumun hesabına köçürülən vəsaitdən istifadə Qaydası" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 273** **QƏRAR** **Bakı şəhəri, 22 may 2024-cü il**

### "Ev təsərrüfatlarının uçotu Qaydası"nın təsdiq edilməsi haqqında

"Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 5 aprel tarixli 1129-VIQD nömrəli Qanununun tətbiqi və "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 162 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 16 aprel tarixli 36 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Ev təsərrüfatlarının uçotu Qaydası" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan-Türkiyə münasibətlərinin əsasında ortaq dəyərlər dayanır

**Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyə Böyük Millət Məclisinin (TBMM) Milli təhsil, mədəniyyət, gənclik və idman komissiyasının sədri Mahmut Özərin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə qardaş ölkələrimiz arasında əlaqələrin ən yüksək səviyyədə olduğu qeyd edilərək, xalqlarımızı birləşdirən ortaq tarixi, dil, dini, milli-mənəvi dəyərlərin münasibətlərimizin əsasında dayandığı, xalqlarımızın hər zaman bir yerdə olduğu vurğulanıb. Bildirilib ki, ikitərəfli əlaqələrin inkişafında ali və yüksəksəviyyəli qarşılıqlı səfərlərin müstəsna rolu var. Bu mənada, iki ölkə rəhbərlərinin qarşılıqlı səfərlərinin həyata keçirilməsi böyük əhəmiyyət kəsb edir.

Söhbətdə bu gün dövlət başçılarımızın liderliyi ilə ölkələrimizin bütün sahələrdə uğurlu əməkdaşlığından məmnunluq ifadə edilib. Bildirilib ki, prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın qarşılıqlı hörmət və etimada əsaslanan qardaşlıq münasibətləri, siyasi iradəsi və qətiyyəti Azərbaycan-Türkiyə əlaqələrinin hərtərəfli inkişafında və müttəfiqlik səviyyəsinə çatmasında çox mühüm rol oynayır.

Milli Məclisin Sədri, Azərbaycan Prezidentinin "Bizim ailəmiz türk dünyasıdır" fikrini xatırladaraq, ölkələrimizin türk dövlətləri arasında da münasibətlərin inkişafına mühüm töhfələr verdiyini diqqətə çatdırıb. O, bu sahədə parlamentlərin də üzərinə mühüm vəzifələr düşdüyünü söyləyib.

Söhbət zamanı parlamentlərimizin də ölkələrimiz və xalqlarımız arasında əlaqələrin inkişafına dəstək və töhfələr verdiyi, hazırda qanunverici orqanlarımız arasında əməkdaşlığın yüksək səviyyədə olduğu qeyd edilib. Bildirilib ki, Milli Məclislə TBMM arasında çoxşaxəli ikitərəfli əməkdaşlıqla yanaşı, üçtərəfli və çoxtərəfli formatlarda da işbirliyi mövcuddur. Həmçinin parlamentlərimiz beynəlxalq təşkilatlarda səmərəli fəaliyyət göstərir və bütün məsələlərdə ortaq mövqedən çıxış edirlər. Spiker Sahibə Qafarova xatırladıb ki, Azərbaycan Milli Məclisi ilə Türkiyə Böyük Millət Məclisi arasında əməkdaşlıq haqqında saziş imzalanıb ki, bu sənəd parlamentlərimiz arasında bir çox sahələrdə əlaqələrin daha da dərinləşməsini özündə ehtiva edir. Bu saziş Şuşa Bəyannaməsinin parlamentlərarası əməkdaşlığa dair bəndinin həyata keçirilməsi və Azərbaycan-Türkiyə müttəfiqlik münasibətlərinin parlament səviyyəsində də əks etdirilməsi baxımından mühüm bir mexanizmdir. Bu mənada parlament komitələri, dostluq qrupları arasındakı əlaqələr çox önəmlidir.

Azərbaycana səfərindən və Milli Məclisdə olmağından məmnunluğunu ifadə edən Türkiyə Böyük Millət Məclisinin komissiya sədri Mahmut Özər cari il may ayının əvvəlində VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olduğunu və forumun çox yüksək səviyyədə təşkil edildiyini xatırladıb.

Görüşdə qardaş ölkələrimiz arasında bütün digər sahələrdə olduğu kimi, təhsil sahəsində də geniş əlaqələrin olduğu bildirilib. Spiker Sahibə Qafarova gənc nəslin tərbiyəsi, ailə dəyərlərimizin qorunması istiqamətində təhsilin xüsusi rolunu vurğulayaraq deyib ki, gənc nəslin milli dəyərlərimizə bağlı, qardaşlıq münasibətlərimizə sadiqlik ruhunda yetişdirilməsi çox mühüm əhəmiyyət kəsb edir.

Tərəflər Türkiyə-Azərbaycan Universitetinin yaradılmasından məmnunluqlarını ifadə edərək, bunun ölkələrimiz arasında qardaşlığın təzahürü olduğunu vurğulayıblar. Qeyd edilib ki, bu universitet gənclərimizin daha yaxşı təhsil almasına və gələcək inkişafına öz töhfəsini verəcək.

Görüşdə Milli Məclisin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev, TBMM üzvləri Nazım Maviş, Mehmet Emin Öz, Nurten Yontar, Şenol Sunat, Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı, Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev və digər rəsmi şəxslər iştirak ediblər.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Türkiyə ilə Azərbaycan parlamentləri arasında əməkdaşlıq dərinləşir



Mayın 22-də Milli Məclisin komitələrinin üzvləri ilə Türkiyə Böyük Millət Məclisinin Milli təhsil, mədəniyyət, gənclik və idman komissiyasının sədri Mahmut Özerin başçılıq etdiyi nümayəndə heyətinin görüşü keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Gənclər və idman komitəsi ilə görüşdə Milli Məclisin Sədr müavini Adil Əliyev dövlət başçılarının səmimi dostluğu sayəsində ölkələrimiz arasındakı münasibətlərin strateji müttəfiqlik səviyyəsinə yüksəlməsindən, parlamentlərarası əməkdaşlığın dövlətlərarası münasibətlərə verdiyi töhfədən bəhs edib. Gənclər və idman komitəsinin sədri Adil Əliyev bu gün ölkələrimiz arasında mövcud olan möhkəm dostluq, qardaşlıq münasibətlərinin Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarının sarsılmazlığını bir daha nümayiş etdirdiyini deyib. O, 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Zəfər yürüşümüz zamanı qardaş ölkənin verdiyi mənəvi dəstəyin, ədalətli mövqeyin Azərbaycan xalqının yaddaşında əbədi qalacağını bildirib.

Beynəlxalq parlament təsisatlarında qardaş ölkələrin bir-birinə verdiyi dəstəyi vurğulayan vitse-spiker parlamentlərarası münasibətlərimizin yeni müstəviyə daşındığını diqqətə çatdırıb və parlament diplomatiyası sahəsində qarşılıqlı əməkdaşlığın möhkəmləndirilməsinin əhəmiyyətini qeyd edib.

TBMM-in komissiya sədri Mahmut Özer səmimi görüşə görə minnətdarlığını bildirib, rəhbərlik etdiyi komissiya ilə Milli Məclisin Gənclər və idman komitəsi arasında əməkdaşlığın qurulmasının parlamentlərarası münasibətlərinin möhkəmləndirməsinə verəcəyi töhfələrdən danışıb.

Deputat Etibar Əliyev hər iki ölkənin gənclərinin iştirak etdiyi elmi və idman olimpiadalarına toxunaraq, bu sahədə aparılan işlərin gələcək nəslin sağlam ruhda yetişməsindəki rolunu diqqətə çatdırıb.

Görüşdə Komitə sədrinin müavini Şahin İsmayılov, komitə üzvləri Mahir Abbaszadə, Elnur Allahverdiyev, Müşfiq Cəfərov, Ramil Həsən, Sevinc Hüseynova, Vüqar İskəndərov, Ülvi Quliyev, Könül Nurullayeva, Cavid Osmanov, TBMM-in millət vəkilləri Mehmet Emin Öz, Nurten Yontar, Nazim Maviş, Şenol Sunat və digər rəsmi şəxslər iştirak ediblər.

❖ ❖ ❖

Elm və təhsil komitəsinin üzvlərinin TBMM-in nümayəndə heyəti ilə görüşündə komitənin sədri Bəxtiyar Əliyev Azərbaycanla Türkiyə arasında olan qardaşlıq münasibətlərindən söz açıb, qarşılıqlı səfərlərin bu münasibətlərin möhkəmlənməsinə xidmət etdiyini deyib. O, dövlətlərimiz arasında dostluq və qardaşlığın möhkəmlənməsində Ulu Öndər Heydər Əliyevin gördüyü işləri vurğulayıb, bu gün dövlət başçılarımızın xidmətləri sayəsində yüksək səviyyədə olan strateji tərəfdaşlığımızdan və müttəfiqliyimizdən danışıb.

Bəxtiyar Əliyev Azərbaycan və Türkiyənin elm, təhsil sahəsində əməkdaşlığının genişləndirilməsinin vacibliyini qeyd edib, bu istiqamətdə parlamentlərin verə biləcəyi töhfələrlə bağlı fikirlərini bölüşüb.

TBMM-in komissiya sədri Mahmut Özer xalqlarımız arasında tarixi köklərə və möhkəm təməllərə əsaslanan dost və qardaş münasibətlərinin prezidentlərimizin rəhbərliyi altında bütün istiqamətlərdə yüksələn xətt üzrə inkişaf etdiyini vurğulayıb. O, elm, təhsil sahəsində əməkdaşlığımızın genişləndirilməsi perspektivləri ilə bağlı fikirlərini açıqlayıb, bu işdə imkan və potensialların birləşdirilməsinin əhəmiyyətindən danışıb.

Milli Məclisin Elm və təhsil komitəsi sədrinin müavini Musa Qasımlı, komitə üzvü Eldar Quliyev, TBMM-in Milli təhsil, mədəniyyət, gənclik və idman komissiyasının üzvləri Nazim Maviş, Şenol Sunat ölkələrimiz arasında elm və təhsil sahəsində əməkdaşlığın, təcrübə mübadiləsinin, inteqrasiyanın gücləndirilməsinin əhəmiyyətindən bəhs ediblər, elm və təhsil sistemlərinin uyğunlaşdırılması ilə bağlı fikirlərini bölüşüblər.

Görüşdə deputatlar Aqiyə Naxçıvanlı, Ceyhun Məmmədov, Tamam Cəfərova, TBMM-in millət vəkilləri Mehmet Emin Öz, Nurten Yontar, Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı və digər rəsmi şəxslər iştirak ediblər.

❖ ❖ ❖

Səhiyyə komitəsinin üzvləri ilə görüşdə komitə sədri və Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov Azərbaycan və Türkiyə arasında əlaqələrin inkişafında dövlət başçılarının xüsusi rolunu vurğulayıb. O bildirib ki, bu gün ölkələrimiz arasında siyasi sahədəki sıx əməkdaşlıq iqtisadi, mədəni, elmi-texniki, səhiyyə və humanitar sahələrdə də əlaqələrin daha da genişlənməsinə öz müsbət təsirini göstərməkdədir.

Söhbətdə, ikitərəfli münasibətlərin inkişaf dinamikasından məmnunluq ifadə olunub, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin cari ilin 14 fevral tarixində keçirilən andiçmə mərasimində söylədiyi "Bizim başqa ailəmiz yoxdur, bizim ailəmiz türk dünyasıdır" fikrinin əhəmiyyəti xüsusi qeyd olunub.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" prinsipi əsasında inkişaf edən münasibətlərin fonunda parlamentlərarası əlaqələrin genişləndirilməsinin əhəmiyyəti vurğulanıb, qanunverici orqanların profil komitələri arasında yaranmış sıx əməkdaşlıqdan məmnunluq ifadə olunub.

Səmimi qəbula görə təşəkkürünü bildirən Mahmut Özer deyib ki, dövlətlərimiz arasında əlaqələr ölkə prezidentlərinin iradəsinə uyğun şəkildə yüksələn xətt üzrə inkişaf edir. Siyasi, iqtisadi, mədəni, təhsil və səhiyyə sahəsində əməkdaşlığın dərinləşdirilməsi hər iki xalqın mənafeyinə uyğundur.

Görüşdə Milli Məclisin deputatları Məlahət İbrahimqızı, Fəzail Ağamalı və TBMM-in millət vəkili Şenol Sunat iki ölkə arasındakı dostluq və qardaşlıq əlaqələri barədə fikirlərini bölüşüblər.

Söhbətdə dövlətlərarası və parlamentlərarası əməkdaşlığın inkişaf perspektivləri və digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə Milli Məclisin Hesablayıcı komissiyasının sədri Eldar Quliyev, deputatlar Ağalar Vəliyev, Kamilə Əliyeva, Anar İsgəndərov, Anar Məmmədov, TBMM-in millət vəkilləri Mehmet Emin Öz, Nurten Yontar, Nazim Maviş və Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı və digər rəsmi şəxslər iştirak ediblər.

***"Azərbaycan"***

# Lüksemburqun Deputatlar Palatasının sədri Klod Vislerin Ermənistan parlamentində səsləndirdiyi fikirlərə Azərbaycan Respublikası Milli Məclisinin münasibəti

**Lüksemburqun Deputatlar Palatasının sədri Klod Visler Ermənistana səfəri çərçivəsində mayın 22-də parlamentdə çıxışı zamanı Azərbaycanın ünvanına bir sıra ittihamlar səsləndirib. Azərbaycan Respublikasının Milli Məclisi bu qərəzli və absurd fikirləri kəskin şəkildə qınayır və qətiyyətlə etiraz edir.**

Görünən odur ki, öz qanunvericiliyində fransız dilini əsas dil kimi müəyyən etmiş lüksemburqlu təmsilçilər Cənubi Qafqaz regionuna yanaşmalarında "fransız üslubu"nu davam etdirməkdə həddən artıq həvəsli görünürlər. Belə ki, onlar regionda baş verən prosesləri sərbəst şəkildə təhrif etməkdən, hətta Azərbaycana qarşı hansısa tələblər irəli sürməkdən çəkinmirlər.

Mövcud reallıqları isə təhrif etmək mümkün deyil. Lüksemburqun Deputatlar Palatasının sədrinə bir sıra faktları xatırladaq: Azərbaycanın beynəlxalq səviyyədə tanınmış və Lüksemburqdan dörd dəfə böyük olan əraziləri 30 il ərzində Ermənistanın işğalı altında qalıb. İşğal dövründə 1 milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. 8 şəhər və yüzlərlə kənd, saysız-hesabsız tarixi, dini və mədəni abidələr darmadağın edilib və yer üzündən silinib.

Təəssüf ki, özlərini humanitar dəyərlərin və fundamental hüquqların qarantı kimi qələmə verən Lüksemburq parlamenti özünə xas olan davranış tərzini seçib və bütün bu faciəvi hadisələrə - obyektiv reallıqlara münasibətdə biganə qalmağa üstünlük verib.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan öz torpaqlarını işğaldan azad edib, beynəlxalq hüququn norma və prinsiplərini təkbaşına təmin edib. Bu gün Lüksemburqdan dörd dəfə böyük olan ərazilər böyük səylər hesabına bərpa olunur və yenidən qurulur. Məcburi köçkünlər öz doğma torpaqlarına qayıdırlar.

30 illik işğalın ağır nəticələrinə, törədilmiş dəhşətlərə baxmayaraq, Azərbaycan bu gün həm də regiona uzunmüddətli sülh və sabitlik gətirəcək normallaşma prosesinin təşəbbüskarıdır. Hazırda Azərbaycan-Ermənistan ikitərəfli sülh danışıqlarının müsbət şəkildə davam etdiyi bir məqamda xarici emissarların bu cür çıxışlarının regionda sülh və sabitlik naminə atılmış addım olmadığı hər kəsə məlumdur. Bu müdaxilə cəhdlərinin sülh prosesində uğurlu nəticələrin əldə olunmasını əngəlləməyə çalışdığı şübhə doğurmur. Lüksemburq parlamentinə və onun sədrinə öz "dəstəyini" başqa istiqamətlərə yönəltməyi şiddətlə tövsiyə edirik.

Ermənistan tərəfinə isə xatırlatmaq istərdik ki, regiondan kənar üçüncü tərəflərin regionda baş verən proseslərə dair birtərəfli yanaşmalarının, uydurma və yalanlarının alqışlanması və dəstəklənməsi nə sülh prosesinə, nə də etimad quruculuğuna yönəlmiş addımlara fayda gətirmir.

# Milli Məclisdə görüş



**Mayın 22-də Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisinin (TBMM) Baş katibinin müavini Naim Çobanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Fərid Hacıyev iki qardaş ölkənin münasibətlərinin Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "Bir millət, iki dövlət" şüarına uyğun olaraq inkişaf etməsindən məmnunluqla danışıb.

Aparat rəhbəri ölkələrimizin daim bir-birinə dəstək verdiyini qeyd edərək, 44 günlük Vətən müharibəsində Azərbaycanın Türkiyənin mənəvi-siyasi dəstəyinin bir daha şahidi olduğunu bildirib.

Aparat rəhbəri ötən il Türkiyə Böyük Millət Məclisinin Baş katibi Talip Uzunla görüşünü xatırlayaraq, parlament aparatları arasında əlaqələrin inkişafının qanunverici orqanların daha səmərəli əməkdaşlığının qurulmasına öz töhfəsini verəcəyinə inamını ifadə edib. Fərid Hacıyev VI çağırış Milli Məclisin formalaşmasından sonra parlamentin Sədri Sahibə Qafarovanın rəhbərliyi ilə Milli Məclisdə aparılmış islahatlar, Aparatın strukturu və fəaliyyəti barədə məlumat verib.

Ötən il iki ölkənin parlamentləri arasında imzalanmış əməkdaşlıq haqqında sazişin əhəmiyyətindən danışan Fərid Hacıyev həmin sənəddə parlament aparatları arasında əməkdaşlığın inkişaf etdirilməsi məsələlərinin də yer aldığını diqqətə çatdırıb və bu əməkdaşlığın faydalı olacağına əminliyini bildirib.

Göstərilən doğma münasibətə görə təşəkkürünü bildirən TBMM Baş katibinin müavini Naim Çoban Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edib. O, iki ölkənin parlament aparatları arasında əməkdaşlığın vacibliyindən danışıb, qarşılıqlı təcrübə mübadiləsinin və mütəmadi səfərlərin əhəmiyyətini qeyd edib. Qonaq Azərbaycanın Türkiyədə baş vermiş güclü zəlzələ zamanı göstərdiyi yardımın qardaş münasibətinin təzahürü olduğunu diqqətə çatdırıb.

Söhbət zamanı qanunverici orqanlar arasında əməkdaşlığın müxtəlif istiqamətləri barədə müzakirələr aparılıb.

Görüşdə Milli Məclis Aparatı rəhbərinin müavinləri Yaşar Əməşov, Rüstəm Mahmudov və digər rəsmi şəxslər iştirak ediblər.

***"Azərbaycan"***

# TBMM-in nümayəndə heyətləri Fəxri xiyabanı, Şəhidlər xiyabanını və "Türk şəhidliyi" abidəsini ziyarət ediblər

Mayın 22-də ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisinin (TBMM) Təhsil, mədəniyyət, gənclik və idman komitəsinin sədri Mahmut Özerin başçılıq etdiyi nümayəndə heyəti Fəxri xiyabanı, Şəhidlər xiyabanını və "Türk şəhidliyi" abidəsini ziyarət edib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, nümayəndə heyəti Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

Sonra nümayəndə heyəti Şəhidlər xiyabanını ziyarət edərək, ölkəmizin azadlığı və suverenliyi uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini hörmətlə anıb, məzarları üzərinə tər çiçəklər düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Sonda Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və paytaxtımızda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.

Nümayəndə heyəti, həmçinin 1918-ci ildə Bakının azad edilməsi uğrunda döyüşlərdə həlak olmuş şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış "Türk şəhidliyi" abidəsini ziyarət edib. Abidənin önünə gül dəstələri qoyulub.

Ziyarət zamanı nümayəndə heyətini Milli Məclisin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev və digər rəsmi şəxslər müşayiət ediblər.

❖ ❖ ❖

Mayın 22-də ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclis (TBMM) Baş katibinin müavini Naim Çobanın başçılıq etdiyi nümayəndə heyəti Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, abidəsi önünə güllər düzüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, sonra nümayəndə heyəti Şəhidlər xiyabanını ziyarət edərək, ölkəmizin azadlığı və suverenliyi uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini hörmətlə anıb, məzarları üzərinə tər çiçəklər düzüb. Eyni zamanda "Əbədi məşəl" abidəsi ziyarət olunub.

Nümayəndə heyəti həmçinin 1918-ci ildə Bakının azad edilməsi uğrunda döyüşlərdə həlak olmuş şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış "Türk şəhidliyi" abidəsini ziyarət edib. Abidənin önünə gül dəstələri qoyulub.

Ziyarət zamanı nümayəndə heyətini Milli Məclis Aparatı rəhbərinin müavini Yaşar Əməşov və digər rəsmi şəxslər müşayiət ediblər.

***"Azərbaycan"***

# TBMM-in nümayəndə heyəti Milli Məclis Aparatının şöbələrinin fəaliyyəti barədə məlumatlandırılıb

Mayın 22-də Milli Məclisdə ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisi (TBMM) Baş katibinin müavini Naim Çobanın başçılıq etdiyi nümayəndə heyəti ilə Parlament Aparatının Milli Məclisin, komitələrin və komissiyaların işinin təşkili və İcra hakimiyyəti orqanları ilə əlaqələr şöbələrinin əməkdaşları arasında görüş keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, görüşü açan Milli Məclis Aparatı rəhbərinin müavini Rüstəm Mahmudov VI çağırış Milli Məclisin formalaşmasından sonra spiker Sahibə Qafarovanın başçılığı ilə parlamentdə aparılmış islahatlar, Aparatın strukturu və görülən işlər barədə məlumat verib.

Sonra Parlament Aparatının İcra hakimiyyəti orqanları ilə əlaqələr şöbəsinin əməkdaşı Elman Aslanov bu şöbələrin birgə fəaliyyəti barədə slaydları təqdim edib.

Təqdimatdan sonra Parlament Aparatının Milli Məclisin, komitələrin və komissiyaların işinin təşkili şöbəsinin müdiri Gülnarə İsmayılova və İcra hakimiyyəti orqanları ilə əlaqələr şöbəsinin müdiri Şakir Şabanov rəhbərlik etdikləri şöbələrin fəaliyyət istiqamətləri, tətbiq olunan yeniliklər, qarşılıqlı təcrübə mübadiləsinin əhəmiyyəti barədə fikirlərini bölüşüblər, qonaqları maraqlandıran suallara cavab veriblər.

❖ ❖ ❖

Sonra Türkiyə Böyük Millət Məclisi Baş katibinin müavini Naim Çobanın başçılıq etdiyi nümayəndə heyəti ilə Milli Məclis Aparatının qanunvericilik şöbələrinin əməkdaşları arasında görüş keçirilib. Görüşdə iştirak edən Milli Məclis Aparatı rəhbərinin müavini Yaşar Əməşov bildirib ki, parlament Aparatında 3 qanunvericilik şöbəsi fəaliyyət göstərir. Bunlar Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik, İqtisadi qanunvericilik və Sosial qanunvericilik şöbələridir.

Sonra Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyid, İqtisadi qanunvericilik şöbəsinin müdiri Məhəmməd Bazıqov və Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev rəhbərlik etdikləri şöbələrin parlamentin həyata keçirdiyi qanunvericilik fəaliyyətində iştirakı, qanun layihələrinin hazırlanması, qəbulu və qüvvəyəminmə prosesi, bu şöbələrin gördükləri işlər barədə məlumat veriblər.

Söhbət zamanı qonaqları maraqlandıran suallar cavablandırılıb.

❖ ❖ ❖

Sonra Türkiyə Böyük Millət Məclisi Baş katibinin müavini Naim Çobanın başçılıq etdiyi nümayəndə heyəti ilə Milli Məclis Aparatının Beynəlxalq münasibətlər şöbəsinin əməkdaşları arasında görüş olub.

Əvvəlcə Parlament Aparatı rəhbərinin müavini Yaşar Əməşov VI çağırış Milli Məclisin formalaşmasından sonra spiker Sahibə Qafarovanın rəhbərliyi ilə parlament diplomatiyasının gücləndirilməsi istiqamətində görülən işlərdən danışıb.

Sonra Milli Məclis Aparatının Beynəlxalq münasibətlər şöbəsinin sektor müdiri Mirkamal Əlizadə çalışdığı şöbənin fəaliyyət istiqamətləri barədə slaydları nümayiş etdirib, şöbənin parlamentin beynəlxalq fəaliyyətinin təmin edilməsi sahəsində həyata keçirdiyi işlər, TBMM ilə qarşılıqlı təcrübə mübadiləsinin əhəmiyyəti barədə fikirlərini açıqlayıb.

Təqdimatdan sonra qonaqları maraqlandıran suallara cavab verilib.

*"Azərbaycan"*

# Sosial sığorta və pensiya ilə bağlı qanunvericilik təminatı təkmilləşdirilir



Mayın 22-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin növbəti iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, iclasda "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihəsi birinci oxunuşda müzakirə olunub.

Komitənin sədri Musa Quliyev layihəni təqdim edərək bildirib ki, ölkədə aparılan sosial islahatların mühüm tərkib hissəsi olan pensiya islahatları uğurla davam etdirilir. Aparılan islahatların davamı olaraq "Əmək pensiyaları haqqında" Qanuna bir sıra dəyişikliklərin edilməsi zərurəti yaranıb. O, qanunun 5 maddəsinə 17 dəyişiklik və 1 keçid müddəasının təklif edildiyini söyləyib. Qeyd edib ki, layihədə dəqiqləşdirici xarakterli texniki, sosial sığorta prinsipinin daha da gücləndirilməsinə və təkmilləşdirilməsinə xidmət edən, elektron pensiya təminatının və proaktiv təyinatların çərçivəsinin genişləndirilməsi məqsədi ilə bir sıra dəyişikliklər nəzərdə tutulub.

Diqqətə çatdırılıb ki, qanunun 9.6-cı maddəsinə əsasən, hərbi qulluqçulara əmək pensiyası hərbi xidmət dövründə deyil, hərbi xidmətdən buraxıldığı gündən təyin olunur. Bununla yanaşı, qanunda hərbi xidmətə yenidən qəbul edildiyi tarixdən ən azı 72 ay xidmət etmiş şəxslərin, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə hərbi xidmətə bərpa edilmiş şəxslərin, hərbi xidmət vəzifələrini yerinə yetirərkən həlak olmuş şəxslərin və ali zabit heyətinə aid şəxslərin əmək pensiyasının yenidən hərbi xidmətə qəbul edilməsi ilə əmək pensiyasının sonuncu təminat xərcliyinə görə yenidən hesablanması müəyyən edilir. Layihədə bu şəxslərin əmək pensiyasının yenidən hesablanmasının dəqiqləşdirilməsi üçün dəyişiklik təklif olunur.

Sənəddə qanunun 9.5.2-ci maddəsində "buraxılmış" sözündən sonra, 20.14.2-ci maddəsində "30 təqvim ili" sözlərindən əvvəl "buraxıldığı günə" sözlərinin əlavə edilməsində məqsəd şəxsin hərbi xidmətdə qalmasını təşviq etmək, eləcə də daha çox xidmət edən hərbi qulluqçu ilə qeyd olunan maddələrə əsasən daha az xidmət edən və pensiya hüququ əldə edən hərbi qulluqçuların pensiya məbləğləri arasında ədaləti qorumaqdır.

Sonra qanunun 20.2-20.3-cü, 20.6-cı, 20.9-20.10-cu və 20.21-20.22-ci maddələrinə təklif olunan dəyişikliklər və 20.25-ci maddənin ləğv edilməsi ilə bağlı məlumat verilib. Bildirib ki, bəzi uyğunsuzluqların aradan qaldırılması üçün qanunun 20.1.1-ci, 20.1.3-cü, 20.1.6-cı və 20.1.16-cı maddələrində nəzərdə tutulmuş şəxslərin qulluq stajına görə əmək pensiyasına əlavələr həmin şəxslərin orta aylıq əməkhaqları, son 12 ay ərzində müvafiq vəzifələr üzrə aldığı vəzifə maaşının və məcburi dövlət sosial sığortasına cəlb edilən bütün ödənişlərin cəminin 12-yə nisbəti yolu ilə müəyyən edilməsi təklif olunur. Dəyişikliyə görə, həmin kateqoriyadan olan şəxslərin əmək pensiyasına qulluq stajına görə əlavənin müəyyən edilməsi üçün orta aylıq əməkhaqqının hesablanmasında vahid yanaşma tətbiq olunacaq.

Qeyd olunub ki, layihəyə əlavə edilmiş keçid müddəasına əsasən həmin şəxslər bu qanunun qüvvəyə mindiyi tarixədək 20.1.1-ci, 20.1.3-cü, 20.1.6-cı və 20.1.16-cı maddələrdə nəzərdə tutulmuş sığorta stajını topladığı halda onlara əvvəlki normalar tətbiq olunacaq.

Musa Quliyev nəzərə çatdırıb ki, qanunun 20.16.2-ci maddəsinə təklif edilən dəyişiklik hərbi xidmətlə bağlı əlilliyi olan şəxslərin sosial müdafiəsini gücləndirmək məqsədi daşıyır. Bu qəbildən olan şəxslərin orqanizmin funksiyalarının 81-100 faiz itirilməsi zamanı onların pensiyasının məbləğinin təminat xərclərinin 60 faizdən 70 faizə qaldırılması təklif edilir.

Sənəddə öz əksini tapmış avtomatlaşdırılmış pensiya sisteminin təkmilləşdirilməsi və proaktiv pensiya təyinatı dairəsini genişləndirmək məqsədi daşıyan dəyişikliklərdən bəhs edən komitə sədri bildirib ki, qanunun 22-1.5-ci maddəsinə təklif edilən dəyişiklik sosial müavinətdən pensiyaya keçidin qaydasını dəqiqləşdirir. Bununla yanaşı, 31.1-1-ci maddəyə təklif edilən dəyişiklik, eləcə də qanuna yeni əlavə olunan 34.1-1-ci maddə bir pensiya növündən başqa, daha yüksək pensiya növünə keçmənin avtomatlaşdırılmış, proaktiv şəkildə həyata keçirilməsinə hüquqi baza yaradacaqdır.

Bildirib ki, qanun layihəsi sosial sığorta prinsiplərinin dərinləşməsi, sosial ədalətin təmin olunması, pensiya təminatının avtomatlaşdırılması və sosial müdafiə sisteminin dayanıqlığının artmasına xidmət edəcək.

Məsələ ətrafında aparılan müzakirələr zamanı parlamentin komitə sədri Səməd Seyidov, deputatlar Hikmət Məmmədov, Kamal Cəfərov, Məlahət İbrahimqızı, Səttar Möhbalıyev, Rəşad Mahmudov, Naqif Həmzəyev, Kamilə Əliyeva, Sədaqət Vəliyeva, Aydın Hüseynov, Azər Badamov, Razi Nurullayev, Şahin İsmayılov, Asim Mollazadə çıxış ediblər. Millət vəkilləri qanun layihəsinin mütərəqqi xarakter daşıdığını, ölkə vətəndaşlarının sosial rifahının daha da gücləndirilməsinə, sosial ədalətin qorunmasına xidmət etdiyini söyləyiblər, sənədin pensiya təminatı sahəsində həyata keçirilən islahatların qanunvericilik bazasının təkmilləşdirilməsi baxımından əhəmiyyətini vurğulayıblar. Milli Məclisin müxtəlif komitələrini təmsil edən deputatlar, həmçinin bu komitələrin layihə barədə müsbət rəy verdiyini də bildiriblər.

Sonra iclasda əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev layihə barədə fikirlərini açıqlayıb. O bildirib ki, sənəddə vətəndaşların rifahının daha da yaxşılaşdırılmasına, sosial ədalət prinsipinin təmin olunmasına, o cümlədən proaktiv təyinatların daha da genişləndirilməsinə, hərbçilərin pensiya təminatının yaxşılaşdırılmasına, pensiya təyinatı zamanı sığorta stajının hesablanmasına, habelə bir səlahiyyət müddəti ilə bağlı sığorta prinsiplərinin gücləndirilməsinə yönəlmiş dəyişikliklər öz əksini tapıb. Sahil Babayev həmçinin deputatların qaldırdığı məsələlərə münasibət bildirib, onların suallarını cavablandırıb.

Müzakirələrin yekununda qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# TikTok platformasının nümayəndə heyəti Milli Məclisdə olub

Mayın 22-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin TikTok platformasının nümayəndə heyəti ilə görüşü keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları salamlayan komitə sədri Tahir Mirkişili, Azərbaycanda sosial media istifadəçilərinin sayının son illərdə daha da artdığını bildirərək, sosial mediadan düzgün və məqsədli istifadənin vacibliyini qeyd edib, geniş tədbirlər planı çərçivəsində qarşılıqlı əməkdaşlıq aparılmasının və maarifləndirmə işlərinin vacibliyini vurğulayıb. Görüşə görə təşəkkür edən TikTok platformasının Şərqi Avropa üzrə ictimai siyasət və korporativ əlaqələrin direktoru Sergey Sokolov səfərin məqsədi barədə məlumat verib. Azərbaycanda həyata keçirilən layihələrdən söz açan direktor, ölkəmizin zəngin tarixi və mədəni irsinin təbliğində, "startap"ların inkişafı və digər sahələrdə əməkdaşlığın artırılmasında maraqlı olduqlarını bildirib.

Görüşdə nümayəndə heyətinin üzvləri tərəfindən Azərbaycandakı platforma istifadəçilərinin, xüsusilə azyaşlıların və gənclərin təhlükəsizliyinin təmin edilməsinə yönəlmiş səylər və texniki həllər barədə geniş məlumat verilib.

Görüşdə iştirak edən İnsan hüquqları komitəsinin sədri Zahid Oruc, Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, Mədəniyyət komitəsinin sədri Fazil Mustafa sosial media platformalarında məzmunların yaradılması zamanı milli dəyərlərin nəzərə alınmasının önəmini qeyd ediblər.

Söhbətdə qarşılıqlı-faydalı əməkdaşlığın davam etdirilməsinin vacibliyi qeyd olunub, birgə fəaliyyət istiqamətləri barədə fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Leyla Əliyeva İsveçrədə BMT ofisində görüşlər keçirib





Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva İsveçrənin Cenevrə şəhərinə işgüzar səfəri çərçivəsində Birləşmiş Millətlər Təşkilatının (BMT) Ümumdünya Ərzaq Proqramının (ÜƏP) Cenevrə Qlobal ofisinin direktoru Cankarlo Çirri və BMT Ətraf Mühit Proqramının (ƏMP) Avropa üzrə yeni təyin olunmuş regional direktoru Arnold Kraylhuber ilə görüşüb.





IDEA İctimai Birliyindən AZƏRTAC-a bildiriblər ki, ÜƏP rəsmisi ilə keçirilən görüşdə IDEA təşkilatı ilə ÜƏP arasında BMT-nin Dayanıqlı İnkişaf məqsədlərindən olan Yer kürəsində aclığın aradan qaldırılması üzrə birgə fəaliyyət, o cümlədən münaqişələr, təbii fəlakətlər və iqlim dəyişmələrindən əziyyət çəkən insanların ərzaqla təminatına dair müzakirələr aparılıb.

Leyla Əliyeva IDEA İB-nin Azərbaycanda və bölgəmizdən kənarda müxtəlif BMT qurumları ilə çoxşaxəli əməkdaşlıq nümunələrini diqqətə çatdıraraq, ÜƏP ilə daha sıx tərəfdaşlığa hazır olduqlarını vurğulayıb. Bu xüsusda o, son illər Azərbaycanda könüllülər hərəkatının geniş vüsət tapdığını və istər ölkə daxilində, istərsə də ölkədən kənarda dəyərli təcrübə qazandıqlarını nəzərə alaraq, ÜƏP-in dünyanın müxtəlif bölgələrində fəaliyyətlərinə Azərbaycan könüllülərinin cəlb olunmasını təklif edib.

ƏMP regional direktoru ilə keçirilən görüşdə IDEA İctimai Birliyinin BMT-nin bu proqramı ilə Azərbaycanda həyata keçirdikləri müxtəlif layihələrə istinad edilib, uğurlu əməkdaşlıq nümunələri kimi canlı aləmin bir sıra növlərinin mühafizəsini ehtiva edən layihələr, o cümlədən Xəzər dənizinin ekologiyasının mühafizəsi və bərpası təşəbbüsləri göstərilib. Leyla Əliyeva xüsusilə qeyd edib ki, 30 ilə yaxın işğal altında olan ərazilərimizdə meşələr qırılıb, su hövzələri çirkləndirilib, təbii ehtiyatlarımız amansızcasına istismar olunub, nəticədə ölkəmizin ekologiyasına ciddi zərər vurulub. Bu baxımdan işğala məruz qalmış ərazilərimizdə təbiətin bərpası və dayanıqlı inkişafın təmin edilməsi istiqamətində ƏMP ilə əməkdaşlığın vacibliyi qeyd olunub.

IDEA İB-nin rəhbəri hər iki BMT proqramının nümayəndəsini bu ilin noyabrında Bakıda keçiriləcək COP29 konfransına dəvət edib və bu proses çərçivəsində birgə tədbirlər keçirmək imkanlarını müzakirə etməyə hazır olduqlarını diqqətə çatdırıb.

# Aqrar sektora "ayaq açan" innovasiya qısa zamanda fermerlərin sağ əlinə çevrilib

**Müasir dövrdə kənd təsərrüfatının dinamik inkişafı yeni texnologiya və innovasiyaların tətbiqi ilə sıx bağlıdır. Çünki innovasiyaların aqrar sektorda mənimsənilməsi məhsuldarlığın artırılmasında və rəqabətqabiliyyətli istehsalın genişləndirilməsində başlıca rol oynayır. Eyni zamanda kənd təsərrüfatının bu yolla inkişafı torpaq və su resurslarının qorunmasına, onlardan səmərəli istifadəyə əlverişli imkanlar yaradır.**

Amma bunlar da hələ hamısı deyil. Aqrar sektorda innovasiyaların geniş tətbiqi qlobal miqyasda ərzaq təhlükəsizliyinin təmin edilməsinə kömək etməklə yanaşı, həm də ekoloji tarazlığın gözlənilməsində yardımçı olur. Dronlardan istifadə, "ağıllı bağ", müasir əkin üsulları, zərərvericilərə qarşı müasir bioloji mübarizənin təşkili, biotexnologiya laboratoriyalarında virussuz toxum və ting yetişdirilməsi, əkin sahələrinin koordinatlarının və orada hansı məhsulun əkilməsinin satellitlər vasitəsi ilə müəyyənləşməsi və s. bu cür innovasiyalardandır. O cümlədən 2019-cu ildən Kənd Təsərrüfatı Nazirliyi tərəfindən tətbiq edilən "Elektron Kənd Təsərrüfatı" İnformasiya Sistemi (EKTİS) aqrar sahə üzrə vahid məlumat bazasının yaradılmasında önəmli yenilikdir. EKTİS-də fermerlərin biznes fəaliyyətlərinin və kənd təsərrüfatı məhsullarının istehsalının ilkin mərhələsindən son mərhələsinə qədər bütün proseslər öz əksini tapır, istehsalçılara bir çox texnoloji hədəflərinə nail olmağa imkan yaradır.

İnnovativ hədəflərdən biri də "gubre.az" aqrar ticarət şəbəkəsidir. Məlumat üçün bildirək ki, bu, Azərbaycanın kənd təsərrüfatı istehsal vasitələri bazarında lider şirkətlərdən biri olan "Aqrar İnnovasiya və Təchizat Şirkəti" ASC-nin tərkibində fəaliyyət göstərən aqrar ticarət şəbəkəsidir. Şirkət aqrokimyəvi vasitələr, toxumlar, əkin ləvazimatları və s. kənd təsərrüfatı istehsal vasitələrinin idxalı, eləcə də topdan və pərakəndə satışı üzrə ixtisaslaşıb. Bundan başqa, şirkət müştərilərinə aqronom dəstəyi və ucqar rayonlarda təsərrüfat fəaliyyəti ilə məşğul olan fermerlərə səyyar satış xidmətləri də göstərir. Pərakəndə satış istiqamətində "gubre.az" ticarət şəbəkəsi kimi tanınan şirkət 200-dən çox satış nöqtəsi vasitəsi ilə 50-dən artıq markaya mənsub yüzlərlə çeşiddə məhsulu fermerlərə təqdim edir.

Azərbaycanın ucqar, dağ və dağətəyi rayonlarından tutmuş, istənilən bölgəsinin kənd təsərrüfatı sahələrində çalışan hər bir fermerədək "gubre.az"ın xidmətləri əlçatandır. Təsərrüfat sahiblərinə təklif olunan bütün məhsullar və ləvazimatlar müasir dövrün tələbləri ilə ayaqlaşan yüksək keyfiyyət standartlarına, həmçinin rəsmi sertifikatlara sahibdir. "gubre.az" təsərrüfat sahibləri üçün zəruri olan yüksəkkeyfiyyətli toxum, gübrə, pestisid çeşidləri, müasir əkin ləvazimatları kimi bütün növ kənd təsərrüfatı məhsullarının, vasitələrinin münasib qiymətlərlə satışını həyata keçirir. Bu məhsullar həm yerli şirkətlərə, həm də əsasən dünyaca məşhur "Yara Suomi OY"(Finlandiya), "ICL"(İsrail), "Tessenderlo"(Belçika), "Anorel"(Belçika), Polyamix (Polşa), "Continental"(İtaliya) kimi qlobal brendlərə məxsusdur. Şəbəkə, eyni zamanda hər mövsümə uyğun məhsullar üçün subsidiyalı satış və müxtəlif endirim kampaniyaları təşkil edir, torpaq analizi və ödənişsiz aqronom məsləhəti xidmətləri həyata keçirir.

Bütün bunların nəticəsi idi ki, ötən həftə Bakı Ekspo Mərkəzində keçirilən 17-ci "Caspian Agro" Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı sərgisində "gubre.az"ın təqdim etdiyi layihə fermerlərin xüsusi marağına səbəb oldu. Şəbəkə sərgidə öz stendi ilə təmsil olunurdu. Stenddə fermerlərə "gubre.az"ın idxal etdiyi torpaq qoruyucu və yaxşılaşdırıcı vasitələr, gübrələr, müasir effektiv bitki-mühafizə vasitələri, yüksək məhsuldarlığa malik pambıq, qarğıdalı, yonca və s. toxum sortları təqdim edilmişdi. Fermerin rəqəmsal dostu olan aqrar şəbəkə stendində ilk dəfə təqdim olunan "Agrohub" mobil platforması təkcə kənd təsərrüfatı mütəxəssislərinin deyil, sərginin digər iştirakçılarının və ziyarətçilərin də diqqətini çəkdi. Hər kəsin marağına səbəb olan bu platforma fermerləri, aqronomları, kənd təsərrüfatı istehsal vasitələrinin təchizatçılarını bir araya gətirməklə sektorun daha sürətli inkişafına töhfə verməyi hədəfləyir. O, fermerlərə aqronom məsləhəti və hava proqnozuna əsasən müvafiq avtomatlaşdırılmış tövsiyələr almaq, becərdiyi bitki növü ilə əlaqədar yaranmış suallara cavab tapmaq, maarifləndirici materialları daha asan və sürətlə əldə etmək, yetişdirdiyi məhsulları satışa çıxarmaq, digər fermerlərlə asan əlaqə yaradaraq təcrübə paylaşımına dəstək olmaq və ya bundan yararlanmaq kimi imkanlar yaradır. Kənd təsərrüfatı sektoruna innovativ həllər gətirməyi hədəfləyən "Agrohub" mobil tətbiqi qısa zamanda fəaliyyət dairəsini bütün ölkə ərazisində genişləndirməyi planlaşdırıb.

"gubre.az"ın direktoru Anar Hüseynov yaratdıqları mobil tətbiq haqqında deyir: "Bildiyiniz kimi, Prezident İlham Əliyev tərəfindən 2024-cü il "Yaşıl dünya naminə həmrəylik" ili elan edilmişdir. Ekoloji vəziyyətin bütün dünyada getdikcə çətinləşdiyi, hava, su, torpaq resurslarının kirlənərək tədricən sıradan çıxmaqda olduğu indiki zamanda dövlətimizin bu sahəyə göstərdiyi diqqət təsadüfi deyil. Qida təhlükəsizliyinin və dayanıqlı inkişafın təmin edilməsi üçün təbii resursların qənaətlə istifadə edilməsi və hətta yaxşılaşdırılması kənd təsərrüfatı üçün həyati əhəmiyyət daşıyır. Biz də bu axına qoşularaq və sosial məsuliyyətimizi dərk edərək, torpaq yaxşılaşdırıcı və su qaynaqlarından daha səmərəli istifadəyə şərait yaradacaq məhsullar təqdim edir, fermerləri təbii resurslara qənaəti təbliğ edən maarifləndirici materiallarla təmin edirik. Bundan başqa yeni "Agrohub" platformamız vasitəsilə də fermerlərimizin müasir səmərəli və qənaətcil becərmə texnologiyalarını daha sürətlə öyrənib mənimsəməsinə nail olmağı hədəfləyirik".

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

◆ Tacikistan Prezidenti Emoməli Rəhmonun Azərbaycana dövlət səfəri

# Tacikistan Prezidenti Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət edib

Mayın 22-də Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ölkəmizə dövlət səfəri çərçivəsində Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə tər güllər düzülüb.





# Şəhidlərin xatirəsinə ehtiram

**Azərbaycanda dövlət səfərində olan Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon mayın 22-də Şəhidlər xiyabanını ziyarət edib.**

AZƏRTAC xəbər verir ki, Prezident Emoməli Rəhmon Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Sonra Bakının ən hündür nöqtəsindən paytaxtın mənzərəsini seyr edən ali qonağa Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

# Azərbaycan İranın kədərli günlərində də yanındadır

Dünyanın bütün ölkələri, xüsusilə də sərhəd qonşuları ilə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr quraraq inkişaf etdirmək Azərbaycan dövlətinin xarici siyasətinin əsas istiqamətlərindəndir. Bu baxımdan ölkəmizin yaxın qonşularından olan İran İslam Respublikası ilə münasibətlərin yaxşılaşdırılması, əlaqələrin genişləndirilməsi və əməkdaşlığın daha da möhkəmləndirilməsi yönündə həyata keçirdiyi işlər təqdirəlayiqdir.

Əsrlər boyu bərabər yaşayan və İslam aləminə mənsub İran və Azərbaycan xalqlarının elmi, mədəni əlaqələri tarix boyu güclü olub. Bu iki ölkənin - Azərbaycanın və İranın diplomatik münasibətlərinin də tarixi qədim və zəngindir. Son illər ölkələrimiz arasında əlaqələri uğurla davam və inkişaf etdirilir. Bu gün Azərbaycan və İran dost, qardaş ölkələr, mehriban qonşulardır. Hazırda ölkələrimiz arasında qarşılıqlı hörmətə və dostluğa əsaslanan tarixi və mədəni əlaqələr daha da inkişaf etməkdədir.

Mayın 19-da Azərbaycan Respublikası ilə İran İslam Respublikasının dövlət sərhədində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin nümayəndə heyətlərinin iştirakı ilə görüşü oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin iştirakı ilə Araz çayı üzərində inşa edilmiş "Xudafərin" hidroqovşağının istismara verilməsi və "Qız Qalası" hidroqovşağının açılış mərasiminin keçirilməsi iki ölkə arasında tarixi hadisəyə çevrildi. Açılış mərasimində çıxışı zamanı Prezident İlham Əliyev vurğuladı: "İran-Azərbaycan birliyi, dostluğu sarsılmazdır. Heç kim bizim aramıza girə bilməz. Bu səylər əbəsdir və biz bugünkü mərasimlə bunu bir daha sübut edirik".

Azərbaycan və İran xoş, sevincli vaxtlarında olduqları kimi, kədərli günlərində də bir-birinin yanındadır. Mayın 19-da İbrahim Rəisinin helikopterinin İranın Verzeqan şəhəri yaxınlığında qəzaya uğraması, hadisə nəticəsində bütün sərnişinlərin və ekipaj üzvlərinin həlak olması xəbəri ölkəmizdə hüznlə qarşılanıb. İranın Azərbaycandakı səfirliyinin binası önündə helikopter qəzasında həlak olmuş şəxslərin xatirəsi üçün guşə yaradılıb. Ölkəmizin vətəndaşları İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi, xarici işlər naziri Hüseyn Əmir Abdullahiyan və onları müşayiət edən digər şəxslərin helikopter qəzasında faciəli surətdə həlak olması ilə əlaqədar İran xalqına başsağlığı verir, yaradılmış xatirə guşəsinin qarşısına gül qoyaraq faciə qurbanlarının xatirəsini yad edirlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də İran İslam Respublikasının ölkəmizdəki səfirliyində olub, İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin, xarici işlər naziri Hüseyn Əmir Abdullahiyanın və onları müşayiət edən digər şəxslərin helikopter qəzasında faciəli surətdə həlak olmaları ilə əlaqədar başsağlığı verib. Dövlətimizin başçısı İran İslam Respublikasının ölkəmizdəki səfirliyinin müvəqqəti işlər vəkili ilə söhbətində bildirib ki, İran İslam Respublikasının Prezidenti cənab Seyid İbrahim Rəisinin faciəli şəkildə həlak olması bizim hamımızı dərindən sarsıdıb: "Onunla bərabər xarici işlər naziri Hüseyn Əmir Abdullahiyan və digər şəxslər faciəli şəkildə həlak olublar. Allah onlara rəhmət eləsin. İran xalqının başı sağ olsun. Bu, böyük itkidir. Bu itki təkcə İran xalqına, dövlətinə üz verməyib, bütün müsəlman aləminə üz verib".

Prezident İlham Əliyev Seyid İbrahim Rəisinin böyük dövlət xadimi, görkəmli siyasətçi və İran xalqının etibarını qazanmış böyük şəxsiyyət olduğunu qeyd edib: "Onunla çoxsaylı görüşlərim hər zaman məndə çox böyük təəssürat izi buraxırdı. Onunla son görüşüm isə tarixi bir görüş idi. Həm o, həm də mən bu görüşü məhz tarixi görüş adlandırmışdıq. Dövlət sərhədində böyük infrastruktur layihəsinin açılışında birgə iştirakımız İran-Azərbaycan əlaqələrinin nə qədər möhkəm olmasından xəbər verirdi, həm xalqlarımıza, həm bütün dünyaya çox açıq mesaj idi ki, biz dostuq, qardaşıq, biz bundan sonra da birlikdə olacağıq".

Mayın 22-də Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq Baş nazir Əli Əsədovun rəhbərlik etdiyi nümayəndə heyəti İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin, xarici işlər naziri Hüseyn Əmir Abdullahiyanın və digər müşayiət edən şəxslərin helikopter qəzasında faciəli surətdə həlak olmaları ilə əlaqədar Tehran şəhərində keçirilən rəsmi anım mərasimində iştirak ediblər.

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

# Daxili İşlər Nazirliyi işğaldan azad olunan bölgələrdə çalışan şəxslərə müraciət edib

Daxili İşlər Nazirliyi (DİN) işğaldan azad olunan bölgələrdə çalışan şəxslərə müraciət edib.

Bu barədə nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a məlumat verilib.

Bildirilib ki, Böyük Qayıdış proqramının sürətlə reallaşması və işğaldan azad olunan bölgələrin təhlükəsiz vəziyyətə gətirilməsi üçün daxili işlər orqanlarının əməkdaşları fasiləsiz olaraq əzmlə çalışırlar.

"Bölgədə abadlıq, tikinti, quruculuq işlərinə cəlb edilən şəxslərdən xahiş edirik ki, silah-sursat, partlayıcı maddələrə, şübhəli əşyalara rast gəldikdə, aşkarladıqda DİN 102 - Zəng Mərkəzinə, yaxud ərazidə xidmət aparan polis əməkdaşlarına məlumat versinlər.

Hərbi təyinatlı əşyalara mülki şəxslərin toxunması həyat və sağlamlığa təhlükə yaratmaqla yanaşı, həmin əşyaları götürmək, daşımaq, saxlamaq, başqasına vermək cinayət məsuliyyətinə səbəb olur.

Bunları nəzərə alaraq, bir daha bölgədə çalışan şəxsləri ictimai təhlükəsizlik qaydalarına ciddi əməl etməyə çağırırıq", - deyə məlumatda qeyd olunur.

# *İcma:* "Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması müstəvisində regiondan kənar dövlətlərin yersiz müdaxilələri yolverilməzdir"

Lüksemburqun Deputatlar Palatasının sədri Klod Vizler mayın 22-də Ermənistan parlamentinin iclasında qərəzli bəyanatla çıxış edərək Qarabağdan könüllü çıxan ermənilərin "ürəkağrısı" ilə "halına yanıb", Azərbaycanı guya hansısa "itkin düşmüş şəxslərin" siyahısını təqdim etməyə çağırıb. Qərbi Azərbaycan İcması olaraq Vizlerin Azərbaycanı "etnik təmizləmədə" günahlandırmağa cəhd edən və müharibə cinayətlərində, eləcə də insanlıq əleyhinə cinayətlərdə və terrorçuluqda əli olan şəxslərin "azad edilməsini tələb edən" bəyanatını rədd edir və kəskin şəkildə qınayırıq.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Qərbi Azərbaycan İcmasının bəyanatında yer alıb.

Bəyanatda qeyd olunub ki, əslində, etnik təmizləmə siyasətini həyata keçirən Ermənistandır. Vaxtilə otuz il ərzində Azərbaycan torpaqlarını işğal altında saxlamış bu ölkə 300 mindən çox azərbaycanlını 1987-1991-ci illərdə öz ərazisindən zorla çıxarıb. Birinci Qarabağ müharibəsi zamanı itkin düşən 4 mindən çox azərbaycanlının taleyinə isə hələ də aydınlıq gətirilməyib. "Bütün bunlar sübut edir ki, Vizler Azərbaycana qarşı münasibətində qərəzlidir və ayrıseçkilik mövqeyi nümayiş etdirir. Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması, o cümlədən sərhədlərin delimitasiyası istiqamətində atılan son addımlar müstəvisində regiondan kənar dövlətlərin bu cür ziyanlı və yersiz müdaxilələri yolverilməzdir.

İcma Klod Vizleri ədalətli mövqe sərgiləməyə, 300 mindən çox Qərbi azərbaycanlının öz ata-baba yurduna qayıtması ilə bağlı məsələyə reaksiya verməyə çağırır", - deyə bəyanatda qeyd olunub.

# BMU-da tələbə və məzunlar üçün karyera festivalı keçirilib

Bakı Mühəndislik Universitetində (BMU) "CareerFest BEU 2024" adlı karyera festivalı təşkil olunub.



Azərbaycanın bütün ali təhsil ocaqlarının tələbə və məzunları üçün açıq olan festivalda 104 nüfuzlu şirkət tərəfindən 1000-dən artıq aktiv vakansiya və təcrübə proqramları təqdim edilib.

Tədbirdə Dövlət Məşğulluq Agentliyinin, Təhsilin İnkişafı Fondunun, Təhsil Tələbə Krediti Fondunun və digər qurumların rəhbər şəxsləri iştirak ediblər.

Festivalın açılışında çıxış edən BMU-nun rektoru Yaqub Piriyev dövlətin gənclərin məşğulluğunun təminatı istiqamətində həyata keçirdiyi mühüm tədbirlərə diqqət çəkib və Prezident İlham Əliyev tərəfindən bu məqsədlə təsdiq olunmuş dövlət proqramlarının uğurla gerçəkləşdirildiyini bildirib.

Karyera festivalının tələbə və məzunlar üçün önəmini vurğulayan rektor belə tədbirlərin həm mövcud əmək bazarındakı tələbat barədə məlumat əldə etmək, həm də iş, təcrübə imkanları, müxtəlif şirkətlərin insan resursları üzrə mütəxəssisləri ilə birbaşa ünsiyyət qurmaq baxımından mühüm rol oynadığını söyləyib. Açıq hava şəraitində keçirilən, böyük maraq doğuran "CareerFest BEU 2024"ün ənənəvi əmək yarmarkalarından öz xüsusiyyətləri ilə fərqləndiyini qeyd edən rektor festivalın təşkili zamanı müasir gəncliyin öyrənmə maraqlarının nəzərə alındığını bildirib və gəncləri festivalın yaratdığı fürsətlərdən istifadə etməyə, aktiv olmağa səsləyib. Daha sonra sərgidə nümayiş olunan stendlərə baxış keçirlib.

Digər universitetlərdən 2500-dən artıq məzun və tələbənin qeydiyyatdan keçdiyi, ümumilikdə 5000-ə yaxın iştirakçının qatıldığı karyera festivalı çərçivəsində interaktiv fəaliyyətlər, oyunlar, əyləncəli təcrübələr təşkil olunub, tanınmış müğənnilərin ifasında musiqi nömrələri təqdim edilib.

# HDQ-nin "N" saylı hərbi hissəsinin yaradılmasından 32 il ötür

Mayın 22-də Hərbi Dəniz Qüvvələrinin "N" saylı hərbi hissəsinin yaradılmasından 32 il ötür.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hərbi hissə 1992-ci il mayın 22-də yaradılıb və onun formalaşmasında Hərbi Dəniz Qüvvələrinin gəmi və sahil bölmələrinin şəxsi heyəti iştirak edib.

Birinci Qarabağ müharibəsi dövründə hərbi hissənin şəxsi heyəti Laçın, Kəlbəcər, Ağdərə və Ağdam rayonlarının müdafiəsi uğrunda döyüşlərdə iştirak edib, qarşı tərəfin çoxlu sayda canlı qüvvəsini məhv edib, silah və texnikasını sıradan çıxarıb. Hissənin döyüşçüləri aparılan uğurlu əməliyyatlar nəticəsində bir sıra strateji əhəmiyyətli mövqeləri düşməndən azad ediblər. Ümumilikdə şəxsi heyət qarşıya qoyulan döyüş tapşırıqlarının öhdəsindən layiqincə gəlib.

Ötən müddətdə hərbi hissənin hərbi qulluqçuları müxtəlif ölkələrin təlim mərkəzlərində keçirilən kurslarda iştirak edərək yüksək nailiyyətlər qazanıblar. Bundan başqa, 2016-cı ilin aprelində baş vermiş döyüşlərdə hərbi hissənin şəxsi heyəti düşmənin xeyli canlı qüvvəsi və hərbi texnikasını məhv edib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində də HDQ-nin "N" saylı hərbi hissəsi böyük şücaət göstərib. Hərbi hissə torpaqlarımızın düşmən tapdağından azad edilməsində qarşıya qoyulmuş tapşırıqları müvəffəqiyyətlə icra edib.

Azərbaycan Ordusu tərəfindən Qarabağ bölgəsində həyata keçirilən antiterror tədbirləri zamanı hərbi hissənin şəxsi heyəti mühüm strateji əhəmiyyətli obyektlərin mühafizə və müdafiəsini təşkil edib.

Bu gün hərbi hissə müdafiə sənayesinin aparıcı şirkətlərinin istehsalı olan müasir silahlar, döyüş vasitələri və texnikalara malikdir.

# Azərbaycan hərbçiləri Türkiyədə keçirilən kursda iştirak edirlər

Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələrinin bir qrup hərbi qulluqçusu Türkiyənin İzmir şəhərində keçirilən kursda iştirak edir.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, müasir mühəndis avadanlıqlarının xüsusiyyətlərini öyrənən istehkamçılar ərazinin kəşfi, minaaxtaranlar vasitəsilə minaların, partlamamış döyüş sursatlarının aşkarlanaraq zərərsizləşdirilməsi, xüsusilə kustar üsullarla hazırlanmış partlayıcıların təhlükəsizlik tədbirləri nəzərə alınmaqla partlatma və yandırma üsulları, eləcə də digər fəaliyyətlər üzrə praktiki vərdişlərini artırırlar.

Kursun keçirilməsində başlıca məqsəd mühəndis təminatını yerinə yetirən hərbi qulluqçuların peşəkarlıq səviyyəsinin və döyüşə hazırolma vərdişlərinin, eləcə də müasir mühəndis texnikası və avadanlıqlarından səmərəli istifadəetmə üzrə bacarıqlarının təkmilləşdirilməsidir.

# ABŞ və Kanadanın Buxara Yəhudiləri Konqresinin nümayəndə heyəti Füzuli, Şuşa və Laçında olub

Azərbaycana səfəri çərçivəsində ABŞ və Kanadanın Buxara Yəhudiləri Konqresinin nümayəndə heyəti işğaldan azad edilmiş Füzuli, Şuşa və Laçında olub.



Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, Füzulidə Mirzə Uluqbəy adına 1 nömrəli məktəblə tanış olan nümayəndə heyəti daha sonra Şuşa və Laçına yola düşüb.

Nümayəndə heyətinə Şuşa şəhəri haqqında məlumat verilib, aparılan sürətli bərpa və yenidənqurma işləri göstərilib.

Qonaqlar görülən işləri yüksək qiymətləndirərək, işğal dövründə ermənilər tərəfindən Şuşa şəhərində törədilmiş vandalizm aktlarını pisləyiblər. Daha sonra qonaqlar Gəncə qapılarını, "Güllələnmiş heykəllər" abidəsini, Cıdır düzünü, Yuxarı Gövhər ağa məscidini ziyarət ediblər.

Qonaqların növbəti dayanacağı Laçın olub. Həkəri çayı üzərində yaradılmış "Həkəri Balıqçılıq Təsərrüfatı" ilə tanışlıqdan sonra Sus kəndini gəzib, Laçının gözəl təbiətini seyr ediblər.

# Qarabağ və Şərqi Zəngəzur dünyanın ən gözəl məkanlarına çevriləcək

"Qarabağın və Şərqi Zəngəzurun bərpası və yenidən qurulması Prezident İlham Əliyevin qarşıya qoyduğu ən böyük vəzifələrdən biridir. Bu istiqamətdə görülən möhtəşəm işlər öz nəticəsini verməkdədir. İşğaldan azad edilmiş ərazilərin gözəlliyi, rayon və kəndlərimizdəki təbiətin füsunkarlığı aparılan quruculuq işləri ilə bir-birilərini tamamlayır. Gələcəkdə respublikamızın bu regionunun dünyanın ən heyrətamiz məkanlarından biri olacağına ümidləri artırır. Prezident İlham Əliyevin Şərqi Zəngəzurun nəinki Azərbaycanın, Qafqazın və dünyanın ən gözəl yerlərindən biri olacağını bəyan etməsi heç də təsadüfi deyil".



Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev deyib. Deputat bildirib ki, rəsmi nümayəndələrin, ali qonaqların Azərbaycana səfəri zamanı işğaldan azad edilmiş ərazilərə də baş çəkmələri, bu yerlərdə işlərin gedişi ilə tanış olmaları Qarabağ və Şərqi Zəngəzurun qısa vaxtda öz möhtəşəmliyi ilə seçiləcəyini sübut edir: "Regiona ayrılan vəsait və görülən işlər hər bir Azərbaycan vətəndaşını sevindirir. Eləcə də azadlığına qovuşan rayonlara gələn və burada işlərin gedişi ilə tanış olan mötəbər qonaqlar Azərbaycanda həyata keçirilən tədbirlərə və bu ərazilərin yenidən qurulmasına çox böyük önəm verir və yüksək qiymətləndirirlər. Belarus Prezidenti Lukaşenko da Qarabağ və Şərqi Zəngəzurun bərpa işlərinə dəstək verəcəklərini bildirdi və buna görə məmnunluğunu ifadə etdi. Qeyd etdi ki, Belarus sahibkarları bu işdə öz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəklər. Əlbəttə ki, bu, dost köməyi, dost təşəbbüsüdür. Eyni zamanda Azərbaycan Prezidenti İlham Əliyevin dünya ölkələri ilə əməkdaşlığın möhkəmlənməsi sahəsində göstərdiyi səylərinin nəticəsidir".

Komitə sədri onu da bildirib ki, bu gün Qarabağda və Şərqi Zəngəzurda Özbəkistan, Qazaxıstan, Sloveniya, eləcə də Belarusun təşəbbüsü ilə məktəblərin, mədəniyyət ocaqlarının, bağçaların və digər obyektlərin tikilməsinə göstərilən təşəbbüslər dövlətimizin yürütdüyü uğurlu siyasətin parlaq ifadəsidir: "Bunu Azərbaycan xalqı qiymətləndirir. Ölkələrarası əlaqələrin bu istiqamətdə möhkəmləndirilməsi xalqların milli maraqlarına və mənafelərinə uyğundur. Hazırda sürətlə inkişaf edən əzəli torpaqlarımızda bundan sonra da quruculuq tədbirlərinin görülməsi ölkə rəhbərinin diqqətində saxlanılacaq".

Tahir Rzayev yekunda vurğulayıb ki, dövlət başçısının dediyi kimi, Qarabağ və Şərqi Zəngəzur dünyanın ən gözəl, ən yaraşıqlı, ən mədəni məkanlarından birinə çevriləcək və Azərbaycan indi olduğu kimi, bundan sonra da daim dünyanın diqqət mərkəzində olacaq.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

# Azərbaycan-Belarus münasibətlərində yeni mərhələ

## Dost ölkə Qarabağ və Şərqi Zəngəzurdakı quruculuq işlərində də iştirak etmək istəyir

"Azərbaycanla siyasi, iqtisadi, humanitar və digər sahələrdə münasibətləri dərinləşdirən dövlətlərdən biri də Belarusdur. İki dost ölkə arasında siyasi-iqtisadi təmasların dərin tarixi kökləri var".



Bu sözləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov deyib. Deputat bildirib ki, hər iki respublika sovetlər dövründə də yaxın münasibətlərə malik olub, lakin müstəqillik qazanılandan sonra tamamilə yeni dinamik mərhələyə qədəm qoyublar. Son illərdə ikitərəfli əlaqələr daha da inkişaf etməyə başlayaraq iqtisadi dinamika durmadan yüksəlib. Beləliklə, ticarət dövriyyəsi ötən il 440 milyon dollara çatıb. Hazırda tərəflər mal mübadiləsini 500 milyon dollara çatdırmaq istəyirlər.

O qeyd edib ki, Belarus postsovet ölkələri arasında Azərbaycanın dördüncü ən böyük xarici ticarət partnyorudur, lakin bununla belə iqtisadi dövriyyəni artırmaq üçün imkanlar böyükdür: "Mayın 16-da ölkəmizə səfər edən Belarus Prezidenti Aleksandr Lukaşenkonun Prezident İlham Əliyevlə keçirdiyi görüş və müzakirə olunan mühüm məsələlər iki ölkə arasında ticari-iqtisadi əlaqələrin inkişafı üçün yeni mərhələ açır. Belarusun Azərbaycanla iqtisadi əməkdaşlığının yeni gündəliyində əsas ana xətt işğaldan azad olunmuş ərazilərdə quruculuq işlərində və iqtisadi inkişaf proqramlarında yer almaqdır. Aleksandr Lukaşenkonun bəyan etdiyi kimi, uzun müddət səhraya çevrilmiş bu torpaqları dirçəltmək, hansısa yeniliklər etmək lazımdır. Bu, bir daha Belarusun Qarabağ və Şərqi Zəngəzurda xüsusi yer almaq istəyini göstərir".

A.Hüseynov bildirib ki, Belarus kənd təsərrüfatı texnikasının istehsalı, maşın və avadanlıqların tədarükü sahəsində də MDB məkanında liderlərdən biridir, xüsusilə ağır sənaye texnikalarının istehsalında güclü imkanları mövcuddur. Belarusun texnoloji gücü və imkanları işğaldan azad edilmiş ərazilərdə aqrar-sənaye komplekslərinin yaradılmasında mühüm rol oynaya bilər. Ona görə də bu ölkənin həmin bölgədə ən yaxşı sərmayədarlardan biri kimi kənd təsərrüfatı texnikalarının istehsalında yer almasının böyük əhəmiyyəti olar.

Belarus Prezidentinin Füzuli və Şuşaya səfərləri də bu bölgənin iqtisadi imkanları ilə yerindəcə tanış olmaq və şirkətlərinin Qarabağa investisiya yatırması üçün mövcud resurs və xammal ehtiyatlarını qiymətləndirmək baxımından çox vacib idi.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Uğurlu xarici siyasət

## Azərbaycanın yaratdığı reallıqların alternativi yoxdur

"Son vaxtlar Azərbaycanla Ermənistan arasında baş tutan sülh danışıqlarını pozitiv dəyərləndirmək olar. İkitərəfli danışıqlar formatı artıq nəticə verir. Qazax rayonunun 4 kəndinin Azərbaycana geri qaytarılması barədə razılıq və bu ərazilərdə delimitasiya və demarkasiya işlərinin davam etdirilməsi bunun bariz nümunəsidir. Azərbaycanla Ermənistan arasında vasitəçisiz əldə olunan razılaşmalara dünya ictimaiyyəti də şahidlik edir".



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Azər Badamov deyib. Deputat bildirib ki, Qazaxıstanda baş tutan xarici işlər nazirlərinin görüşü də müsbət nəticələnib: "Bu gün Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması üçün fikir ayrılığı yaradan bir çox məsələlər öz həllini tapıb. Belə ki, narahatlıq doğuran Qarabağın təhlükəsizliyi məsələsi Azərbaycan qanunları çərçivəsində artıq həll olunub və fikir ayrılıqları aradan qaldırılıb. Ermənistan Qarabağı Azərbaycanın suveren ərazisi kimi tanıyır. Növbəti mərhələdə isə sülh müqaviləsi ilə bağlı razılığın əldə olunacağı proqnozlaşdırılır".

Deputat hesab edir ki, sülh prosesinin sürətli irəliləməsinə mane olan iki səbəb var: "Birinci səbəb Ermənistandakı ictimai-siyasi mühitin sabit olmamasıdır. Ermənistanda keşiş libaslı revanşist Baqrat Qalstanyan Robert Koçaryanın və Serj Sarkisyanın sifarişi ilə meydana çıxıb. O, dövlət sərhədinin delimitasiya prosesinə narazılığını bildirərək insanları hökumətə qarşı ayağa qaldırmağa çalışır. Xüsusi qeyd etmək lazımdır ki, Qalstanyanın fırıldaqçı və cinayətkar olduğunu hamı bilir. Deyilənlərə görə onun adı heç Baqrat deyil, Vazgendir. O, adını Kanadada cinayət əməllərinə cəlb olunduğuna görə dəyişib. İndi din pərdəsi altında insanları özünə inandırmağa və arxasınca aparmağa çalışır. Lakin hadisələrin gedişatı göstərir ki, Paşinyan yerində möhkəm oturub və baqratlar onu tərpətmək gücündə deyillər".

Azər Badamov sülh prosesini ləngidən ikinci əsas səbəbin xarici amillər olduğunu qeyd edib. Deyib ki, bu gün regionumuzda maraqlarını təmin etmək istəyənlər Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasına mane olurlar. Onlar Ermənistanı silahlandırmaqla revanşizmə ruhlandırırlar. Paşinyan hakimiyyəti iki fərqli stul üstündə oturaraq həm Qərbdən, həm də Rusiyadan maksimum yararlanmağa çalışır. Bu ikitərəfli siyasi kurs isə Azərbaycanla sülh müqaviləsinin imzalanmasına mane olur".

Deputat yekunda vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın yaratdığı reallıqların alternativi yoxdur: "Ona görə də Ermənistana Azərbaycanla münasibətlərini normallaşdıraraq sülh müqaviləsini imzalamaqdan başqa seçim qalmır. Bu, baş tutarsa, 2024-cü il Cənubi Qafqaz tarixində sülh və əməkdaşlıq ili kimi tarixiləşə bilər".

*N.QAFARZADƏ,*
*"Azərbaycan"*

# Amerikalı qonaqlar azad edilən ərazilərdə köç prosesini ləngidən mina təhlükəsi barədə məlumatlandırılıblar

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində (QMKİDK) Böyük Porland İmmiqrant Qarşılama Mərkəzinin (GPİWC) təşkilatçılığı ilə ABŞ-nin Meyn ştatının ölkəmizdə səfərdə olan nümayəndə heyəti ilə görüş keçirilib.

QMKİDK-dan AZƏRTAC-a bildirilib ki, dövlət komitəsi sədrinin müavini Fuad Hüseynov qonaqlara qaçqınlar və məcburi köçkünlərlə iş sahəsində dövlət siyasətinin əsas istiqamətləri, komitənin fəaliyyəti, o cümlədən işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verib.

Qeyd olunub ki, ölkəmizdə ötən əsrin 80-90-cı illərində növbəti dəfə qaçqınlıq və məcburi köçkünlük probleminin yaranması Ermənistanın ərazi iddiaları, işğalçılıq və azərbaycanlılara qarşı deportasiya siyasəti ilə bağlı olub. Nəticədə xalqımız 30 ilə yaxın ciddi çətinliklərlə üzləşib, bir milyona yaxın insan doğma yurdundan didərgin düşüb.

Azərbaycan dövləti qaçqınların və məcburi köçkünlərin problemlərinin həllini özünün prioritetləri sırasına daxil edib. Onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması Prezident İlham Əliyevin də sosial siyasətinin mühüm istiqamətlərindəndir. Birinci xanım Mehriban Əliyeva bu kateqoriyadan olan şəxslərlə bağlı məsələlərə xüsusi diqqət və qayğı göstərir.



İşğala və separatizmə son qoyulması keçmiş məcburi köçkünlərin öz yurd yerlərinə geri dönməsinə imkan yaradıb. Azad edilmiş ərazilərdə işğalçıların törətdikləri dağıntıların nəticələri aradan qaldırılır, genişmiqyaslı bərpa-quruculuq işləri görülür. Böyük qayıdış prosesi başlanıb və uğurla davam etdirilir.

Amerikalı qonaqlara qayıdışın təşkili prosesi, sorğuların aparılması və monitorinq nəticələri, eyni zamanda işğaldan azad edilən ərazilərdə köç prosesini ləngidən əsas problem - mina təhlükəsindən bəhs olunub. Bildirilib ki, Azərbaycan işğaldan azad edilmiş ərazilərin mina və partlamamış hərbi sursatlarla çirkləndirilməsi üzrə dünyada birinci yerdədir və həmin ərazilərin mümkün qədər qısa müddətdə təmizlənməsi istiqamətində işlər davam etdirilir.

Nümayəndə heyətinin rəhbəri, Meyn ştatının senatoru Cill Dyuson verilən məlumatlar üçün təşəkkürünü bildirib. İşğaldan azad edilmiş ərazilərdə aparılan tikinti-bərpa, quruculuq işlərini kütləvi informasiya vasitələrindən izlədiyini bildirib və Prezident İlham Əliyevin qısa müddətdə gördüyü işlərə heyranlıq duyduğunu vurğulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

Xatırladaq ki, amerikalı qonaqların yaxın günlərdə Şuşaya səfəri planlaşdırılır.

# Naxçıvan Ali Məclisinin təcrübəsində yenilik

## Büdcənin icrası ilə bağlı ictimai müzakirələrin keçirilməsi şəffaflıq və hesabatlılıq üçün mühüm addımdır



Mayın 22-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yaz sessiyasının növbəti plenar iclası keçirilib. İclasın gündəliyinə 2 məsələ - "Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Qanun layihəsi (birinci oxunuş) və "Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrası haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi (birinci oxunuş) daxil edilib.

Ali Məclisin sədr müavini Anar İbrahimov gündəlikdə duran birinci məsələ ilə bağlı qeyd edib ki, "Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununun Azərbaycan Respublikasının Seçki Məcəlləsinə, "Media haqqında", "Sərhəd mühafizə orqanları haqqında", "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının qanunlarının müvafiq müddəalarına uyğunlaşdırılmasının aparılması, seçki komissiyalarının fəaliyyətinin şəffaflığının, operativliyinin, peşəkarlığının artırılması məqsədi ilə müvafiq qanunda dəyişikliklər edilməsi barədə qanun layihəsi hazırlanıb.

Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri İsmayıl Qəribli qanun layihəsi ilə bağlı məlumat verib və təmsil etdiyi komitənin rəyini bildirib. Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Əjdər Əliyev xatırladıb ki, "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununa sonuncu əlavə və dəyişiklik 2015-ci ildə edilib. Azərbaycan Respublikasında seçki prosesini tənzimləyən və əlaqəli normativ hüquqi aktlarda edilmiş əlavə və dəyişikliklər müvafiq qanuna əlavə və dəyişikliklər olunmasını zəruri edir. Bu məqsədlə qanuna bir sıra əlavə və dəyişikliklərin həyata keçirilməsi təklif edilib. Müvafiq məsələ səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

"Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrası haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsinin birinci oxunuşda müzakirəsi zamanı Ali Məclisin sədr müavini qeyd edib ki, muxtar respublikanın Konstitusiyasına əsasən Naxçıvanın Nazirlər Kabineti muxtar respublikanın büdcəsini icra edir. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun müvafiq maddələrinə uyğun olaraq 2024-cü ildə "Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrası haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi Nazirlər Kabineti tərəfindən Ali Məclisə təqdim olunub.

Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri İsa İsayev qanun layihəsi barədə məlumat verib və təmsil etdiyi komitənin rəyini diqqətə çatdırıb. Azərbaycan Respublikası Hesablama Palatasının auditoru, Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin rəisi Hafiz İsmayılbəyli Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrasının təhlilinə dair analitik fəaliyyət üzrə auditor hesabatını diqqətə çatdırıb. Qanun layihəsi barədə Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən Həsən İsmayılov məlumat verib. Gündəlikdə duran məsələnin müzakirəsi zamanı deputatlardan Hüseyn Bağırsoylu, Ehtimad Məmmədov, Elman Cəfərli və Əmir Babayev sual, fikir və təkliflərini səsləndiriblər.

Anar İbrahimov qeyd edib ki, Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrası ilə bağlı müzakirələrin keçirilməsi həm forma, həm də mahiyyət etibarilə Ali Məclisin təcrübəsində bir ilkdir. İclasda Hesablama Palatasının auditor hesabatının təqdim olunması büdcə inzibatçılığı, bütövlükdə şəffaflıq və hesabatlılıq üçün mühüm addımdır.

İclasda "Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu səsə qoyularaq birinci oxunuşda qəbul olunub. Bununla da Ali Məclisin iclası başa çatıb.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

# YAP: "Fransanın Yeni Azərbaycan Partiyasına qarşı ittihamları absurddur"

"Fransanın Xarici rəqəmsal müdaxilələrdən müdafiə üzrə Dövlət xidmətinin (VİGİNUM) Yeni Kaledoniya hadisələri ilə əlaqədar Yeni Azərbaycan Partiyasını sosial şəbəkələrdə saxta məlumatlar yaymaqda və sistemli qaralama kampaniyası aparmaqda ittiham etməsi absurd və qərəzli yanaşmadır".

AZƏRTAC xəbər verir ki, bu fikirləri YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərli bildirib.

Azərbaycanın söz, fikir və ifadə azadlığının təmin edildiyi demokratik ölkə olduğunu vurğulayan N.Qələndərli deyib: "Ölkənin aparıcı siyasi qüvvəsi - lider partiyası olan Yeni Azərbaycan Partiyasının fəaliyyət prinsiplərindən biri siyasi plüralizmdir. Yəni partiya üzvləri ictimai-siyasi məsələlərlə əlaqədar öz fikirlərini kütləvi informasiya vasitələrində və sosial mediada sərbəst ifadə edə, ölkə daxilində və beynəlxalq müstəvidə cərəyan edən istənilən hadisə və proseslərə münasibət bildirə bilərlər".

Şöbə müdiri diqqətə çatdırıb ki, bu gün sosial medianın müxtəlif seqmentlərinə, xüsusilə də "X" və feysbuk platformalarına nəzər saldıqda Fransanın ondan 17 min kilometr uzaqda yerləşən Yeni Kaledoniyada mütərəqqi dünyanın sivil dəyərlərinə zidd olaraq həyata keçirdiyi neokolonialist siyasətinin müxtəlif ölkələrdən olan insanların tənqidinə məruz qaldığını, ciddi etiraz və narazılıqlarla qarşılandığını görmək mümkündür.

N.Qələndərli bildirib ki, Azərbaycan vətəndaşlarının, o cümlədən 700 mindən artıq insanı öz sıralarında birləşdirən Yeni Azərbaycan Partiyasının üzvlərinin bu məsələ ilə əlaqədar fərdi münasibət bildirmələri də təbiidir: "Bu, Fransa rəsmilərinin də siyasi leksikonunu "bəzəyən" demokratik dəyərlərə, o cümlədən söz və fikir azadlığına tamamilə uyğundur və hər hansı bir sistemli qara piar kampaniyasının tərkib hissəsi kimi qiymətləndirilə bilməz".

YAP-ın rəsmi sosial şəbəkə hesablarında məsələ ilə əlaqədar paylaşımlar edilməsi iddiasına münasibət bildirən şöbə müdiri qeyd edib: "Bu, aşkar dezinformasiyadır və həqiqətə əsla uyğun deyil. Yeni Azərbaycan Partiyasının rəsmi sosial media hesablarında, iddia edildiyi kimi, Yeni Kaledoniya hadisələri ilə əlaqədar "separat xarakterli xəbərlər" və ya hər hansı bir saxta məlumat paylaşılmayıb. Bu saxta iddianı - uydurma ittihamı tirajlayan bəzi media nümayəndələrini diqqətli olmağa, media və sosial şəbəkələrdə xəbər paylaşanda jurnalistikanın dəqiqlik prinsipini əsas götürməyə və dezinformasiya yaymamağa çağırırıq".

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Kanaklar müstəqillik tələbində israrlıdırlar

### Paris isə dünyanın gözü qarşısında Yeni Kaledoniya xalqının azadlıq hüququnu ayaqlar altına atır

Özünü guya humanist, insani dəyərlərə əhəmiyyət verən ölkə kimi təqdim edən Fransa hazırda Yeni Kaledoniyada kanak xalqına tutduğu divanla əsl çirkin simasını nümayiş etdirir.





Belə ki, ordunu adaya yeridən Fransa hökuməti müstəqillik tələb edən əliyalın xalqın bu istəyini qanla boğmağa çalışır. Artıq 10-a yaxın kanak öldürülüb, 200-ə yaxın insan yaralanıb, xeyli sayda azadlıq mücadiləçisi qanunsuz həbs edilib.

Paris Fransadan kilometrlərlə uzaq məsafədə yerləşən Yeni Kaledoniyada həyata keçirdiyi müstəmləkə və zorakılıq əməllərini ört-basdır etmək üçün burada sosial şəbəkələrin fəaliyyətini də dayandırıb.

Azərbaycana qarşı olmayan erməni problemləri ilə bağlı qarayaxma kampaniyası başladan "müstəqil" fransız mediası isə Yeni Kaledoniyada insan haqlarının ayaqlar altına atılmasına göz yumur. Fransanın qanlı əməllərini manşetlərinə daşımır, tirajlamır, hay-haray salmır. Bununla yüz illiklər boyu olduğu kimi, XXI əsrdə də ölkələrinin kolonial siyasət yürütməsinə dəstək verdiklərini sübut edirlər.

Digər tərəfdən də Makron hakimiyyəti Yeni Kaledoniyada baş verən haqlı etirazları dəyərləndirmək, adada yürütdüyü müstəmləkə siyasətindən əl çəkmək əvəzinə, bütün baş verənlərə görə Azərbaycanı ittiham edərək ölkəmizə qarşı absurd iddialar səsləndirir, iftiralar atır.

#### 50 illik əsarətdən qurtuluş istəyi

Fransa düz 50 ildir ki, Yeni Kaledoniyada müstəqillik və azadlıq istəyən xalqa bunun üçün heç cür imkan vermir, onların referendum keçirməsinə belə maneələr törədir.

Uzun illərdir ki, Fransa hökuməti minlərlə miqrantı qanunsuz yolla Yeni Kaledoniyaya yerləşdirərək yerli sakin olan kanakları assimilyasiya edir və bu yolla adanı müstəmləkəsi altında saxlamağa çalışır. Azadlıq istəyən kanakları azlığa çevirmək üçün Fransa Yeni Kaledoniya Konqresinin və xalqının iradəsinə zidd olaraq, bu ölkənin seçki qanunvericiliyini dəyişmək qərarına gəlib. Fransa hökuməti miqrantlara səs hüququ verməklə ölkənin əsarətdə saxlanılmasına dair referendumda üstünlük qazanmağa çalışır.

Paris buna oxşar iyrənc siyasətini işğal illərində Qarabağ və Şərqi Zəngəzurda da həyata keçirmişdi. Məhz Fransanın köməyi ilə Suriya, Livan və digər ölkələrdən ermənilər qanunsuz olaraq Azərbaycan ərazilərinə köçürülmüş, onların yerli sakin kimi qələmə verilməsinə çalışılmışdı. Laçın rayonu, eləcə də onun Zabux və Sus kəndləri də işğal dövründə qeyri-qanuni məskunlaşma siyasətinə məruz qalan ərazilərimizdən olmuşdu.

Hələ 2022-ci ildə Prezident İlham Əliyev müsahibələrinin birində Laçın şəhərindən, Zabux və Sus kəndlərindən qanunsuz məskunlaşmış insanların çıxarılmalı olduğunu qətiyyətlə vurğulayaraq, onların orada qalmasının hərbi cinayət olduğunu bəyan etmişdi: "Çünki o, Cenevrə konvensiyalarının qaydalarına ziddir. İşğalçı ölkə işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma apara bilməz. Bu, hərbi cinayətdir".

Afrikadakı müstəmləkələrindən bir-bir qovulan Fransanın Cənubi Qafqazı öz koloniyasına çevirmək üçün Ermənistan üzərindən yürütdüyü siyasət də hər kəsə məlumdur. İşğal illərində münaqişənin danışıqlar yolu ilə çözülməsi üçün ATƏT-in keçmiş Minsk qrupu çərçivəsində 25 illik missiyası dövründə həmsədr ölkə kimi heç bir əməli addım atmayan Fransa, Vətən müharibəsindən sonra da iki ölkə arasında sülhə nail olunmaması üçün siyasi təxribatlar törədir, Ermənistana hərbi dəstək verərək onu revanşa qızışdırırdı.

Lakin Bakının yürütdüyü qətiyyətli siyasət nəticəsində həm Fransanın Qarabağda separatizmə uzanan əli sındırıldı, həm də o, Cənubi Qafqazdan qovuldu.

#### Haqlı mübarizə

Buna görə də Fransa əlində olan son koloniyaları, eləcə də Yeni Kaledoniyanı itirməmək üçün bütün qanunsuz vasitələrə baş vurur. Paris adada seçki kütləsinin sayının qanunsuz genişləndirilməsinə çalışır və kanakların dəfələrlə etdikləri xəbərdarlıqlara, dialoq çağırışlarına baxmayaraq, hökumət layihəni artıq Fransa Parlamentinin hər iki palatasında qəbul etdirib və hazırda Yeni Kaledoniya xalqının boynuna son boyunduruq ilgəyini atmaq istəyir.

Lakin kanaklar əsarətdən, Fransa zülmündən qurtulmaq üçün ayağa qalxaraq etirazlar edirlər. Onlar Yeni Kaledoniyaya aid qərarların kaledoniyalıların iştirakı olmadan qəbul edilməsinə əsla imkan verməyəcəklərini bildirilər. Bir sözlə, haqq səsini ucaldan kanak xalqı müstəqillik tələblərində israrlı olduğunu, sonadək mübarizə apararaq, dirənc göstərərək, azadlıqlarına nail olacağını nümayiş etdirir.

Yeni Kaledoniyanın müstəqilliyə qovuşması beynəlxalq sənədlərə, xüsusən BMT-nin xalqların öz müqəddəratını təyinetmə hüququ ilə bağlı 1514 saylı qətnaməsinə tamamilə uyğun öhdəlikdir.

Qeyd edək ki, XXI əsrdə hələ də müstəmləkəçilikdən əziyyət çəkən dünyanın müxtəlif bölgələrində yerləşən xalqların azadlıq uğrunda apardıqları mübarizəyə xüsusi dəstək verən Bakı Təşəbbüs Qrupu Yeni Kaledoniyada da Makron hakimiyyətinin zülmünün dünyaya çatdırılmasına öndərlik edir.

Bakı Təşəbbüs Qrupu Yeni Kaledoniyada kanakların həbs olunması və mülki şəxslərə qarşı zorakılığa dair bu il mayın 14-də bəyanat verib. Mayın 16-da BTQ və Fransanın son koloniyaları olan Kanaki (Yeni Kaledoniya), Maohi Nui (Fransız Polineziyası), Fransız Qvianası, Martinik, Qvadelupa və Korsikadakı müstəqillik uğrunda mübarizə aparan 14 siyasi hərəkat birgə bəyanat yayıb.

#### Absurd iddialar

Bütün bu gerçəklərin fonunda Fransanın Yeni Kaledoniyada baş verənlərə görə Azərbaycanın ünvanına absurd iddialar səsləndirməsi, ölkəmizi iğtişaşlara "müdaxilə etməkdə" ittiham etməsi isə qəbuledilməzdir.

Azərbaycan Xarici İşlər Nazirliyi də Fransanın daxili işlər naziri Jerald Darmanenin verdiyi açıqlamaya görə onun üzr istəməli olduğunu bildirib. Göründüyü kimi, Makron hakimiyyəti kanak xalqına qarşı törətdiyi faciələrdən diqqətləri yayındırmaq üçün manipulyasiyalara əl atır, günahını başqasının boynuna atır.

Ancaq özünü "insan haqlarının keşikçisi" adlandıran müstəmləkəçi Fransa bu mənfur niyyətinə nail ola bilməyəcək və kanaklara qarşı törətdiyi cinayət əməllərinə görə beynəlxalq ədalət qarşısında mütləq sorğulanacaqdır.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Bir çox cinayətin altında Fransanın qanlı imzası var

### İndi də hədəf Yeni Kaledoniyada kanakların səsini və milli kimliyini boğmaqdır

"Son dövrlər Fransa rəsmiləri, xüsusən də bu ölkənin daxili işlər və dənizaşırı ərazilər naziri Jerald Darmanen Yeni Kaledoniyada törətdiyi vəhşiliklərə haqq qazandıraraq, toqquşmalara görə məsuliyyəti xarici qüvvələr, o cümlədən Azərbaycanın üzərinə atmağa cəhd göstərməkdə, xüsusən ölkəmizi separatizmə dəstək verməkdə təqsirləndirməsi qəbuledilməzdir.



Azərbaycan Xarici İşlər Nazirliyinin də ifadə etdiyi kimi, biz bu böhtanları rədd edirik və təxribatçı Darmanenə xatırlatmaq istəyirik ki, Azərbaycan XX və XXI əsrlərdə separatizmə qarşı ən effektiv mübarizəni ortaya qoymuş, Cənubi Qafqazda artıq möhkəmlənmiş və Fransanın dəstəyi ilə 30 il mövcudiyyətini qorumuş separatizm ocağının kökünü qazımış dövlətdir".

Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib. Deputat bildirib ki, Fransa uzun müddət Cənubi Qafqazda separatizmə dəstək verib, o cümlədən Qarabağda 2023-cü ilə qədər separatçıların həyata keçirdiyi bir çox cinayətin altında məhz bu dövlətin qanlı imzası var. 9 dekabr 1948-ci il Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında konvensiyaya əsasən, hər hansı milli, etnik, irqi və ya dini qrupun üzvlərinin qismən və ya qismən məhv etmək məqsədilə öldürülməsi, bədən xəsarəti və ya ruhi zərərvurma, tamamilə və ya qismən fiziki məhv edilməsi üçün nəzərdə tutulmuş bu cür yaşayış şəraitinin hər hansı bir qrupu üçün qəsdən yaradılması soyqırımı hesab edilir.

"Bu gün Fransanın kanaklara qarşı siyasəti məhz qeyd olunan cinayətlərdə ehtiva olunur və bu ölkənin təcavüzkar mahiyyətini ortaya qoyur. Daha dəqiq desək, Fransanın Yeni Kaledoniyada həyata keçirdiyi irticaçı tədbirlər, baş verən iğtişaşlara cavab olaraq adaya fransız ordusunun yeridilməsi, kütləvi qətllər, xeyli sayda yaralının olması, qanunsuz həbslər, qeyri-adekvat komendant saatı, həmçinin Fransa təhlükəsizlik qüvvələrinin yerli kanak xalqına qarşı məhz fransız olmadıqları üçün həyata keçirdikləri zorakılıqla müşahidə olunan təqib birmənalı şəkildə soyqırımdır. Amma çox təəssüflər olsun ki, BMT başda olmaqla, bir sıra təşkilatlar, o cümlədən insan haqlarının müdafiəsi istiqamətində formalaşdırılmış, əslində, isə kollektiv Qərbin təzyiq aləti kimi istifadə etdiyi təsisatlar hələ də bu prosesdə susur", - deyə deputat vurğulayıb.

B.Məhərrəmov deyib ki, Prezident İlham Əliyev əvvəlcə Qoşulmama Hərəkatının rəhbəri, hazırda isə müasir dövrün yeni reallıq yaradıcılarından biri kimi bu prosesin önündədir. Hər kəs anlamalıdır ki, Azərbaycan hər bir dövlətin ərazi bütövlüyünə və suverenliyinə hörmətlə yanaşmaqla bərabər, həm də ümumbəşəri dəyərlərin qorunması istiqamətində səylərini bundan sonra da davam etdirəcək. "İndiki məqamda bu çox vacibdir, çünki Fransa hökuməti bir qayda olaraq öz cinayətlərini, o cümlədən Korsika, Dənizaşırı ərazilər, Yeni Kaledoniyada törətdiyi vəhşilikləri dünya ictimaiyyətindən gizlətmək üçün ciddi informasiya blokadası tətbiq etməklə vəziyyəti daha da ağırlaşdırır. Adada xüsusilə populyar olan və etirazçıların əsas silahına çevrilmiş tiktok sosial şəbəkəsinə çıxış bloklanıb, habelə digər vəhşilik və qırğınların gizli qalması üçün komendant saatının şərti kimi heç bir lüzum olmadan bütövlükdə internetin kəsilməsinə hazırlıq gedir. Bununla belə, BMT-nin Dekolonizasiya üzrə Xüsusi Komitəsinin ildə bir dəfə təşkil edilən regional tədbirində hazırda iştirak edən Yeni Kaledoniyanın BMT-dəki nümayəndəsi törədilən qırğınlar barədə üzv ölkələri məlumatlandıraraq Fransanı ifşa edib", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, Fransa hökuməti artıq uzun illərdir Korsikadan dənizaşırı ərazilərinə qədər bütün müstəmləkələrində istilanı əbədiləşdirmək üçün cinayətkarcasına məcburi assimilyasiya tədbirləri həyata keçirir. Xüsusən kanakların tam assimilə olunaraq sıradan çıxması üçün kənardan minlərlə miqrant adaya qanunsuz yolla yerləşdirilərək yerli sakinlər sıxışdırılır. Həm də işğalı davam etdirmək üçün miqrantlara səs hüququ verilərək Yeni Kaledoniya Konqresinin və xalqının iradəsinə zidd olaraq bu ölkənin seçki qanunvericiliyini dəyişmək planının icrasına başlanılıb. Fransa hökuməti miqrantlara səs hüququ verməklə, əslində, müstəqillik tərəfdarı olan kanakların səsini və milli kimliyini boğmağı hədəfləyir. Bir sözlə, Paris Yeni Kaledoniyada nümayiş etdirir ki, Fransa demokratik yola deyil, zor gücünə üstünlük verir və bu ölkənin demokratiya, insan haqları adına bəyanatları yalnız və yalnız göstəriş xarakteri daşıyır.

O diqqətə çatdırıb ki, əslində, Fransanın nə demokratiyaya, nə insan haqlarına, nə də ülvi, ümumbəşəri dəyərlərə hörməti var: "Makron rejimi bu davranışları ilə artıq qlobal dünyada bəşəri dəyərlər adına təhdid yaratmaqdadır. Bu gün ümumbəşəri dəyərlərə sadiq olan, həmin dəyərlərə hörmətlə yanaşan bütün beynəlxalq subyektlər artıq Fransanı dayandırmağa qlobal vəzifə kimi baxmalıdır. Təəssüflər olsun ki, uzun bir dövr ərzində Fransanın müstəmləkə siyasətinə, törətdiyi çoxsaylı qırğınlara "dur" deyən, bu cinayət əməllərinə layiqli qiymət verən olmayıb. Yalnız Qoşulmama Hərəkatının rəhbəri qismində Prezident İlham Əliyev Əlcəzairdə Ərəb Dövlətləri Liqasının konfransında ilk dəfə olaraq Fransanın müstəmləkə cinayətlərini ifşa edərək, bu ölkəni üzr istəməyə və aidiyyəti şəkildə törətdiyi əməllərin nəticələrinin aradan qaldırılması istiqamətində fəaliyyətə çağırıb. Fransa isə bu reallıqları qəbul etməkdənsə, yenidən radikallaşaraq istər öz müstəmləkələrində, istərsə də yeni maraq dairəsinə daxil olmuş Cənubi Qafqaz kimi regionlarda davamlı şəkildə təxribat fəaliyyətlərini intensivləşdirib".

Deputat vurğulayıb ki, Azərbaycanda milli iradə və suveren milli maraqları ehtiva edən siyasi kurs bu prosesdə səssiz qalmayıb, Parisin Cənubi Qafqazdakı təxribatlarının qarşısı alınıb, Fransa istər siyasi, istər diplomatik aspektdən məğlub edilərək regiondan qovulub, habelə casus şəbəkəsi ifşa edilərək gələcək təxribat imkanları minumuma endirilib. Bu gün Fransız rəsmilərini, o cümlədən bu ölkənin daxili işlər nazirini sərsəm bəyanatlar verməyə məcbur edən də məhz bu siyasi iflasdır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Fransa müstəmləkəsində olan xalqları əzir

Zaman-zaman imperiyalar ərazicə özündən kiçik olan dövlətləri əsarəti altında saxlayaraq, həmin ölkələrin sərvətlərini talayıb, xalqlarına zülm ediblər.

Belə yaramaz, insanlığa zidd olan əməllərinə haqq qazandıraraq özlərini həmin xalqlardan "üstün" olduqlarını düşünüblər. Yaşadığımız bugünkü dünyamızı nə qədər müasir adlandırsaq da, təəssüflər ki, bəzi ölkələr hələ də müstəmləkəçilik siyasətindən əl çəkmirlər. Yenə də köhnə düşüncə ilə yaşayırlar.

Müstəmləkəçilik siyasətini günümüzdə də davam etdirən ölkələrin başında isə Fransa dayanır. Əlində olan bütün vasitələrlə başqa ölkələrin daxili işlərinə qarışan Paris hələ də milyonlarla insanın yaşadığı ölkələrdə öz kolonializmini davam etdirir. Məqsədinə çatmaq üçün bütün qeyri-insani zorakı vasitələrə əl atır.

Tarixdə heç vaxt olmayan "erməni soyqırımı" yalanlarını müdafiə edən, separatizmə dəstək verən Fransa özü bu gün onlarla xalqın müstəqillik arzusunun qarşısını güc yolu ilə alır. Yüz ildən artıqdır ki, Afrikada kök salmış Paris bu bölgədə yaşayan xalqlara qarşı dəhşətli soyqırımları, qətliamlar törədərək tarixdən utanıb ar etmədən öldürdükləri insanların sümüklərini muzeylərində belə nümayiş etdirir. Hansı ki, fransızlar tərəfindən amansızlıqla öldürülən bu insanların da müstəqil olmaq haqları var. Bu haqqı onların əlindən kimsə ala bilməz. Həmin xalqların müstəqilliyə nail olmaq arzuları beynəlxalq sənədlərə, xüsusən BMT-nin xalqların öz müqəddəratını təyinetmə hüququ ilə bağlı 1514 saylı qətnaməsinə uyğundur.

Fransa tarixən dünyada müstəmləkəçi ölkə kimi tanınıb. Tarixi məlumatlara görə, bu kolonist ölkə təkcə Əlcəzairdə XVII əsrdən başlayaraq XIX əsrin 30-cu illərinədək 4 milyon nəfərdən çox, 1890-cı ildə isə 2 milyon 500 min insanı qətlə yetirib. Yüz illər boyunca öz riyakarlığı, militarist siyasəti və qeyri-səmimiliyi ilə dünyada tanınan Fransa bu gün də nəyin bahasına olursa olsun, müstəmləkəçilik siyasətini davam etdirməyə çalışır. Təxminən 200 ildən artıq müddətdə başqa-başqa ölkələri, xüsusilə Şimali Afrikanı işğal altında saxlayan, xalqlara zülm edən, onları soyqırımına məruz qoyan Fransanın bu gün demokratiyadan, haqq-ədalətdən danışması absurddur.



Fransanın zaman-zaman törətdiyi soyqırımları cəzasız qaldığından o, müstəqillik uğrunda mübarizə aparan Afrika ölkələrində də nahaq qanlar tökərək, cinayətlərini davam etdirib. Ən utancverici hal ondan ibarətdir ki, Benin, Burkina Faso, Qvineya, Fil Dişi Sahili, Mali, Niger, Seneqal, Toqo, Kamerun, Mərkəzi Afrika Respublikası, Çad, Konqo, Ekvatorial Qvineya və Qabon kimi ölkələr hər il Fransaya 480 milyard dollar dəyərində müstəmləkə vergisi ödəyir.

Demokratiyadan dəm vuran Paris insan hüquq və azadlıqlarını təmin etmək istəmir. Bir müddət əvvəl Korsika adı ilə bağlı baş verənlər bunları əyani təsdiq edir. Yaxşı xatırlayırıq ki, Bastia inzibati məhkəməsi yerli parlamentdə müzakirələrin Korsika və fransız dilləri olduğunu bildirən prosedur qaydalarının müddəalarını ləğv etməsi, Korsikanın yerli parlamentində Korsika dilinin qadağan olunması ada sakinlərini yenidən qəzəbləndirmişdi. Bu bir gerçəklikdir ki, Fransa hələ də özünü müstəmləkəçi güc kimi aparır və əsarətdə saxladığı ölkələrdən öz milli maraqları üçün istifadə edir.

Yüz illərlə Fransanın müstəmləkəçilik siyasətinin qurbanı olan Yeni Kaledoniyanın paytaxtı Noumea şəhərində iğtişaşların hələ də davam etməsi, etirazçıların Fransa polisi tərəfindən qətlə yetirilməsi, 140 nəfərin həbs olunması insanların haqq səslərinin məcburi susdurulmasıdır. Etirazların başlıca səbəbi yerli seçkilərdə elektoratın genişləndirilməsi ilə bağlı Fransanın konstitusiyasında nəzərdə tutulan qanun layihəsinə əlavələrin edilməsidir. Yeni Kaledoniya Fransanın Sakit okeanda yerləşən xüsusi inzibati-ərazi qurumu, müstəmləkəsidir. 2020-ci ildə Yeni Kaledoniya öz müstəqilliyini elan etmək üçün növbəti referendum keçirsə də, hələ bəzi Afrika xalqlarını qul kimi istismar edən Fransa seçicilərin azadlıq naminə göstərdikləri ümumi rəyini tanımayıb.

Müstəmləkəçiliyə qarşı mübarizə aparan xalqın yanında olduğunu rəsmi bəyanatı ilə bildirən Bakı Təşəbbüs Qrupu Fransa polisinin dinc etirazçılara, mülkü şəxslərə qarşı zorakılığını yolverilməz adlandırıb. Qrup Sakit Okean regionunda fəaliyyət göstərən 30-a yaxın təşkilatın Fransa hökumətinin Yeni Kaledoniyada dinc əhaliyə qarşı törətdiyi vəhşiliklərə etiraz olaraq yaydığı birgə bəyanatda da Fransanın dekolonizasiya prosesini idarə etmək iqtidarında olmadığını vurğulayıb. Eyni zamanda BMT-dən, eləcə də Sakit okean hövzəsi ölkələrinin rəhbərlərindən prosesə müdaxilə tələb olunub. Yerli xalqların öz müqəddəratını təyinetmə hüququnu təhlükə altına alan və ərazinin gələcək statusu ilə bağlı davam edən dinc dialoqu təhdid edən yerli seçki qanunvericiliyinə təklif edilən konstitusiya dəyişikliyinin geri götürülməsi ilə bağlı çağırışlar səsləndirilib.

Texnologiyaların inkişaf etdiyi XXI əsrdə xalqları təzyiq altında saxlamaq, qul kimi işlətmək, istismar etmək, təbii sərvətlərini talamaq yalnız Fransanın Prezidenti Emmanuel Makron kimilərə xas olan zülmkarlıqdır. Azadlıq istəyən xalqın müstəqillik uğrundakı mübarizəsinin səbəblərini kənarda axtaran rəsmi Parisin Yeni Kaledoniyada baş verən hadisələrdə Azərbaycanın adını hallandırması, beynəlxalq ictimaiyyətdə çaşqınlıq yaratmaq məqsədi güdür. Zorakılıq əməllərini Azərbaycanın kölgəsində gizlətməyə çalışan Makron reallığı görmək istəmir. Unudur ki, bu gün Azərbaycan nəinki Cənubi Qafqazda, eləcə də, dünyanın müxtəlif yerlərində baş verən münaqişələrin həllinin məhz danışıqlar vasitəsilə mümkünlüyünü siyasəti, təcrübəsi ilə təsdiqləyən güclü bir dövlətdir.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# İŞİMİZ, GÜZƏRANIMIZ

**Məlum olduğu kimi, Prezident İlham Əliyevin xarici siyasətinin əsas istiqamətlərindən biri türk dünyasını bir araya gətirməkdir. Bu məqsədlə dövlətimizin başçısı türk dövlətləri ilə iqtisadi, siyasi, mədəni əlaqələrin genişlənməsi üçün ciddi səy göstərir, ardıcıl tədbirlər görür. Azərbaycanın apardığı bu siyasət öz uğurlu nəticələrini verir.**



# Uzaq Özbəkistan yaxın olur

## İlham Əliyevin Türk Dövlətləri Təşkilatını gücləndirmək siyasəti reallığa çevrilir

Dünya siyasətində önəmli yer tutacaq Türk Dövlətləri Təşkilatının yaradılmasında ən çox zəhməti olan da Prezident İlham Əliyevdir. Təsadüfi deyil ki, qardaş Türkiyə də dövlətimizin başçısının birləşdirici missiyasını yüksək qiymətləndirir və etiraf edir ki, İlham Əliyevin Orta Asiya türk ölkələrinin dövlət başçıları ilə olan dostluq əlaqələri bu təşkilatın ərsəyə gəlməsində önəmli rol oynayır.

Özbəkistan tarixi keçmişinə və iqtisadi imkanlarına görə Orta Asiyadakı türk dövlətləri arasında öncül yer tutur. Bu regionda ilk böyük türk imperatorluğu da Özbəkistanda təşəkkül tapıb. Qardaş ölkə türk dünyasında dövlətçilik ənənələrinin formalaşmasında digər türk toplumlara örnək olmuşdur.

Azərbaycanla Özbəkistan arasında əlaqələrin tarixi qədimdir. İki xalq arasında iqtisadi və mədəni əlaqələrin kökü qədim əsrlərə gedib çıxır. Nisbətən yeni tarixdə bu əlaqələr Moskvada qısqanclıqla qarşılansa da, inkişafdan qalmayıb. Xüsusilə Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə iki respublika arasında qardaşlıq və dostluq münasibətləri yüksək səviyyədə olub.

Burada bir tarixi məqamı da xatırlatmaq istərdik. Müstəqilliyimizin ilk illərində keçmiş sovetlər birliyindən ayrılan bəzi respublikaların dövlət başçıları Ermənistanın xətrinə dəyməmək üçün onu işğalçı adlandırmırdı. Belə hal erməniləri üstümüzə daha da "ayaq açmağa" sövq edirdi. Bu "ənənə"ni ilk dəfə Özbəkistanın mərhum prezidenti İslam Kərimov qırdı. O, Bakıda səfərdə olarkən Heydər Əliyevlə görüşdə Ermənistanı işğalçı dövlət adlandırdı və zəbt etdiyi Azərbaycan torpağından çıxmalı olduğunu bildirdi. Onun bu siyasi bəyanatı həmin dövrdə ölkəmiz üçün böyük əhəmiyyət daşıyırdı.

Bu gün də həmin əlaqələr Prezident İlham Əliyev və Özbəkistanın dövlət başçısı Şavkat Mirziyoyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçıları bu münasibətləri genişləndirmək üçün tez-tez qarşılıqlı səfərlər edir, iqtisadi, siyasi və mədəni əlaqələri əhatə edən bir çox mühüm sənədlər imzalayırlar.

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev mayın 21-də Özbəkistan Respublikasının investisiya, sənaye və ticarət naziri, Hökumətlərarası Komissiyanın həmsədri Laziz Küdrafovu qəbul etmişdir. Dövlətimizin başçısı görüşdə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin rəhbərliyi ilə qardaş ölkədə gedən inkişaf proseslərini maraqla izlədiyini bildirərək iki ölkə arasında olan münasibətləri yüksək qiymətləndirmişdir.

Mayın 22-də isə qardaş ölkə ilə olan iqtisadi əlaqələrə töhfə verəcək Azərbaycan-Özbəkistan Regionlararası Forum keçirilmişdir. Forumda iqtisadiyyat naziri Mikayıl Cabbarov bildirdi ki, iki ölkə arasında iqtisadi-ticarət əlaqələri sürətlə inkişaf edir. Qeyd edildi ki, nizamnamə kapitalı 500 milyon dollar olan Azərbaycan-Özbəkistan İnvestisiya Şirkətinin fəaliyyəti hər iki ölkədə, həmçinin üçüncü ölkələrdə investisiya layihələrini reallaşdırmaq üçün yaradılıb. Eyni zamanda elan olundu ki, qardaş ölkə ilə enerji, kənd təsərrüfatı, turizm, kiçik və orta sahibkarlıq, səhiyyə və yükdaşıma sektorlarında əməkdaşlığı genişləndirmək üçün gündəlik hazırlanıb.

M.Cabbarov həmçinin iki ölkənin regionları arasında əlaqələrin genişlənməsinin tərəflərə qarşılıqlı fayda verəcəyini söylədi. Bununla yanaşı, qonaqlara işgüzar əlaqələri genişləndirmək üçün Azərbaycanın investisiya potensialı, sərmayədarlar üçün yaradılan imkanlar, işğaldan azad edilən ərazilərdə nəqliyyat, rabitə və infrastruktur layihələri, habelə Özbəkistanın dövlət nümayəndələrinə və biznes dairələri təmsil edən sahibkarlara ölkəmizin işgüzar mühiti, investisiya imkanları, iki ölkə arasında potensial birgə fəaliyyət sahələri barədə ətraflı məlumat verildi.

Prezident İlham Əliyev bu il fevralın 14-də keçirilmiş andiçmə mərasimində yeni dünya düzənində türk dünyasının beynəlxalq əhəmiyyəti, hansı siyasi orbitdə ölkəmizin yer alacağı barədə demişdir: "Əgər kimsə hesab edir ki, biz başqa yerdə ailə axtarmalıyıq, deyə bilərəm ki, bizi heç yerdə gözləmirlər və bunu artıq gizlətmirlər. Əgər əvvəlki illərdə, xüsusilə işğal dövründə bizi çaşdırmaq üçün, yəni gözdən pərdə asmaq üçün müəyyən vədlərlə cəlb etməyə çalışırdılarsa, indi o maskalar da yırtıldı və açıq-aydın burada ayırıcı xətlər müşahidə olunur. Biz o ayırıcı xətləri çəkməmişik, biz bu ayırıcı xətlərin əleyhinəyik. Biz hətta, cəmi üç ölkənin yerləşdiyi Cənubi Qafqazda bu gün bu ayırıcı xətləri açıq-aydın görürük. Belə olan halda, bizi haradasa qəbul etmək istəməyənlərə baş əyməliyikmi? Qətiyyən, bu, olmayacaq! Bizim ailəmiz türk dünyasıdır. Biz özümüzü çox yaxşı hiss edirik. Türk Dövlətləri Təşkilatlarına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir. Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır. Bundan güclü birlik ola bilərmi? Əlbəttə ki, yox. Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik".

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Azərbaycanda ekoloji vergilər tətbiq oluna bilər

**Azərbaycanda ekoloji vergilərin tətbiqinə dair təkliflər hazırlanacaq. Trend xəbər verir ki, bu barədə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəis müavini Samirə Musayeva İqtisadiyyat Nazirliyinin biznesin aparılması ilə bağlı yol xəritələri üzrə tədbirinin kuluarlarında jurnalistlərə deyib.**

Onun sözlərinə görə, ekoloji vergilər dünyanın əksər ölkələrində tətbiq olunur və Azərbaycanda da tətbiqi məqsədəuyğundur. "Bu il Azərbaycanda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) keçiriləcək. Ölkəmizdə ekoloji dayanıqlılığı təmin və təşviq edən vergi islahatları həyata keçirilməlidir. Dövlət Vergi Xidməti olaraq ictimaiyyətlə geniş müzakirələr aparacaq, eləcə də ekoloji vergilərin tətbiqi və iqtisadiyyatın ekoloji cəhətdən dayanıqlı inkişafına imkan yaradan islahatların icrası istiqamətində təkliflər hazırlyacağıq", - deyə S.Musayeva bildirib. O bu cür vergilərin fəaliyyəti ətraf mühitə mənfi təsir göstərən şirkətlərə tətbiq edilməli olduğuna aydınlıq gətirib.

# Bakıda 230 metr uzunluğunda unikal piyada körpüsü inşa edilir

**"Bakı Ağ şəhər" yol infrastrukturunun yenidən qurulması layihəsi çərçivəsində paytaxtın 8 Noyabr prospekti üzərindən Bakı "Ağ şəhər" layihəsinin Fəvvarələr meydanı parkını və Dənizkənarı Milli Parkı birləşdirən metal konstruksiyalı, müasir arxitekturaya malik yerüstü piyada körpüsü inşa edilir.**

Piyada körpüsünün uzunluğu 230 metr olmaqla biraşırımlı layihələndirilib. Unikal körpü metal tir aşırım qurğusundan ibarətdir və bir pilon dayaqdan vantlar vasitəsilə "asılacaq".




Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sifarişi əsasında aparılan işlər keyfiyyətli tikinti və dizayn materiallarından istifadə olunaraq icra edilir.

Körpünün layihələndirilməsi yerli mühəndislərlə yanaşı, Almaniyanın "Werner Sobek AG" şirkəti, memarlıq həlləri isə dünyada aparıcı memarlıq bürosu kimi tanınmış Niderlandın "UN Studio" şirkəti tərəfindən işlənilib.

# Azərbaycan nefti ucuzlaşıb

**"Azeri Light" markalı neftin bir barelinin qiyməti 0,72 dollar və ya 0,85 faiz azalaraq 84,23 dollar olub.**

AZƏRTAC xatırladır ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb.

# Türk dünyası markaları "Made in Turan" brendi altında birləşir

**200 milyondan çox insanın yaşadığı Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələr arasında siyasi, iqtisadi, ticari, mədəni, nəqliyyat, energetika, rəqəmsal transformasiya, kənd təsərrüfatı, turizm sahələri ilə yanaşı, təhlükəsizlik, müdafiə sənayesi kimi sahələrdə də əməkdaşlıq getdikcə genişlənir.**

Türk dünyası ölkələrinin tarixi İpək yolunun üzərində yerləşməsi onların Şərq və Qərb arasında artmaqda olan ticarət dövriyyəsində də önəmli rola malik olmasına şərait yaradır. AZƏRTAC xəbər verir ki, statistik göstəricilərə əsasən, Çin və Avropa ölkələri arasındakı ticarət dövriyyəsi günlük 1 milyard dolların üzərindədir. Türk dünyası ölkələrinin bu mühüm ticarət yolu üzərində yerləşməsi TDT-nin regionda iqtisadi gücə çevrilməsinə şərait yaradır. Belə ki, TDT-yə üzv ölkələrin dünya iqtisadiyyatındakı ümumi ticarət dövriyyəsi 536 milyard dollar təşkil edir.

Türk Dövlətləri Təşkilatına üzv ölkələr bu gün qlobal və regional miqyasda strateji hesab olunan Orta dəhlizin üzərində yerləşir. Avropa ilə Asiya arasında vacib neft-qaz və nəqliyyat marşrutlarının keçdiyi Orta dəhliz TDT-yə üzv dövlətlər üçün strateji əhəmiyyətə malikdir. TDT-yə üzv ölkələrdə ümumi daxili məhsulun (ÜDM) həcmi 1,5 trilyon dollar, ticarət dövriyyəsi isə 1,2 trilyon dollar təşkil edir. Ümumilikdə dünya ərazisinin 1, ticarət dövriyyəsinin isə 2,4 faizi TDT-yə üzv ölkələrin payına düşür.

Markalaşmanın yaratdığı ən böyük təsirlərdən biri də insanda yaratdığı sahib olma hissidir. TDT-yə üzv ölkələrin vahid markalaşmaya keçid etməsi bu ölkələrin istehsal etdikləri məhsul, göstərdikləri xidmətə qarşı marağı daha da artıracaq.

"Made in Turan" markası dedikdə TDT-yə üzv ölkələrin istehsal etdiyi məhsulların vahid markalaşmaya keçid etməsi başa düşülür. "Made in Turan" markası üçün əldə olunacaq xüsusi güzəştlər sayəsində ölkələr arasında ticarət dövriyyəsi artacaq və iqtisadi əlaqələr möhkəmlənəcək. "Made in Turan" markasının tətbiq olunması, həmçinin türk dünyası markalarının yeni dövrə keçid etməsidir. Bu markalaşma siyasəti nəticəsində türk dövlətləri markaları qlobal marka olma yolunda əmin addımlarla irəliləyəcək, əldə olunacaq xüsusi güzəştlər sayəsində türk dövlətləri arasında olan ticarət dövriyyəsi artacaq.

"Made in Turan" markası türk dünyasının qlobal miqyasda mühüm iqtisadi güc olaraq tanınmasına öz töhfəsini verəcək.

# İqtisadi inkişaf, sosial rifah

## İlin əvvəlindən ölkə üzrə ÜDM istehsalı 4,3, orta aylıq nominal əməkhaqqı 9,3 faiz artmışdır

*Əvvəli 1-ci səh.*

Bu yerdə cari ilin 4 ayı üzrə makroiqtisadi göstəricilərə nəzər salaq. Dövlət Statistika Komitəsinin (DSK) məlumatına görə, ötən bu müddətdə ölkə üzrə 38,2 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövründəkindən 4,3 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunmuşdur. Əlavə dəyər istehsalı iqtisadiyyatın qeyri-neft-qaz sektorunda 7,7 faiz artmış, neft-qaz sektorunda isə 0,1 faiz azalmışdır.

DSK-nin hesabatına görə, ilin 4 ayında ÜDM-in 40,3 faizi sənaye, 9,5 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri, 6,9 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,1 faizi kənd və meşə təsərrüfatları, eləcə də balıqçılıq, 6 faizi tikinti, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,7 faizi informasiya və rabitə, 20 faizi digər sahələrdə istehsal olunmuşdur. Məhsula və idxala xalis vergilər ÜDM-in 10,1 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə isə 3748,1 manat əlavə dəyər düşmüşdür.

Yanvar-aprel aylarında ölkə üzrə 21,1 milyard manatlıq sənaye məhsulları istehsal edilmişdir. Ümumilikdə bu dövr məhsul istehsalı sənayenin qeyri-neft-qaz sektorunda 8,7 faiz artmış, neft-qaz sektorunda 0,2 faiz azalmışdır. Sənaye məhsullarının 64,6 faizi mədənçıxarma, 29,3 faizi emal, 5,3 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,8 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal edilmişdir. Mədənçıxarma sektoru üzrə əmtəəlik neft hasilatı 5,7 faiz azalmış, əmtəəlik qaz hasilatı 4,3 faiz artmışdır.

Emal sektorunda metallurgiya sənayesi məhsullarının istehsalı 55, mebel istehsalı 36,4, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 25,2, tikinti materiallarının istehsalı 44,6, rezin və plastik kütlə məmulatlarının istehsalı 30,5, içkilərin istehsalı 27,5, geyim istehsalı 19,1, elektrik avadanlıqlarının istehsalı 17,7, kimya sənayesi məhsullarının istehsalı 8,6, tütün məmulatlarının istehsalı 19,2, kompüter, elektron və optik məhsulların istehsalı 31,3, neft məhsullarının istehsalı 5,3, əczaçılıq məhsullarının istehsalı 6,4 faiz artmışdır.




Hesabatda bildirilir ki, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda 4,6 faiz azalma, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 8,2 faiz artım qeydə alınmışdır.

DSK-nin açıqlamasına görə, cari ilin yanvar-aprel aylarında əsas kapitala 5 milyard 230,4 milyon manat vəsait yönəldilmişdir. Bu, 2023-cü ilin eyni dövründəkindən 11,8 faiz çoxdur. İstifadə olunmuş ümumi vəsaitin 54,1 faizi məhsul istehsalı və 37,8 faizi xidmət obyektlərinin, 8,1 faizi yaşayış evlərinin tikintisinə sərf edilmişdir. 80,5 faizi daxili sərmayələr olan vəsaitin 70,5 faizi bilavasitə tikinti-quraşdırma işlərində xərclənmişdir. Bu dövrdə neft-qaz sektoruna yatırılmış investisiyalar 6,2, qeyri-neft-qaz sektoruna sərf edilən vəsait isə 15,2 faiz artmışdır.

Sosial sahəyə, daha dəqiq desək, muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqına gəldikdə, DSK-nin məlumatına görə, ölkə üzrə yanvar-mart aylarında bu göstərici 2023-cü ilin eyni dövrünə nisbətən 9,3 faiz artaraq 985,3 manata çatmışdır. Əhalinin ümumi gəlirləri isə yanvar-aprel aylarında 4,3 faiz artaraq 24,6 milyard manat olmuşdur.

DSK-nin hesabatında həmçinin bildirilir ki, ilin 4 ayında pərakəndə ticarət şəbəkəsindən əhaliyə 16,9 milyard manatlıq məhsul satılmış, 3,8 milyard manatlıq ödənişli xidmətlər göstərilmişdir. 2023-cü ilin eyni dövrü ilə müqayisədə əmtəə dövriyyəsi 3,3, əhaliyə göstərilmiş xidmətlərdən əldə olunan gəlir 6,3 faiz artmışdır.

Yanvar-aprel aylarının nəticələrinə əsasən, ölkənin informasiya və rabitə müəssisələri tərəfindən ümumilikdə 1 milyard 40,2 milyon manatlıq müxtəlif xidmətlər göstərilmiş və həmin xidmətlərin 75,8 faizindən əhali istifadə etmişdir. 4 ay ərzində bu xidmətlərin həcmi 12,5 faiz artmışdır. Əldə edilmiş gəlirlərin 83,4 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür. Nəqliyyat sektorunda da göstəricilər müsbətdir: ötən 4 ayda ölkə üzrə 73,8 milyon ton yük, 623,9 milyon nəfərdən çox sərnişin daşınmışdır ki, bu da 2023-cü ilin eyni dövrünə nisbətən yük daşınması üzrə 3,6, sərnişin daşınması üzrə 7,8 faiz çoxdur.

Sonda istehlak qiymətləri barədə: cari ilin yanvar-aprel aylarında ötən ilin eyni dövrü ilə müqayisədə istehlak qiymətləri 100,7, o cümlədən qida məhsulları, içki və tütün məmulatları üzrə 99,3, qeyri-qida malları üzrə 101,3, əhaliyə göstərilən ödənişli xidmətlər üzrə 102,4 faiz olmuşdur.

***"Azərbaycan"***




## ADA Universitetində COP29-la bağlı seminar keçirilib

ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun, Belçikanın ölkəmizdəki səfirliyinin və Avropa İttifaqının Azərbaycan Respublikasındakı Nümayəndəliyinin təşkilatçılığı ilə Avropa və Cənubi Qafqaz perspektivindən iqlim fəaliyyətləri üçün imkanlar və çətinliklər mövzusunda seminar keçirilir. AZƏRTAC xəbər verir ki, tədbirdə davamlı gələcək, "yaşıl iqtisadiyyat", enerji və iqlim məsələləri müzakirə edilir.

Seminarda Ekologiya və Təbii Sərvətlər nazirinin müavini Umayra Tağıyeva, ADA Universitetinin prorektoru, İnkişaf və Diplomatiya İnstitutunun direktoru Fariz İsmayılzadə, Belçika Krallığının Azərbaycandakı səfiri Mişel Pitermans, Macarıstanın Azərbaycandakı səfiri Tamaş Yojef Torma, Avropa İttifaqının Azərbaycandakı nümayəndə heyətinin rəhbərinin müavini Zoltan Salay, Gürcüstanın Azərbaycandakı səfiri Zurab Pataradze, BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədrinin müşaviri Əsəd Şirinov iştirak edirlər.



Tədbirdə çıxış edən Fariz İsmayılzadə ADA Universitetinin COP29 və Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində iqlim dəyişikliyi ilə bağlı iyirmiyədək tədbirə evsahibliyi etdiyini vurğulayıb. O, COP29-un sülh təşəbbüslərini irəli sürə bilmək üçün əla platforma olacağını bildirib.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədrinin müşaviri Əsəd Şirinov çıxışında qeyd edib ki, iqlim dəyişikliyinə qarşı mübarizəni Azərbaycan dövləti hər zaman diqqət mərkəzində saxlayıb, neft və qaz ölkəsi olmasına baxmayaraq, "yaşıl enerji" ilə bağlı öhdəliklərini hər zaman layiqincə yerinə yetirib.

Tədbir panel sessiyalarla davam edib.

❖ ❖ ❖

COP29 Azərbaycan tarixində ən mühüm hadisələrdən biri olacaq. Bu barədə Belçikanın Azərbaycandakı səfiri Mişel Pitersman ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun, Belçikanın ölkəmizdəki səfirliyinin və Avropa İttifaqının Azərbaycan Respublikasındakı Nümayəndəliyinin təşkilatçılığı ilə Avropa və Cənubi Qafqaz perspektivindən iqlim fəaliyyətləri üçün imkanlar və çətinliklər mövzusunda keçirilən seminarda deyib.

"COP29 Azərbaycanın müstəqillik dövrü ərzində baş verən ən mühüm beynəlxalq hadisələrdən biridir", - deyə səfir Mişel Pitersman bildirib.

❖ ❖ ❖

COP29 iqlim dəyişmələri ilə mübarizədə mühüm qlobal hadisələrdən biridir. Bu barədə Macarıstanın Azərbaycandakı səfiri Tamaş Torma ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun, Belçikanın ölkəmizdəki səfirliyinin və Avropa İttifaqının Azərbaycan Respublikasındakı Nümayəndəliyinin təşkilatçılığı ilə Avropa və Cənubi Qafqaz perspektivindən iqlim fəaliyyətləri üçün imkanlar və çətinliklər mövzusunda keçirilən seminarda deyib.

"Noyabr ayında Azərbaycanda iqlim dəyişmələri ilə mübarizədə ən mühüm qlobal hadisələrdən biri olan COP29 konfransı keçiriləcək", - deyə səfir qeyd edib. Onun sözlərinə görə, Macarıstan və Azərbaycan arasında münasibətlər beynəlxalq hörmət və anlayışa əsaslanan qarşılıqlı əlaqələrlə səciyyələnir. Səfir, həmçinin Macarıstanla əlaqələrin Avropa və Azərbaycan arasında gələcək və yaxın əməkdaşlığın əsasını təşkil etdiyini söyləyib.

# COP29 ölkəmizin növbəti böyük uğuru olacaq

Dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a 2024-cü ildə evsahibliyi etmək üçün məhz ölkəmiz seçilib. Dünya birliyinə məlumdur ki, son illər bütün sahələrdə uğurlar qazanan, Cənubi Qafqazın lider dövlətinə çevrilən Azərbaycan indiyədək bir sıra qlobal xarakterli mötəbər tədbirləri yüksək səviyyədə təşkil edib. Ölkəmizin müasir infrastruktura malik olması, eyni zamanda təhlükəsizlik baxımından sabitliyi əldə etməsi bizə bu üstünlüyü verib.




Bu ilin noyabrında Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyinin ölkəmizə həvalə edilməsi digər tərəfdən yüksək etimadın və inamın növbəti göstəricisi, eyni zamanda, beynəlxalq təşkilatlarla formalaşdırılmış uğurlu əməkdaşlığın nəticəsidir.

Prezident İlham Əliyev hələ ötən il dekabrın 15-də COP29-un ölkəmizdə keçirilməsi ilə əlaqədar təşkil olunan müşavirədə bildirdi: "Mən şübhə etmirəm ki, COP29 beynəlxalq konfransını da biz yüksək səviyyədə keçirəcəyik, bu, ölkəmizin, xalqımızın növbəti böyük uğuru olacaq. Eyni zamanda Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz "yaşıl enerji" ilə bağlıdır. "Yaşıl enerji" növlərinin yaradılması və "yaşıl enerji"nin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək".

Hazırda bu, qlobal tədbirin ölkəmizdə yüksək səviyyədə təşkil olunması üçün hazırlıq işləri uğurla davam etdirilir və həmin istiqamətdə ölkəmizdə görülən işlər xarici dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir.

Bütün dünyada "yaşıl enerji"yə keçidin zərurətə çevrildiyi bir vaxtda Azərbaycan bu prosesə öz töhfələrini verir. "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" olmaq növbəti onillikdə ölkəmizin sosial-iqtisadi inkişafına dair beş Milli Prioritetdən biridir. Belə ki, dövlət başçısının 2021-ci il fevralın 2-də imzaladığı "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sərəncamında ölkənin perspektiv iqtisadi inkişafı ilə bərabər ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların sürətli bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi qarşıya qoyulub.

Azərbaycan artıq neçə ildir ki, "yaşıl enerji"yə keçid istiqamətində nəhəng işlər həyata keçirir. Baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi müəyyənləşdirib.

Bütün dünya bilir ki, Ermənistan otuz ilə yaxın işğal altında saxladığı Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur bölgələrində yalnız tarixi və müasir tikililəri, infrastrukturları dağıdaraq yerlə yeksan etməyib, həm də həmin ərazilərin təbiətini məhv edib. Hazırda həmin ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir. Qeyd edək ki, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan bölgələri Azərbaycanda "yaşıl enerji" zonaları elan olunub .

"Yaşıl enerji"yə keçid, qeyd etdiyimiz kimi iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə mühüm addımdır. Prezident İlham Əliyev iqlim dəyişikliklərinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə 2024-cü ili ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edib. Dövlət başçısı "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" 2021-ci il 3 may tarixli Sərəncam imzalayıb. Sənədə əsasən, Nazirlər Kabineti tərəfindən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022-2026-cı illərdə "yaşıl enerji" zonasının yaradılması ilə bağlı Tədbirlər Planı" təsdiq edilib.

Azərbaycan kimi tarixən zəngin neft resursları ilə tanınan bir ölkənin hazırda "yaşıl enerji"yə keçid sahəsində də ön sırada dayanması, nümunə göstərməsi təqdirəlayiqdir. Prezident İlham Əliyev bəyan edib ki, Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir: "Dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz "yaşıl enerji" ilə bağlıdır. "Yaşıl enerji" növlərinin yaradılması və "yaşıl enerji"nin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək".

Qlobal bəlaya çevrilən iqlim böhranının aradan qaldırılması istiqamətində bəşəriyyətin yubanmadan hərəkətə keçməsi, konkret addımlar atması labüddür. Bu mühüm məsələnin müzakirəyə çıxarıldığı Almaniyanın paytaxtı Berlində keçirilən "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində çıxış edən Prezident İlham Əliyev respublikamızda bu istiqamətdə həyata keçirilən mühüm işləri qeyd etdi. Dövlət başçısı COP29-a evsahibliyi edəcək ölkə kimi Azərbaycanın qlobal tədbirə hazırlığın fəal mərhələsində olduğunu diqqətə çatdırdı: "COP29-a evsahibliyi edəcək ölkə kimi yekdil qərarla seçilmək bizim üçün həqiqətən böyük şərəfdir. Biz bunu beynəlxalq ictimaiyyətin Azərbaycana və gördüyümüz işlərə, o cümlədən "yaşıl enerji" sahəsindəki fəaliyyətimizə hörmətinin əlaməti hesab edirik. Nəhayət, bu, böyük məsuliyyətdir, çünki biz nəinki yaxşı tədbir təşkil etməli, o cümlədən yaxşı nəticələrə nail olmalıyıq. Hesab edirəm ki, Azərbaycanın müxtəlif beynəlxalq təşkilatlarla beynəlxalq əlaqələri və onlarda fəal iştirakı bizə müxtəlif qitələrin ölkələri arasında körpülər salmaq və ya onları gücləndirmək, eləcə də onların həmrəyliyini möhkəmləndirmək imkanını yaradacaq".

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## Misir mətbuatı COP29-un Azərbaycan iqtisadiyyatına töhfələrindən yazıb

Misirin "elalmelarby.com" saytı COP29-un Azərbaycan iqtisadiyyatına töhfələrindən yazıb. AZƏRTAC xəbər verir ki, sayt Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişilinin "COP29 Azərbaycan iqtisadiyyatına hansı töhfələri verəcək?" adlı məqaləsini dərc edib.

Komitə sədrinin yazısında ekoloji dayanıqlıqdan və "yaşıl artım"dan, Azərbaycanın sosial-iqtisadi inkişafının əsas istiqamətlərindən, eləcə də rəqabətədavamlı iqtisadiyyat, sosial ədalət və innovasiyalardan bəhs edilir. Bildirilir ki, müasir texnologiyaların və insan kapitalının inkişafı, innovativ təşəbbüslərin dəstəklənməsi dövrümüzün diktə etdiyi reallıqlardır. Azərbaycanın işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması, abadlaşdırılması, keçmiş məcburi köçkünlərin öz yurdlarına qayıdışı və oradakı ətraf mühitin sağlamlaşdırılması üçün bu ilin payızında Bakıda keçiriləcək COP29 əla fürsətdir. Hər şeydən öncə COP29-un Azərbaycanda keçirilməsi, ilk növbədə, BMT kimi ali qurumun Azərbaycanın iqlim məsələsində üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsinin etirafıdır. Həmçinin konfransın Bakıda təşkili BMT səviyyəsində ölkəmizdə siyasi və iqtisadi sabitliyin qəbulundan xəbər verir.




Müəllifin sözlərinə görə, COP29-un əsas üstünlüklərindən biri də odur ki, bu konfrans Azərbaycanın ekoloji siyasətlərinin qabaqcıl beynəlxalq təcrübələrə, texnoloji mübadilə və innovasiyalara uyğunlaşdırılmasına, geniş iqtisadi inkişaf üçün maliyyə dəstəyinin təmin edilməsinə töhfədir.

Azərbaycanda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ölkəmizdə "yaşıl enerji" növlərinin yaradılmasına, dünya bazarına nəqlinə imkan verir. Bərpaolunan və "yaşıl enerji" əsasında istehsal edilən elektrikin ixracı Azərbaycanın enerji strategiyasında yeni eranın başlanmasıdır. 2030-cu ilədək elektrik enerjisinin qoyuluş gücündə bərpaolunan enerjinin payının Azərbaycanda 30 faizə çatdırılması gözlənilir.

Məqalədə bildirilib ki, 2020-ci ildə 44 günlük müharibədən dərhal sonra Prezident İlham Əliyev Qarabağı və Şərqi Zəngəzuru, Naxçıvanı "yaşıl enerji bölgəsi" adlandırdı. İşğaldan azad edilmiş Kəlbəcər və Ağdərə rayonlarında geotermal və Günəş enerjisi ehtiyatları, Laçın, Qubadlı və Zəngilan rayonlarında hidroenerji mənbələri, Şuşa, Xocavənd və Cəbrayıl rayonlarında külək enerjisi, Tərtər, Ağdam, Xocalı rayonlarında bioenerji ehtiyatlarının səviyyəsi dərhal öyrənildi. Bu ehtiyatlardan istifadə Azərbaycanı "yaşıl enerji" istehsalçısına çevirəcək. Artıq Qarabağda və Şərqi Zəngəzurda hidroenerji potensialından fəal şəkildə istifadə edilir. Yaxın illərdə burada hidroelektrik stansiyaların gücü 500 meqavat olacaq ki, bu da "yaşıl enerji"yə keçid prosesinə böyük töhfədir.

Müəllifin sözlərinə görə, bu il noyabrın 11-24-də Bakıda keçiriləcək COP29 tədbirlərində dünyanın təxminən 190-dan çox ölkəsini təmsil edən 80-100 min nəfərin iştirakı gözlənilir. Konfransla bağlı turizm və logistika sahəsində yüzlərlə yeni peşəkar mütəxəssis hazırlanacaq, turizm xidmətlərinin keyfiyyəti artırılacaq.

Məqalədə vurğulanır ki, COP29 Azərbaycanın potensialının və iqtisadi imkanlarının daha yaxından təqdim edilməsinə şərait yaradacaq. Beynəlxalq arenada Azərbaycanın nüfuzunun daha da güclənməsinə müsbət təsir edəcək konfrans onun iqtisadi və siyasi gücünü daha da artıracaq.

**Bu gün Ekologiya və Təbii Sərvətlər Nazirliyi İşçilərinin Peşə Bayramı Günüdür**

# Azərbaycan COP29 ərəfəsində ekologiya ilə bağlı çoxsaylı yeniliklərə imza atır

XXI əsrdə ekoloji tarazlığı qoruyub saxlamaq, təbii ehtiyatlardan səmərəli istifadə, su, torpaq və atmosferi çirklənməkdən mühafizə etmək ümumbəşəri problemə çevrilib. Bir tərəfdən dünya demoqrafik artımla "qol-boyun"dur, digər tərəfdən də qlobal istiləşmə, ozon qatının deşilməsi, təbii ehtiyatların tükənməsi kimi məsələlər ciddi narahatlıq doğurur.

Statistik rəqəmlərə əsaslanaraq söyləmək olar ki, dünyada hər il minlərlə hektar meşə və çəmənlik, bitki örtüyü ilə zəngin yaşıllıqlar məhv edilir. Meşələrin məhv olması Yer kürəsinin münbit qatı hesab olunan torpağın şoranlaşmasına, eroziyaya uğramasına, sürüşmələrin baş verməsinə səbəb olur ki, bu da böyük dağıntılar və fəlakətlərlə nəticələnir.

Bu gün dünyanın əksər ölkələrində ekoloji tarazlığın pozulmasından yaranan problemlərin aradan qaldırılması üçün müxtəlif diskussiyalar, müzakirələr aparılır. İndi Yer kürəsinin hər hansı regionunda baş verən təbii fəlakət təkcə həmin ərazinin deyil, bütün dünyanın problemi sayılır və onu aradan qaldırmağın yolları birgə axtarılır. Demək olar ki, artıq dünyanın itirə biləcəyi meşələr, çəmənliklər, bitki örtüyü ilə zəngin sahələri qalmayıb. Odur ki, "qırmızı xətt"i keçmək daha ağır fəlakətlərə yol aça bilər.

Noyabrda Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) insanların sağlam mühitdə yaşaması və təbii sərvətlərdən rasional istifadə edilməsi, xalqın rifahının yaxşılaşdırılması üçün davamlı tədbirlər görülməsi haqqında məsələlərin müzakirəsi ön planda olacaq. Bu gün biomüxtəlifliyin qorunması və ekosistemin müəyyənləşdirilməsi və davamlılığının artırılması üçün həyata keçirilən ekoloji siyasət gələcək nəsillərin təbii ehtiyatlardan səmərəli istifadə etməsinə hesablanır. COP29 dünyada baş verən təbii fəlakətlərin, eləcə də süni faciələrin yaranmaması üçün iqlim dəyişikliklərinə qapı açan nəsnələrin aradan qaldırılması yollarını da müzakirə edəcək. Bu baxımdan deyə bilərik ki, Azərbaycanda həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası ekoloji problemlərin operativ surətdə yoluna qoyulmasına, ətraf mühitin mühafizəsi istiqamətində ardıcıl və səmərəli tədbirlərin görülməsinə əlverişli şərait yaradıb.



Hazırda tarazlığı pozulmuş ekoloji mühitin bərpasında polietilen və plastik qablaşdırma materiallarının idarə olunması, istilik effekti yaradan qaz tullantılarının azaldılması, habelə ekoloji təmiz nəqliyyatdan istifadənin genişləndirilməsi, meşələrin və yaşıllıqların artırılması, mühafizəsi, su hövzələrinin çirklənmədən qorunması, təbii sərvətlərin axtarışı, kəşfiyyatı və hasilatı prosesində ətraf mühitə təsirin aradan qaldırılması prioritet istiqamətlərdəndir. Bu sadalananların Azərbaycanda elan olunan "Yaşıl dünya naminə həmrəylik ili"ndə qabarıq formada hallandırılması ekologiyaya və təbii sərvətlərə qarşı daha həssas yanaşmağın vacibliyini tələb edir. Ötən illərdə bir sıra iri su hövzələrinin tikilməsi, torpaqları şorandan təmizləmək üçün drenaj sistemlərinin qurulması, Bakı şəhərində və onun ətrafında yaşıllıqlar, Xəzərsahili qumluqlarda torpaqların eroziyasının qarşısının alınması məqsədilə meşə zolaqlarının salınması, flora və faunanın qorunub saxlanması və genişləndirilməsi üçün təbiət qoruqları və yasaqlıqların yaradılması kimi işlərin görülməsi həmin tələbdən doğur.

Ermənistanın 30 ilə yaxın yeritdiyi işğalçılıq siyasəti Qarabağ və Şərqi Zəngəzurun ekoloji mühitini təhlükə altına almışdı. Regionun talan edilməsi, bu torpaqlarda flora və faunanın məhv edilməsi bütün Qafqazın ekoloji durumuna çox böyük mənfi təsir göstərmişdi. Tək bircə fakt: erməni işğalçıları Qubadlı, Füzuli və Cəbrayıl rayonlarının ərazisində yaşı 1600, 900 və 500 il olan Şərq çinarlarını məhv etmişlər. Həmin ağacların yerində bitən 2 metrə qədər pöhrələr bu qədim çinarların son illərdə kəsildiyini təsdiqləyir. 44 günlük Vətən müharibəsində əldə edilən zəfərdən sonra Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən işğaldan azad edilən ərazilərdə meşə zolaqlarının, fauna və floranın, xüsusi mühafizə olunan təbiət ərazilərinin, su ehtiyatlarının, faydalı qazıntı yataqlarının qiymətləndirilməsi və həmin ərazilərdə ekoloji tarazlığın bərpa olunması ilə bağlı təkliflərin hazırlanmasına başlanmışdır.

Artıq Qarabağın ekologiyasına vurulan yaralar sağalmağa başlayır. Oğurlanan, talan olunan sərvətlərin yerini doldurmaq yönümündə böyük işlər görülür. Təkcə 2023-cü il ərzində Zəngilan rayonunda 14,4 min ədəd müxtəlif cinsli ağacdan doldurma-bərpa əkinlərində istifadə olunub. Füzuli, Zəngilan və Ağdam rayonları ərazilərində, əsasən, Şərq çinarı olmaqla minlərlə müxtəlif növ ağac əkilib, palıd və digər meşə ağaclarının toxumları səpilib. Ağacəkmə aksiyaları Qubadlıda, Cəbrayılda da aparılır. İşğaldan azad olunmuş bütün ərazilər minalardan təmizlənib təhlükəsiz vəziyyətə gətirildikcə ağacəkmə tədbirləri də davam edir.

Qeyd edək ki, bu cür aksiyalar Azərbaycanın bütün regionlarında keçirilir. Bununla yanaşı, nə yazıq ki, hərdən ağacların kəsilməsi hallarına da rast gəlirik. Vaxtilə Ulu Öndər Heydər Əliyev demişdi ki, bir ağacı kəsən sanki mənim bir qolumu kəsir. Ekoloji məsələlərə həsr olunmuş yığıncaqların birində Prezident İlham Əliyev də ağac kəsilməsinə qarşı sərt təpki göstərmişdi: "Ağacəkmə kampaniyası zamanı on milyondan çox ağac əkilibdir və bu proses davam etdirilir. Ona görə biz ekoloji vəziyyətlə bağlı məsələləri daim diqqət mərkəzində saxlayırıq. Ancaq ictimaiyyəti də, məni də narahat edən məsələ ağacların kəsilməsi məsələsidir. Buna yol vermək olmaz. Hesab edirəm ki, biz burada daha da ciddi məsuliyyət tətbiq etməliyik. Ağackəsmə tam şəkildə dayandırılmalıdır".

Təbii ki, "Yaşıl dünya naminə həmrəylik ili"ndə bu kampaniyanın aparılması həm də COP29-a hazırlıqlarla bağlı görülən işlər sırasındadır. Başa çatdırılan işlərin müstəvisindən, eləcə də COP29-un fəaliyyət dairəsindən baxanda görmək olur ki, Azərbaycan gələcəkdə də ekologiya sahəsində böyük yeniliklərə imza atacaq.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Şəhid Şöhrət Nuriyevin nəşinin qalıqları Ucarda dəfn olunub

Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab olunan Nuriyev Şöhrət Telman oğlunun meyitinin qalıqları Ucar rayonuna gətirilib. O, Gəncə şəhərində Şəhidlər xiyabanında naməlum şəhid kimi dəfn olunmuşdu.



AZƏRTAC xəbər verir ki, şəhidin nəşi rayonun Əlikənd kəndində ailəsinə təhvil verilib və vida mərasimi keçirilib. Vida mərasimində kənd sakinləri, şəhidin ailə üzvləri, qazilər, eləcə də rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının əməkdaşları, ictimaiyyət nümayəndələri iştirak ediblər. Cənazə namazı qılındıqdan sonra şəhidin nəşi kənd qəbiristanlığında torpağa tapşırılıb, dualar oxunub.

Qeyd edək ki, Nuriyev Şöhrət Telman oğlu 1993-cü il aprelin 14-də Murovdağ istiqamətində gedən döyüşlərdə itkin düşmüş sayılırdı.

# Paşinyan kilsəni vergi ilə cəzalandırmaq istəyir

## Keçmiş hərbi xuntaya isə inam qalmayıb

İkinci Qarabağ müharibəsinin qalibi və məğlubu arasında aparılan sülh danışıqları, götürülmüş öhdəliklərin yerinə yetirilməsi istiqamətində delimitasiya və demarkasiya proseslərinə start verilməsi görülən işlərin başlanğıcı hesab edilə bilər. Hayastan tərəfi gec də olsa, anlayır ki, ölkələrinin xilas formulu Azərbaycanla münasibətləri normallaşdırmaqda, sülh müqaviləsini imzalamaqdadır.

Revanşist qüvvələr isə sülh müqaviləsinin imzalanması prosesinin baş tutmaması üçün məkrli niyyətlərini gizlətmədən aşkarda nümayiş etdirirlər. Erməni Apostol Kilsəsinin Tavuş Yeparxiyasının primatı, arxiyepiskop Baqrat Qalstanyanın etirazları isə gün keçdikcə səngiməkdə davam edir.

Hayastan parlamentinin spikeri Alen Simonyan isə keşişləri başqa bir variantla çətin duruma salıb. Deyib ki, Ermənistan parlamenti yaxın vaxtlarda erməni Apostol Kilsəsinin vergi sahəsinə daxil edilməsi məsələsini müzakirəyə çıxarmağı təklif edir. O, keşişlərə müraciətlə deyib: "Duyğularımızla, tariximizlə oynamağı dayandırın, artıq siyasətlə məşğul olub, diaspordan pul yığıb, şam, koka-kola, şərab satıb, restoranlarda olub, vergi ödəmirsiniz. Başa düşmək istəyirəm ki, əli öpülən din xadimi nə üçün vergi ödəyən, orduya sursat alan sadə iş adamından üstün olmalıdır. Mənim üçün böyük vergi ödəyiciləri ən vacib insanlardır. Onlar Hayastanın təhlükəsizliyini maliyyələşdirir".



Bu arada Baqrat Qalstanyan və Qarabağdan Hayastana könüllü köçmüş şəxslərin ötəngünkü qapalı görüşü gərginliklərlə yadda qalıb. "Hraparak" nəşri yazıb ki, yepiskop hər kəsi dinləyib, problemləri qeyd edib, Qarabağ məsələsini beynəlxalq platformalarda qaldırmağın onun diqqətində olduğunu, "Qarabağ komitəsi"nin və Vardan Oskanyanın fəaliyyətindən xəbərdar olduğunu, bunu alqışladığını və bunun dövlət səviyyəsində görülməli olduğunu vurğulayıb: ""Qarabağ parlamenti"nin (ləğv edilmiş qondarma qurum-red.) "deputatları" (separatçılar-red.) çıxış edərək, hərəkatı alqışlayıblar. "Parlamentin sədr müavini" Bağunts Baqrat Srbazanı ad günü münasibətilə təntənəli şəkildə təbrik edib. Görüşdə yalnız Samvel Şahramanyan iştirak etməyib, çünki Baqrat "keçmiş prezidentlər"in formatında görüşün təşəbbüskarıdır".

Hayastanda din amili böyük əhəmiyyət kəsb etdiyindən hakimiyyətə gələnlər mütləq kilsənin də dəstəyinə nail olmağa çalışırlar. Lakin əhalinin etirazları fonunda Paşinyan əvvəlki hökumətin adamı olan II Qaregini vəzifədən uzaqlaşdırmağa çox cəhd etsə də, səriştəsizliyi üzündən bütün səyləri nəticəsiz qalıb.

Paşinyan hökumətinin kilsə başçısına qarşı mübarizəsi Qareginin mühafizəçilərinin dövlətdən maliyyələşdirilməsini dayandırmaqla başlayıb. Bundan sonra proses kilsənin fırıldaqla məşğul olması, dələduzluğu, 12 milyon dollar məbləğində ianənin mənimsənilməsi, Qareginin hökumətə qarşı çıxışları ilə davam edib.

Hayastanda kilsə ilə hökumət münasibətləri 44 günlük müharibədən sonra daha da kəskinləşib. Onda Qaregin Nikol Paşinyanın istefasını tələb etmişdi. O, kilsə ilə hökumət arasında əməkdaşlığın yetərli olmadığını da vurğulamışdı.

Son günlərdə İrəvanda xalqı Paşinyana qarşı qaldırmağa çalışan, səsləndirdiyi fikirlərlə, açıqlamaları ilə yerli medianın diqqət mərkəzində yer alanlardan biri də sabiq baş nazir Qrant Baqratyandır. O da Hayastanı növbəti vətəndaş qarşıdurmasına sürükləməyə çalışır. Məqsəd isə hakimiyyətlə xalq arasında uçurumu daha da dərinləşdirməkdir. Baqratyan erməni diasporunun siyasətdəki ən ciddi fiqurlarından biridir. Baqratyan sülh prosesinin və Ermənistan - Türkiyə əlaqələrinin bərpasına qarşı sərt müxalif mövqe ortaya qoyur.

Hər halda proseslərin gedişi Hayastanı qarşıdakı dövr ərzində daha çətin günlərin və qarşıdurmaların gözlədiyini göstərir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Fransızların 70 faizi Makronun fəaliyyətindən narazıdır

## Ölkənin problemləri onun prezidentliyi üçün ciddi təhlükə yaradır

Avropa Parlamenti seçkilərinə iki həftə qalmış "bir neçə cəbhədə" yaranan problemlər Fransa prezidenti Emmanuel Makron üçün ciddi təhlükə yaradır. Seçkilərdə onun "Dirçəliş" partiyasının ifrat sağçı siyasətçi Marin Le Penin "Milli Birlik" fraksiyasına uduzacağı proqnozlaşdırılır. Bu barədə "Bloomberg" telekanalı məlumat yayıb.



Bildirilir ki, Yeni Kaledoniyada baş verən iğtişaşlar, bir məhbusun qaçması və iki həbsxana zabitini öldürməsi, Parisdə məşhur "Harry Winston" zərgərlik mağazasının qarət edilməsi və digər kriminal hadisələr son vaxtlar Fransa seçicilərinin prioritetlərinin yenidən konfiqurasiyasına təsirsiz ötüşməyib.

"Le Figaro" qəzetinin son sorğusuna görə, bu hadisələrdən sonra fransızlar üçün təhlükəsizliyin vacibliyi kəskin artıb. Eyni zamanda əhalinin 70 faizi prezident Makron və onun komandasının ölkədə təhlükəsizliyin təmin olunmasında zəif iş gördüyü qənaətindədir.

Fransada yaranmış böhranla əlaqədar "Milli Birliy"in prezidenti Jordan Bardella deyir: "İndi biz dövlət tərəfindən təmin edilməyən ictimai asayişin böyük dəyərə malik olduğunu və genişmiqyaslı, habelə idarəolunmaz zorakılığın Fransa cəmiyyətini ələ keçirə biləcəyini artıq bilirik".

"Ipsos-Fiducial" təşkilatının sorğusu göstərib ki, ifrat sağçı "Milli Birlik" partiyası Avropa Parlamenti seçkilərində Makronun "Dirçəliş" partiyasının nəticəsini iki dəfə (32 faiz 16 faizə) üstələyəcək. Eyni zamanda Marin Le Pen prezidentin partiyasının Avropa Parlamentində uduzacağı təqdirdə Makronu Milli Assambleyanı (Fransa parlamentinin aşağı palatası - red.) buraxmağa və yenidən seçkilər təyin etməyə çağırıb. Bundan əvvəl isə ölkə mətbuatında fransızların Makrona inamının itirilməsi barədə məlumatlar yayılıb. Məlumatlarda qeyd edilir ki, Fransa öz liderinə inamını sürətlə itirdiyindən, prezidentin mərkəzçi alyansının iyunda keçiriləcək Avropa Parlamentinə seçkilərdə məğlubiyyəti qaçılmazdır.

Aptıq hamıya bəllidir ki, Makronun xalqın dəstəyini itirməsi Fransadakı dərin sosial, siyasi və regional parçalanmaları əks etdirir.

Öz növbəsində, fransalı politoloq və filosof Emmanuel Lerua "İzvestiya" qəzetinə müsahibəsində deyib ki, Fransa prezidenti Makron beynəlxalq danışıqlarda, xüsusən də Ukrayna ilə bağlı danışıqlarda fəallıq nümayiş etdirir, çünki çox zəif reytinqlərə görə "xal qazanmaq" məcburiyyətindədir. Politoloq həmçinin vurğulayıb ki, iyunda Fransada Avropa Parlamentinə seçkilər keçiriləcək və Marin Le Penin "Milli Birlik" partiyası "Dirçəliş" partiyasını nəzərəçarpacaq dərəcədə qabaqlayır.

Xatırladaq ki, bir müddət əvvəl "Le Figaro" qəzetinin yazdığına əsasən, Fransa sakinlərinin təxminən 70 faizi Emmanuel Makronun NATO qoşunlarının Ukraynaya göndərilməsinin mümkünlüyü ilə bağlı mövqeyini bəyənmir.

"Odoxa-Backbone Consulting" tədqiqat institutunun keçirdiyi sorğunun nəticələrinə görə isə, fransızların 68 faizi dövlət başçısının belə mövqe nümayiş etdirməsinin yanlış olduğunu düşünür.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


AZƏRBAYCAN
Əldə edilmiş razılaşmalar İran və Azərbaycan xalqlarının iradəsinə söykənir
Prezident İlham Əliyev İranın ölkəmizdəki səfirliyində olub, İran Prezidentinin və digər şəxslərin helikopter qəzasında həlak olmaları ilə əlaqədar başsağlığı verib
İlham Əliyevin sülh gündəliyi təqdir edilir
Volodimir Zelenski İlham Əliyevə zəng edib
İnsan alverinə qarşı mübarizə uğurlu nəticələr verir
Azərbaycanla Tacikistan arasında əlverişli biznes və investisiya mühiti yaradılıb
Bütün yollar türk dünyasında birləşir

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# UNESCO: "İnsanların təbiətə münasibəti kökündən dəyişməlidir"

Təbiətlə, bütün canlılarla münasibətimiz köklü şəkildə dəyişməlidir. Həqiqətən, biz ortaq bir dünya dizayn etməliyik. Bu, Beynəlxalq Bioloji Müxtəliflik Gününün əsas mesajıdır və UNESCO-nun mandatında, həmçinin gündəlik fəaliyyətində öz əksini tapır.

AZƏRTAC UNESCO-nun saytına istinadla xəbər verir ki, bu fikirlər təşkilatın Baş direktoru Odri Azulayın hər il mayın 22-də qeyd edilən Beynəlxalq Bioloji Müxtəliflik Günü ilə əlaqədar müraciətində yer alıb.

Təşkilatın bu mühüm əlamətdar gün münasibətilə müraciətində qeyd olunur ki, biomüxtəliflik planetimizin canlı toxumasıdır. Bu, indi və gələcəkdə insanların rifahının əsasını qoyur və onun sürətli tənəzzülü həm təbiəti, həm də bəşəriyyəti təhdid edir. "UNESCO-nun Biomüxtəliflik və Ekosistem Xidmətləri üzrə Hökumətlərarası Elm-Siyasət Platforması (IPBES) tərəfindən 2019-cu ildə dərc edilmiş Biomüxtəliflik və Ekosistem Xidmətləri üzrə Qlobal Qiymətləndirmə Hesabatına əsasən, biomüxtəlifliyin itirilməsinin əsas qlobal amilləri iqlim dəyişikliyi, invaziv növlər, təbii resursların həddindən artıq istismarı, çirklənmə və urbanizasiyadır. Qlobal Hesabat yerüstü ekosistemlər üçün 75 faiz təşkil edən biomüxtəlifliyin yox olmasında insan fəaliyyətinin məsuliyyətini nümayiş etdirib. Bu qiymətləndirmə, həmçinin problemin həlli yollarının mövcud olduğunu və hərəkətə keçmək üçün hələ də gec olmadığını göstərib", - deyə təşkilat vurğulayıb.

# Yuxusuzluğun fəsadları

Yuxu ətraf mühitə reaksiyaların azalması ilə müşayiət olunan təbii fizioloji prosesdir. İnsan ömrünün üçdəbir hissəsini yuxuda keçirir. Yuxu zamanı orqanizm enerjini bərpa edir, immunitet yüksəlir. Müasir dövrdə həyat tərzi, iş rejimi, bəzi sosial və ictimai problemlər yuxu rejiminə mənfi təsir göstərir. Hazırda insanların üzləşdiyi ən böyük problemlərdən biri yuxusuzluqdur. Dünyada hər on nəfərdən beşi bu çətinliklə üzləşir.



Yuxusuzluq ilk baxışdan adi hal kimi görünsə də, əslində, insan həyatını risk altında qoyan ən böyük xəstəliklərdən biridir. Mütəxəssislər bildirirlər ki, hər bir insan sutkada 7-8 saat yatmalıdır. Lakin yuxunun müddəti qədər keyfiyyəti də olduqca önəmlidir. Bəzən insanlar bütün gecə boyu yatsalar da, səhər özlərini əzgin və yorğun hiss edirlər. Ona görə də yuxusuzluğun səbəblərini öyrənmək, onun yarada biləcəyi xəstəliklərin qarşısını vaxtında almaq lazımdır.

### Yuxu problemləri həyat keyfiyyətini azaldır

Yuxusuzluğun səbəblərinin müxtəlif olduğunu deyən həkim-terapevt Nahid Məhərrəmov bildirib ki, bunlar əsasən narahatlıq və stres kimi psixoloji təsirlər, narkotik maddələr, kofeinli və alkoqollu içkilər, sosial amillərdir: "İnsanlar gecə yuxusuna xüsusilə önəm verməlidirlər. Gecə vaxtı insan orqanizmi yuxu hormonu deyilən melatonin hormonunu ifraz edir. Melatonin yalnız tam qaranlıqda və çox qısa müddətdə - 23:00-dan 01:00-a qədər ifraz olunur. Bu hormon orqanizmdə hüceyrələrin yenilənməsini, bioloji saatı, yuxu ritminin və bədən istiliyinin tənzimlənməsini təmin edir. Yuxu zamanı immunitet sistemi orqanizm üçün faydalı zülallar ifraz edir. Əgər insan nizamlı və keyfiyyətli yuxu almasa, bu zülalların miqdarı yetərli qədər olmur".

Terapevt qeyd edib ki, bəzən insanlar yuxuya gedə və ya dərin yuxu yata bilmirlər: "Bir həftəyə qədər davam edən yuxusuzluq keçici, bir həftə ilə üç aya qədər - yarımkəskin, üç aydan artıq davam edərsə, xronik adlanır. Belə insanlar oyandıqdan sonra özlərini yorğun hiss edirlər. Yuxusuzluq təkcə enerji səviyyəsini və əhvalı deyil, həm də sağlamlığı və həyat keyfiyyətini azalda bilər. Mütəxəssislər gecə 7-8 saat yatmağı məsləhət görürlər. Bəzi insanlar həyatının bir dönəmində günlərlə davam edən qısamüddətli yuxusuzluq yaşayırlar. Bu vəziyyət, adətən, stres, kəskin xəstəlik, yuxu rejiminin dəyişməsi zamanı baş verir. Normal yuxunun bərpasından sonra keçici yuxusuzluq orqanizmdə neqativ izlər qoymur".

### Xroniki yuxusuzluq bir sıra xəstəliklərə səbəb olur

Yuxusuzluq immun sisteminin əhəmiyyətli dərəcədə zəifləməsinə səbəb olur, müxtəlif xəstəliklərin əmələ gəlməsinə şərait yaradır. N.Məhərrəmov deyir ki, xroniki yuxusuzluq yaşayan insanların orqanizmlərində xroniki ağrı, diabet, ürək-damar, astma, depressiya, parkinson və altsheymer xəstəliyindən xəbər verə bilər: "Yetərsiz yuxu artıq çəki, piylənmə və diabet riskini artırır. İnsulin hormonu qanda şəkərin normada qalmasına xidmət edir. Ancaq yuxusuzluq bu prosesi pozur. Gecə 4-5 saat yatan insanların əksəriyyətində insulin müqavimətinin artması müşahidə olunur. Nəticədə 2-ci tip diabet əmələ gələ bilər. Bu digər hormonların da ritmi pozulmasına səbəb olar".

Mütəxəssisin sözlərinə görə, hər gecə 1-2 saat daha az yatmaq ürək döyüntülərinin sayını və qan təzyiqini artırır. Sürətli olaraq pozulan və ya azalan yuxu, əsasən də dərin yuxu problemləri sinir sisteminin degenerativ xəstəliklərinə gətirib çıxarır. Dərin yuxu yaddaşa, konsentrasiyaya və qərar qəbul etmə proseslərinə birbaşa təsir göstərir, eyni zamanda gün ərzində alınan məlumatı qismən emal etməyə kömək edir. Bundan əlavə, insan orqanizmi əsasən yuxuda olduğu zaman bədəndəki yaraları bərpa edir, zərərli maddələri kənarlaşdırır və sağalma proseslərini başlayır.

"Sağlam yuxu böyümə hormonu üçün də çox önəmlidir. Bu hormon sayəsində əzələ və sümük kütləsinin böyüməsi baş verir. Yuxu pozğunluqlarında, bütün bu proseslər nəzarətdən çıxır. Yetkinlik yaşına çatan insanlar üçün normal yuxu rejimi əvəzolunmazdır. Yuxu dərinin təravətli görünməsində və dəri hüceyrələrinin yenilənməsində xüsusi rol oynayır. Yuxusuzluğun müalicəsində əvvəlcə bunun səbəbini araşdırmaq lazımdır. Bəzən xəstələr həkim tövsiyəsi olmadan müxtəlif yuxugətirici vasitələr istifadə edirlər. Bu cür yanaşmalar zamanla müxtəlif problemlərə gətirib çıxarır. Yuxusuzluğu aradan qaldırmaq üçün yuxu və oyaqlıq balansının nizamlanması, aktiv həyat tərzi, təmiz havada gəzinti olduqca vacibdir. Həmçinin son qida qəbulunun yatmazdan ən azı 3-4 saat əvvəl olması tövsiyə olunur", - deyə terapevt qeyd edib.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20



**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov "Azvirt" MMC-nin baş mühəndisi, Əməkdar mühəndis

**CƏFƏRAĞA ŞİRİYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.



**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 4385
Sifariş 1120

Qiyməti 60 qəpik